1. Ox və yay meydana gəlmişdir:

- Aşel dövründə
- Neolit dövründə
- Mustye dövründə
- √ Mezolit dövründə
- Eneolit dövründə

2. Azərbaycanda birinci böyük ictimai əmək bölgüsü baş verib?

- Erkən orta əsrlərdə
- Eneolit dövründə
- √ Erkən Tunc dövründə
- Neolit dövründə
- Antik dövrdə

3. Qızılbaşlar Ağqoyunlular üzərində ilk qələbəni nə zaman qazandı:

- 1503- cü ildə Almaqulağı döyüşündə
- 1500- cü ildə Cabani döyüşündə
- 1514- cü ildə Çaldıran döyüşündə
- √ 1501- ci ildə Şərur döyüşündə
- 1510- cu ildə Mərv döyüşündə

4. Çaldıran döyüşünün nəticəsi nədən ibarət oldu:

- √ Türkiyə Ərzurum şəhəri ilə birlikdə Şərqi Anadolu və Şimali Mesopotamiyaya yiyələndi.
- Səfəvilər bütün Azərbaycan ərazisini itirdilər.
- Döyüş nəticəsiz başa çatdı.
- Cənubi Azərbaycan Osmanlılara verildi.
- Gürcüstan ərazisi Səfəvilərlə Osmanlılar arasında bölüşdürüldü.

5. Laçın rayonu düşməndən azad olundu:

- √ 2020- ci il dekabrın 1-də
- 2020 - ci il oktyabrın 3- də
- 2020 - ci il sentyabrın 27- də
- 2019- cu il aprelin 3- də
- 2021- ci il avqustun 15- də

6. 2003-2018- ci il inkişaf konsepsiyası çərçivəsində Bakıda hansı inşaat konmpleksi yaradılmışdı:

- Təzəpir məscidi
- Şirvanşahlar sarayı
- √ Alov qüllələri
- Bakı darvazası
- Gənclik meydanı

7. 1994- cü il mayın 12- də Azərbaycan - Ermənistan arasında bağlanmış atəşkəsdən sonra Azərbaycan qoşunlarının təmas xəttində ən böyük hərbi qarşıdurma idi:

- Daşaltı əməliyyatı
- Xankəndi əməliyyatı
- √ Aprel döyüşləri
- Şuşa əməliyyatı
- Xocalı döyüşləri

8. Azərbaycan- Türkiyə münasibətlərini müttəfiqlik səviyyəsinə qaldıran saziş necə adlanır:

√ Şuşa bəyannaməsi
• Bağdad sazişi
• Ankara müqaviləsi
• İstanbul müqaviləsi
• Bişkeş sazişi

9. Azərbaycan Respublikası və Türkiyə arasında "Strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında " müqavilə imzalanmışdı:

√ 2010- cu il avqustun 16- da
• 2017- ci il sentyabrın 9- da
• 2008- ci il oktyabrın 16- da
• 2012- ci il avqustun 3- də
• 2015- ci il iyulun 2- də

10. 1989- cu il sentyabrın 23- də "Azərbaycan SSR- nin suverenliyi haqqında" qəbul edilmiş konstitusiya qanunun mahiyyəti hansı bənddə düzgün əks edilmişdir:

√ Azərbaycan SSR qanunlarının İttifaq qanunlarından üstün olması
• Naxçıvan "mübahisəli" ərazi hesab edilirdi
• SSRİ ilə iqtisadi razılaşma əldə edilirdi
• Azərbaycanın milli parlamentinin fəaliyyəti qadağan edilirdi
• Azərbaycanın məhkəmə sistemi SSR qanunları ilə idarə olunmalı idi

11. Heydər Əliyevin rəhbərliyi altında "Torpaq islahatı haqqında" qanun verildi:

√ 1996- cı il iyulun 16- da
• 1994- cü il oktyabrın 18- də
• 1997- ci il noyabrın 12- də
• 1993- cü il martın 18- də
• 1995- ci il avqustun 3- də

12. Heydər Əliyevin təşəbüssü ilə Azərbaycanda ölüm hökmü ləğv edildi:

• 1993- cü ilin avqustunda
• 1994- cü ilin noyabrında
• 1997- ci ilin mayında
• 1995- ci ilin sentyabrında
√ 1998- ci ilin fevralında

13. Azərbaycan NATO- nun "Sülh naminə tərəfdaşlıq " proqramına qoşuldu:

• 1995- ci il aprelin 2- də
√ 1994- cü il mayın 4-də
• 1991- ci il avqustun 2- də
• 1992- ci il iyunun 16- da
• 1993- cü il sentyabrın 9- da

14. "Azərbaycan SSR -in suverenliyi haqqında " konstitusiya qanunu qəbul edildi:

• 1992- ci il oktyabrın 20 - də
• 1993- cü il noyabrın 5- də
√ 1989-cu il sentyabrın 23- də
• 1990 -cı il avqustun 5- də
• 1991- ci aprelin 19- da

15. Azərbaycanda ilk dəfə prezident vəzifəsinin təsis edilməsi haqqında qərar verildi:

• 1989- cu il sentyabrın 23- də
• 1993- cü il oktyabrın 6- da

√ 1990- cı il mayın 19- da
• 1991- ci il mayın 7- də
• 1992- ci il aprelin 16- da

16. Azərbaycan İqtisadi Əməkdaşlıq təşkilatına qoşuldu:

• 1995- ci ilin martında
• 1990 - cı ilin fevralında
• 1994- cü ilin mayında
• 1993- cü ilin aprelində
√ 1992- ci ilin fevralında

17. 1992- ci ilin martın 2-də Azərbaycan hansı beynəlxalq təşkilata daxil olmuşdu:

√ Birləşmiş Millətlər Təşkilatına
• Avropa Şurasına
• İslam Konfransı Təşkilatına
• İqtisadi Əməkdaşlıq Təşkilatına
• Şimali Atlantika Əməkdaşlıq Şurasına

18. 2020- ci il iyul ayında Azərbaycanın dövlət sərhədlərini pozaraq Ermənistan hansı istiqamətdə təxribat törətmişdir:

• Naxçıvan
√ Tovuz
• Qarabağ
• Laçın
• Kəlbəcər

19. Qarabağın azadlıq rəmzi elan edilmişdi:

• Ağ leylək
• Buta
√ Xarıbülbül
• Göyərçin
• Qara qartal

20. Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonaları yaradıldı:

√ 2021- ci il iyulun 7- də
• 2019 - cu ilin noyabrın 2- də
• 2023- cü ilin oktyabrın 20 - də
• 2025- ci ilin mayın 15- də
• 2022- ci ilin avqustun 8- də

21. 2019- cu il oktyabrın 15- də hansı beynəlxalq təşkilata sədrlik Azərbaycana həvalə edilmişdir:

• MDB ölkələri Təhlükəsizlik Şurasına
√ Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına
• Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına
• İslam Konfransı Təşkilatına
• NATO - nun Təhlükəsizlik Şurasına

22. İlham Əliyev " İslam Həmrəyliyi ili" elan etmişdi:

√ 2017- ci ili
• 2019- cu ili
• 2016- cı ili
• 2020- ci ili
• 2015- ci ili

23. Azərbaycan Respublikasının sənaye nazirliyi yaradılmışdı:

- 2007- ci ildə
- 2010 - cu ildə
- √ 2005- ci ildə
- 2009- cu ildə
- 2003- cü ildə

24. 2016- cı il aprel döyüşləri nəticəsində:
1.Erməni tərəfinin xeyli canlı qüvvə və hərbi texnikası məhv edildi
2.Fizuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altında olan 2 min hektardan çox ərazisi azad edildi
3.Cəbrayıl rayonunun Cocuq Mərcanlı və Fizuli rayonunun İranla sərhəd ərazilərinin təhlükəsizliyi təmin edildi
4.Fizuli rayonu işğaldan azad edildi
5.Ağbənd qəsəbəsi azad edildi

- √ 1,2,3
- 2,4,5
- 1,4,5
- 1,3,5
- 2,3,4

25. İranla dövlət sərhəddi tam nəzarətə götürüldü:

- Şuşanın azad edilməsi ilə
- Madagizin azad edilməsi ilə
- √ Zəngilanın Ağbənd qəsəbəsinin azad edilməsi ilə
- Cəbrayılın azad edilməsi ilə
- Fizulinin azad edilməsi ilə

26. Bakı -Tiflis -Ərzurum qaz kəmərinin tikintisi başa çatdırılmışdır:

- 2005- ci ildə
- √ 2006- cı ildə
- 2009- cu ildə
- 2003- cü ildə
- 2004- cü ildə

27. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olundu:

- 2009- cu il İslam Konfransı təşkilatı tərəfindən Bakının paytaxt edilməsi ilə
- 2011- ci il Azərbaycanın BMT təhlükəsizlik Şurasına üzv seçilməsi ilə
- √ 2023- cü il anti - terror əməliyyatı nəticəsində
- 2021- ci il Şuşa bəyannaməsi əsasında
- 2020 - ci il Zəgilanın Ağbənd qəsəbəsinin azad edilməsi ilə

28. Vətən müharibəsi dövründə Ermənistan müharibə cinayətləri törədərək hansı Azərbaycan şəhərlərini bombalamışdı:
1.Şəki 2.Gəncə 3.Mingəçevir
4.Bərdə 5.Şamaxı 6.Bakı

- √ 2,3, 4
- 4,1,6
- 5,1,2
- 2,1 ,3
- 1,6,3

29. Naxcıvanda Günnüt zəfəri qazanıldı:

- 2013- cü il avqustun 31- də
- 2012- ci il dekabrın 12- də
- √ 2018- cil il mayın 27 -də
- 2016- cı il iyunun 16- da
- 2019- cu il aperlin 20 -də

30. 2019-2022- ci illərdə Azərbaycan hansı təşkilata sədrlik etmişdir:

- İslam Konfransı Təşkilatına
- Avropada Əməkdaşlıq və Təhlükəsizlik Təşkilatına
- √ Qoşulmama hərəkatına
- BMT Təhlükəsizlik Şurasına
- Avropa Şurasına

31. İslam Konfransı Təşkilatı tərəfindən Azərbaycanın paytaxtı Bakı şəhəri İslam mədəniyyətinin paytaxtı elan edilmişdir:

- √ 2009- cu ildə
- 2023- cü ildə
- 2020- ci ildə
- 2013- cü ildə
- 2015- ci ildə

32. 2020-ci ilin iyununda baş vermiş Tovuz döyüşləri zamanı məhz bu general mayorumuz qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlmişdi:

- √ Polad Həşimov
- İbad Hüseynov
- Hikmət Həsənov
- Hikmət Mirzəyev
- İlqar Mirzəyev

33. Vətən müharibəsi dövründə Azərbaycanın hərbi əməliyyat planı adlanırdı:

- Bayraqdar
- √ Dəmir yumruq
- Zərbə
- Qara pələng
- Harap

34. İşğaldan azad edildikdən sonra Madagiz kəndı necə adlandırıldı:

- Varanda
- Qaryagin
- √ Suqovuşan
- Ağbənd
- Yuxarı Əbdurəhmanlı

35. Azərbaycan BMT -nin Təhlükəsizlik Şurasına qeyri - daimi üzv seçildi:

- 2009- cu ildə
- 2020- ci ildə
- 2019-cu ildə
- 2010- cu ildə
- √ 2011- ci ildə

36. Xocalı faciəsinin nəticələri hansı bənddə düzgün göstərilmişdir:

- 119 nəfər həlak olmuş, 500 nəfər işgəncələrə məruz qalmışdı
- 712 Xocalı sakini əsir düşmüşdü
- Şəhər əhalisinin yarısı evsiz- eşiksiz qalmışdı
- √ 613 nəfər dinc sakin qətlə yetirilmiş ,1275 nəfər girov götürülmüşdü
- Faciə 930 nəfərin girov götürülməsi ilə nəticələnmişdi

37. Azərbaycan İslam Konfransı təşkilatına üzv qəbul olunmuşdu:

- 1994- cü ilin iyulunda

- 1995- ci ilin iyununda
- 1992- ci ilin aprelində
- 1993- cü ilin avqustunda
- √ 1991- ci ilin dekabrında

38. Azərbaycan Respublikasında ilk dəfə test üsulu tətbiq edildi:

- 1993- cü ildə
- 1995- ci ildə
- 1996- cı ildə
- 1994 - cü ildə
- √ 1992- ci ildə

39. 1993- cü ilin fevralında Müstəqil Azərbaycan Respublikasının dövlət rəmzlərindən biri qəbul edildi:

- Dövlət Himni
- Milli Valyuta
- Dövlət Bayrağı
- Konstitusiya (Əsas qanun)
- √ Dövlət Gerbi

40. 1992- ci il martın 5- də Azərbaycan Respublikasının Ali Sovetinin sədri təyin olunmuşdu:

- √ Yaqub Məmmədov
- İsa Qənbər
- Ayaz Mütəllibov
- Kamran Bağırov
- Heydər Əliyev

41. 1991- ci il dekabrın 29- da respublikada keçirilən referendum hansı tarixi əhəmiyyət daşıyan məsələyə həsr olunmuşdu:

- Azərbaycanın BMT- yə qəbul edilməsinə
- Azərbaycanın İslam Konfransı təşkilatına daxil olmasına
- Dağlıq Qarabağ probleminə
- √ Dövlət müstəqilliyimiz haqqında Konstitusiya aktının müzakirəsinə
- Azərbaycanın NATO ilə əlaqələrinin gücləndirilməsinə

42. Dağlıq Qarabağdan Azərbaycan əhalisinin qovulması prosesi həlledici mərhələyə qədəm qoydu:

- 1992- ci ilin noyabrından
- 1989- cu ilin yanvarından
- 1992- ci ilin martından
- 1993- cü ilin avqustundan
- √ 1991- ci ilin sentyabrından

43. Azərbaycan SSR- nin qanunlarının İttifaq qanunlarından üstün olması və onun hətta SSRİ tərkibindən çıxa bilməsi təsdiqlənirdi:

- 1998- ci ilin fevralında verilmiş "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər" haqqında sənədlə
- 1991- ci il oktyabrın 18- də qəbul edilmiş "Azərbaycanın Dövlət Müstəqilliyi haqqında " Konstitusiya aktı ilə
- 1990 - cı il mayın 21- də qəbul edilmiş 28 may gününün Azərbaycan dövlətçiliyinin bərpa olunması günü elan edilməsi haqqında qanunla
- √ 1989- cu il sentyabrın 23- də qəbul olunmuş "Azərbaycan SSR -nin suverenliyi haqqında "qanunla
- 1991- ci il avqustun 30 - da qəbul olunmuş Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsi haqqında Bəyannamə ilə

44. Ermənilər tərəfindən Sumqayıt fitnəkarlığı törədilmişdir:

- 1993- cü il avqustun 31- də
- 1992- ci il fevralın 25-26- da
- 1990 - cı il yanvarın 20- də

- 1989- cu il fevralın 15- də
√ 1988- ci il fevralın 28- də

45. Azərbaycanlıların Ermənistandan deportasiyası başlanmışdır:

- 1993- cü ilin avqustunda
√ 1988- ci ilin yanvarında
- 1989- cu ilin mayında
- 1992- ci ilin mayında
- 1990- cı ilin aprelində

46. 1988 - ci il noyabrın 17- dən "Azadlıq" meydanında keçirilən mitinq:

- Azərbaycanm sərhəd bölgələrində ermənilərin fitnəkarlığının qarşısını almaq üçün könüllü birləşmələr yaratdı.
- Ermənistandan didərgin salınmış Azərbaycan türklərinin Dağlıq Qarabağa köçürülməsi haqda qərar qəbul etdi.
- Azərbaycanın SSRİ - nin tərkibindən çıxmasını zəruri saydı.
- Azərbaycan Kommunist Partiyasının buraxılmasını tələb etdi.
√ Xalq hərəkatının birinci - kortəbii mərhələsinin zirvəsi idi.

47. Prezident H.Əliyev əlaçı ali məktəb tələbələri üçün prezident təqaüdü təsis etdi:

- 1995- ci ildə
- 1996- cı ildə
- 1998- ci ildə
- 2002- ci ildə
√ 2001- ci ildə

48. Yeni Azərbaycan Partiyası təsis edildi:

- 1991- ci il oktyabrın 18 - də
- 1993- cü il iyunun 15- də
- 1993- cü il oktyabrın 3- də
- 1993- cü il iyunun 4- də
√ 1992- ci il noyabrın 21- də

49. Azərbaycan Milli Qəhramanı adı təsis olundu:

- 1992- ci il oktyabrın 9- da
- 1992- ci il mayın 25-də
√ 1992- ci il martın 25- də
- 1992- ci il fevralın 5- də
- 1992- ci il mayın 28- də

50. Azərbaycan Respublikasının müstəqilliyini ilk olaraq tanımış dövlətlər:

- Türkiyə , Rusiya , İran
- Rumıniya , İran , Fransa
√ Türkiyə, Rumıniya, Pakistan
- Türkiyə, Pakistan, ABŞ
- Türkiyə, ABŞ, İran

51. Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün ATƏM - in Minsk qrupu yaradılmışdı?

- 1996-cı ildə
√ 1992-ci ildə
- 1994-cü ildə
- 1993-cü ildə
- 1995-ci ildə

52. Azərbaycan Respublikasının milli ordu hissələrinin təşkili və silah- sursatla təminatında böyük rol oynamışdı:

- Bişkek protokolu
- ATƏT-in Budapeşt sammiti
- Alma - Ata sazişi
- √ Daşkənd müqaviləsi
- ATƏT-in Helsinki sammiti

53. Azərbaycanın cənub bölgəsində milli dövlətçiliyə qarşı qaldırılmış qiyam yatırıldı:

- 1994- ci ilin aprelində
- 1991- ci ilin avqustunda
- 1989- cu ilin sentyabrında
- 1995- ci ilin martında
- √ 1993- cü ilin iyununda

54. Dövlət Müdafiə Şurası yaradıldı:

- √ 1993- cü il noyabrın 1- də
- 1989- cu il aprelin 5- də
- 1991- ci iyunun 5- də
- 1992- ci il avqustun 30 – da
- 1994- cü il sentyabrın 20 - də

55. Dünya azərbaycanlılarının həmrəylik gününün qeyd olunması haqqında qərar qəbul olundu:

- 1988- ci il noyabrın 3- də
- 1989- cu il fevralın 12- də
- √ 1991- ci il dekabrın 25- də
- 1993- cü il fevralın 25- də
- 1992- ci il sentyabrın 15- də

56. Azərbaycan Respublikasında 1991- cı il dekabrın 29- da keçirilmiş ümumxalq səsverməsinin əsas nəticələri :

- √ Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxdı
- Azərbaycan xalqı prezident idarə üsulunun tətbiqinə səs verdi
- Azərbaycanın inzibati - idarəetmə sistemində dəyişiklik edildi
- Azərbaycan Respublikasının yeni konstitusiyası qəbul edildi
- Azərbaycan xalqı yekdilliklə SSRİ- nin saxlanılmasına tərəfdar çıxdı

57. Bakıda Dünya Azərbaycanlılarının birinci qurultayı keçirildi:

- 2006- cı ildə
- 2003- cü ildə
- 1996- cı ildə
- √ 2001- ci ildə
- 1998- ci ildə

58. Gəncə şəhərinin tarixi adı bərpa edildi:

- 1990- cı ildə
- 1992- ci ildə
- √ 1989- cu ildə
- 1988- ci ildə
- 1991- ci ildə

59. 1991- ci il dekabrın 25- də Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi qərarlar içərisində mühüm yer tuturdu:

- Milli müdafiə qüvvələrinin yaradılması
- Azərbaycanın BMT- yə qəbul edilməsi
- Üç rəngli bayrağın yenidən qaldırılması

- Orta məktəblərdə tədrisin yalnız Azərbaycan dilində aparılması
√ Kiril əlifbasından latın əlifbasına keçilməsi

60. Müstəqil Azərbaycan Respublikasının Dövlət Himni qəbul olundu:

- 1996- cı il yanvarın 19- da
√ 1992- ci il mayın 27- də
- 1993- cü il aprelin 19- da
- 1994- ci il sentyabrın 20- də
- 1995- ci il noyabrın 12- də

61. Bakı- Tiflis- Ceyhan boru kəmərinin tikintisi başa çatdırılmışdır:

- 2009- ci ilin dekabrın 15- də
- 2008- ci ilin avqustun 12- də
√ 2006- cı ilin iyulun 13- də
- 2005 - ci ilin oktyabrın 5- də
- 2004- cü ilin sentyabrın 14- də

62. Vətən müharibəsi başlandı:

√ 27 sentyabr 2020
- 21 oktyabr 2020
- 23 oktyabr 2020
- 21 iyul 2020
- 21 avqust 2020

63. 2020 - ci il oktyabrın 4-də:

- Xudafərin azad edildi
- Tərtərin Madagiz kəndi düşmən tapdağından azad edildi
- Fizuli şəhəri azad edildi
√ Cəbrayıl şəhəri azad edildi
- Zəngilan şəhəri azad edildi

64. Zəngilan şəhəri düşmən tapdağından azad edildi:

- 22 oktyabr 2020
- 28 oktyabr 2020
- 8 noyabr 2020
- 24 oktyabr 2020
√ 20 oktyabr 2020

65. 1990- cı il mayın 21- də qəbul edilmiş qərara əsasən:

- Azərbaycan Xalq Cəbhəsinin bağlanmasına qərar verildi
- Stepanakertin adı dəyişdirilib Xankəndi qoyulmalı idi
√ Xalq Cümhuriyyətinin yarandığı 28 may günü- Azərbaycan dövlətçiliyinin bərpası günü kimi elan edildi
- Azərbaycanda erməni milli icmasının fəaliyyəti dayandırılmalı idi
- Azərbaycanda ali məktəblərə qəbul imtahanlarının test üsulu ilə keçirilməsi nəzərdə tutulurdu

66. 1989-cu ilə aid olanları müəyyən edin.1)DQMV - dəki idarə və müəssisələr Azərbaycan SSR - in tabeliyindən çıxarıldı 2)Dağlıq Qarabağda vəziyyəti normal hala salmaq üçün Xüsusi İdarəetmə Komitəsi ləğv edildi. 3)SSRİ Ali Sovetinin Rəyasət Heyəti DQMV və başqa rayonlarda fövqəladə vəziyyət elan etdi.4)Azərbaycan SSR Ali Soveti Ermənistanla sərhəd boyu fövqəladə vəziyyət elan etdi

√ 1,2;
- 2, 4;
- 1,3;
- 2, 3;
- 1,4;

67. Ermənistandan azərbaycanlıların deportasiyası prosesi başa çatdı:

√ 1991- ci ilin avqustun 8- də
- 1992 – ci ilin fevralın 4- də
- 1992- ci ilin dekabrın 16- da
- 1993- cü ilin noyabrın 5- də
- 1989- cu ilin avqustun 6-da

68. Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olundu:

√ 1993- cü il aperiln 3- də
- 1992- ci il martın 3- də
- 1995-ci il iyunun 2- də
- 1992- ci il mayın 5- də
- 1993- cü il oktyabrın 28- də

69. 1990 - cı il noyabrın 17- də Naxçıvan parlamentinin sesiyasında qəbul edilmiş qərarlar:
1.20 yanvar hadisəsinə siyasi qiymət verildi
2.Naxçıvan Muxtar Respublikasının adından"sovet sosialist" sözləri götürüldü
3.AXC- nin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edildi
4.SSRİ konstitusiyasının 6- cı maddəsi ləğv edildi
5.SSRİ- nin saxlanmasına dair referundumun nəticələri bəyənildi

- 1,2;
- 2,5;
√ 2,3;
- 3,4;
- 4,5;

70. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyini bərpa etmək haqqında Azərbaycan Respublikası Ali Sovetinin Bəyannaməsi qəbul edildi:

- 1991- ci il dekabrın 29- da
√ 1991- ci il avqustun 30 - da
- 1991- ci il noyabrın 17- də
- 1991- ci il sentyabrın 3- də
- 1991- ci il oktyabrın 18- də

71. 1995- ci il noyabrın 12- də qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının maddələrinin təqbirən üçdə biri aiddir:

- mülkiyyət məsələlərinə
- dövlət quruculuğuna
√ İnsan hüquq və azadlıqlarına
- ümumbəşəri dəyələrə
- vətəndaş cəmiyyətinin bərqərar edilməsinə

72. Prezident İlham Əliyevin "XXI əsrin müqaviləsi" adlandırdığı sənəd hansı sazişə şamil olunurdu:

- Regionların sosial- iqtisadi inkişafı üzrə Dövlət Proqramına
- Bakı-Tiflis - Ərzurum qaz kəməri layihəsinə
- "Şahdəniz" qaz ixracı layihəsinə
- "Azəri", "Çıraq" yataqlarından ilk neftin çıxarılmasına
√ "Şahdəniz-2" Yekun İnvestisiya qərarına

73. Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin statusu ləğv edildi:

- 1989- cu il avqustun 5- də
- 1990- cı il mayın 27- də
- 1988- ci il yanvarın 26- da
√ 1991- ci il noyabrın 26- da

- 1992- ci il oktyabrın 5- də

74. Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı yaradılmış ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri hansılardır:

- İngiltərə, ABŞ , Türkiyə
- İran , Fransa, İngiltərə
- Rusiya , İtaliya, Almaniya
- √ Rusiya, Fransa , ABŞ
- Almaniya , Fransa, Türkiyə

75. 1991 - ci il avqustun 30- da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında qəbul edilmişdi:

- Azərbaycan vətəndaşlarının Dağlıq Qarabağdan çıxarılması haqqında qərar
- Bütün siyasi partiyaların qadağan edilməsini nəzərdə tutan sərəncam
- Azərbaycan SSR adından "Sovet və Sosialist" sözlərinin çıxarılması barədə fərman
- √ Azərbaycanın Dövlət müstəqilliyinin bərpası haqqında "Bəyannamə"
- Türkiyə dövləti ilə iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsini təmin edən saziş

76. 2020 -ci il dekabrın 10- da :

- Şuşa azad edildi
- Zəngilan azad edildi
- √ Zəfər paradı keçirildi
- Fizuli azad edildi
- Cəbrayıl azad edildi

77. 2020- ci dekabrın 1- də :

- Kəlbəcər azad edildi
- Cəbrayıl azad edildi
- Şuşa şəhəri işğaldan azad edildi
- √ Laçın azad edildi
- Zəngilan şəhəri azad edildi

78. 2020- ci il noyabrın 25- də:

- √ Kəlbəcər azad edildi
- Ağdam şəhəri azad edildi
- Cəbrayıl azad edildi
- Zəngilan şəhəri azad edildi
- Şuşa şəhəri işğaldan azad edildi

79. 2020 - ci il noyabrın 20 -də:

- Qubadlı şəhəri azad edildi
- √ Ağdam şəhəri azad edildi
- Şuşa şəhəri işğaldan azad edildi
- Zəngilan şəhəri azad edildi
- Cəbrayıl azad edildi

80. 2020 - ci il oktyabrın 25- də :

- √ Qubadlı şəhəri azad edildi
- Cəbrayıl azad edildi
- Şuşa şəhəri azad edildi
- Fizuli azad edildi
- Zəngilan azad edildi

81. 2020 - ci il oktyabrın 18- də :

- Zəngilanın Ağbənd qəsəbəsi azad edildi
- Cəbrayıl şəhəri azad edildi
- Fizuli şəhəri azad edildi
- √ Xudafərin körpüsü üzərində üçrəngli bayrağımız qaldırıldı
- Şuşa azad edildi

82. 2020 - ci il oktyabrın 17- də :

- Şuşa azad edildi
- Zəngilan şəhəri azad edildi
- √ Fizuli şəhəri azad edildi
- Xudafərin azad edidi
- Laçın azad edildi

83. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan arasında "Şuşa bəyannaməsi" imzalanmışdır:

- 15 iyul 2021
- 16 yanvar 2021
- 15 avqust 2021
- 16 sentyabr 2021
- √ 15 iyun 2021

84. 2023- cü ilin 19-20 sentyabrında keçirilən antiterror əməliyyatlarının nəticəsi nədən ibarət oldu:

- Avropa İttifaqının beynəlxalq missiyası Qarabağ bölgəsinə yerləşdirildi
- √ Qarabağda qondarma separatçı -terrorçu rejim ləğv edildi
- Rusiya sülhməramlıları bölgədən çıxarıldı
- Laçın və Kəlbəcər rayonları erməni işğalçılarından azad edildi
- Qarabağda məskunlaşan ermənilərə mədəni muxtariyyət verildi

85. 1920-ci ildə Sovet hökumətinə qarşı uğurla mübarizə apararaq Qarabağın hakimi elan edilmişdi:

- Vəhib paşa
- Ənvər paşa
- Mürsəl paşa
- √ Nuru paşa
- İsmət paşa

86. 1936-cı ilin avqustunda Müsavat partiyasının konqresi keçirilmişdi:

- Berlində
- Parisdə
- İstanbulda
- Romada
- √ Varşavada

87. 1923-cü ildə Türkiyədə çap olunan “Müxtəsər Azərbaycan tarixi” kitabının müəllifi idi:

- √ C.Zeynalov
- M.Rəsulzadə
- M.Baharlı
- M.B.Məmmədzadə
- Ə.Hüseynzadə

88. Azərbaycan xalqının ədəbi irsinin toplanması və sistemləşdirilməsində mühüm rol oynayırdı:

- B.Talıblı
- B. Çobanzadə
- M.Baharlı

- F.Köçərli
√ Salman Mümtaz

89. Kommunist Partiyası qolçomaqları bir təbəqə kimi ləğv etmək siyasətinə keçdi:

- 1928-ci ildə
- 1930-cu ildə
- 1926-cı ildə
√ 1929-cu ildə
- 1927-ci ildə

90. 1926-cı ildə təşkil olunmuş respublikanı sənayeləşdirmə üzrə komissiyanın sədri idi:

- Ə.Qarayev
- Ç.İldırım
- H.Sultanov
- D.Bünyadzadə
√ Q.Musabəyov

91. 1934-cü ildə yaradılmış gizli " Azərbaycan Milli təşkilatının" rəhbəri idi:

- Ə. Haqverdiyev
√ R. Axundov
- Ə. Cavad
- B. Çobanzadə
- T. Şahbazi

92. Gəncə üsyanını (1920-ci il may) yatıranda qəddarlığı ilə fərqlənən komissar:

√ H.Sultanov
- Ç.İldırım
- Mirzoyan
- Ə.Qarayev
- Mikoyan

93. RSFSR və Azərbaycan SSR arasında hərbi iqtisadi ittifaq haqqında müqavilə bağlandı?

- 1922-ci il oktyabrın 25-də
- 1923-ci il iyulun 10-da
√ 1920-ci il sentyabrın 30-da
- 1921-ci il dekabrın 14-də
- 1925-ci il sentyabrın 20-də

94. 1926-1929-cu ildə Qazax rayonunda antisovet hərəkat zamanı yaradılmış gizli təşkilat:

- Qurtuluş
- Çənlibel
- Yurd
√ Həqiqət ordusu
- Zirək

95. Azərbaycan SSR- nin birinci konstitusiyası qəbul olundu:

√ 1921- ci il mayın 6- da
- 1923- cü il dekabrın 6- da
- 1922- ci il aprelin 15- də
- 1924 - ci il mayın 3- də
- 1921- ci il oktyabrın 6- da

96. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Fətəli xan Xoyskinin Tiflisdə yaratdığı komitə adlanırdı:

- Azad Azərbaycan Komitəsi
- İstiqlal Komitəsi
- Musavat Komitəsi
- Yeni Qafqasiya Komitəsi
- √ Azərbaycan Qurtuluş Komitəsi

97. İstanbulda "Yeni Qafqasiya" məcmuəsinin nəşrinə başlanıldı:

- √ 1923- cü ildə
- 1922- ci ildə
- 1942- ci ildə
- 1920- ci ildə
- 1943- cü ildə

98. 1920- ci il aprelin 27- də Bakıda M.Ə.Rəsulzadənin təşəbbüsü ilə yaradılmışdı:

- Vətən və ya ölüm təşkilatı
- İctimai İdarə heyyəti
- Dördlər Şurası
- √ Müqavimət Komitəsi
- Gizli təşkilat

99. Sovet Rusiyası fəal şəkildə milliləşdirmə siyasəti həyata keçirmişdi:

- 1926-1932- ci illərdə
- 1920- 1925- cı illərdə
- 1930- 1932- ci illərdə
- 1921-1925-cı illərdə
- √ 1920-1922- ci illərdə

100. 1920- ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olmuşdu:

- L.Mirzoyan
- √ Q. Kamınski
- R.Rubenov
- V.Polonski
- S. M.Kirov

101. Sovetlər dövründə Azərbaycana rəhbərlik edərək milli dəyərlərin qorunmasında böyük səy göstərmişdir:

- Mir Cəfər Bağırov
- √ İmam Mustafayev
- Əbdülrəhman Vəzirov
- Mirzə Davud Hüseynov
- Kamran Bağırov

102. Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verildi:

- 1945-ci ildə
- 1948-ci ilodə
- 1965-ci ildə
- 1955-ci ildə
- √ 1957-ci ildə

103. 402-ci milli atıcı diviziya təşkil olundu:

- 1938-ci ilin avqustunda
- 1943-cü ilin avqustunda
- 1940-cı ilin avqustunda

- 1942-ci ilin avqustunda
√ 1941-ci ilin avqustunda

104. II Dunya müharibəsi illərində Azərbaycanda sənaye malları satışı üzrə kartoçka sistemi tətbiq edildi:

- 1941-cı ilin sentyabrında
- 1939-cu ilin sentyabrında
- 1943-cü ilin mayında
√ 1942-cı ilin aprelində
- 1940-cı ilin martında

105. 1976-ci ildə Azərbaycanın üçrəngli bayrağını qaldıraraq sovet hökumətinə qarşı mübarizə aparan təşkilat adlanırdı?

- Milli Azadlıq hərəkatı
- Azərbaycan Federalistlər İttifaqı
√ Azərbaycan Milli Demokrat İttifaqı
- Cəmiyyəti Xeyriyyə
- Müdafiə təşkilatı

106. 1945-ci ildə təşkil olunmuş Azərbaycan SSR Elmlər Akademiyasının ilk prezidenti oldu:

- H.Hüseynov
- Z.Xəlilov
√ M.Mirqasımov
- M.Topçubaşov
- Y.Məmmədəliyev

107. "Türkiyə casusu" kimi damğalanmış azərbaycanlı akademik:

- H.Hüseynov
√ M.Dadaşzadə
- M.İbrahimov
- M.Rəfili
- M.Arif

108. 1955-1959-cu illərdə Musavat partiyasının rəhbəri olmuşdur:

√ Mirzə Bala Məmmədzadə
- Mirzə Əbdürrəhim Talıbov
- Sultan Məcid Qənizadə
- İsmayıl Şıxlı
- İsrafil Axundov

109. Azərbaycanda təhsilinin rus dilində aparılmasına geniş yer verən qanun verildi?

- 1945-ci ildə
- 1952-ci ildə
- 1968-ci ildə
- 1972-ci ildə
√ 1959-cu ildə

110. Azərbaycan ziyalılarından təşkil olunan "Milli Azadlıq Qərargahı" yaradıldı:

- 1968-ci il yanvarın 15-də
- 1963-cü il avqustun 18-də
- 1969-ci il iuylun 31-də
- 1965-ci il oktyabrın 30-da
√ 1962-ci il dekabrın 17-də

111. 1959-cu ildə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə gətirildi:

- K.Bağırov
- İ.Mustafayev
- H.Əliyev
√ V.Axundov
- Ə.Vəzirov

112. Haqsızlığa intiharla cavab verən azərbaycanlı alim:

- M.Dadaşzadə
- S.Vəliyev
- V.Vəkilov
√ H.Hüseynov
- M.Rəfili

113. 1930–cu ildə sovetlərə qarşı ən böyük üsyan baş vermişdi:

- Qarabağda
- Naxçıvanda
- Nuxada
- Gəncədə
√ Şəki – Zaqatala qəzasında

114. Azərbaycanda qabaqcıl ziyalıların 1962-ci il dekabrın 17-də yaratdıqları təşkilat adlanırdı:

- "İldırım"
- "Qurtuluş"
- "Azərbaycan Milli təşkilatı"
- "Həqiqət ordusu"
√ "Milli Azadlıq Qərargahı"

115. Azərbaycanda dənizdə ilk neft quyusu fontan vurdu:

- 1947-ci il sentyabrın 12-də
- 1948-ci il mayın 28-də
- 1958-ci il martın - 2-də
- 1962-ci il avqustun 10-da
√ 1949-cu il noyabrın 7-də

116. II Dünya müharibəsi zamanı Berlində Milli Azərbaycan komitəsi təşkil olundu:

- 1941-ci ilin sentyabrında
- 1944-cü ilin fevralında
- 1942-ci ilin fevralında
- 1940-cı ilin baharında
√ 1943-cü ilin baharında

117. SSRİ Nazirlər Sovetinin 1947 - ci il 23 dekabr tarixli qərarının mahiyyəti:

- İkinci Dünya müharibəsində əsir düşüb xalq düşməni adlandırılmış şəxslərin azad edilməsi
- DQMV - nin Ermənistana birləşdirilməsi
- DQMV - də yaşayan ermənilərə xüsusi statusun verilməsi
- Azərbaycanda yaşayan ermənilərə və digər azlıqda qalan xalqlara öz ana dillərində orta məktəb açmaq hüququnun verilməsi
√ Ermənistan SSR - dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür - Araz ovalığına köçürülməsi

118. 1930-cu ildə Müsavatın xaricdəki bürosu ilə əlaqə yaratmış, onun direktivləri əsasında qeyri-leqal mərkəz yaratmışdı:

- T.Şahbazi
- M.Məmmədzadə
- C.Cabbarlı

√ X.İbrahimov
• M.Baharlı

119. İkinci Dünya müharibəsi illərində Bolqarıstan, Macarıstan, Rumıniya və Yuqoslaviyanın azad edilməsində fərqlənmiş Azərbaycanın milli diviziyası:

• 77-ci
• 416-cı
• 402-ci
• 271-ci
√ 223-cü

120. 1921- ci ildə RSFSR və Türkiyə arasında imzalanmış müqaviləyə əsasən Naxçıvanda hansı idarəetmə sistemi təşkil edilirdi

• Naxçıvan Türkiyə tərkibində saxlanılırdı
• Naxçıvan Türkiyə tərkibində qalmaqla yerli sturukturlar tərəfindən idarə edilməli idi
• Naxçıvana xüsusi özünü idarəetmə hüququ verilirdi
√ Azərbaycan tərkibində qalmaq şərti ilə Naxçıvan SSR yaradıldı
• Azərbaycan tərkibində qalmaqla Naxçıvan Muxtar Vilayəti yaradılırdı

121. Berlindəki kuçə döyüşlərində və Reyxstaqın alınmasında göstərdiyi igidliyə görə Sovet İttifaqı Qəhrəmanı adı alan azərbaycanlı:

• C.Əliyev
√ Y.Sadıqov
• Z. Bünyadov
• A.Vəzirov
• M.Abdullayev

122. Sovet Rusiyasının Azərbaycanı işğal etməsindən sonra Bakıda hansı - leqal mətbuat orqanı fəaliyyət göstərirdi:

• Azərbaycan qəzeti
√ İstiqlal qəzeti
• Qurtuluş qəzeti
• Açıq söz qəzeti
• Yeni Qafqasiya qəzeti

123. XX əsrin 60-cı illərində Bakı Dövlət Univeristetində azadlıq uğrunda gizli siyasi mübarizəyə rəhbərlik edirdi?

• İsmayıl Qasımov
• Namiq Axundov
√ Əbülfəz Elçibəy
• Faiq İskəndərov
• Xudu Məmmədov

124. 1941-1945-cı illər müharibəsi zamanı Ali Baş Komandanlıq Azərbaycan SSR-də hərbi vəziyyət elan etdi:

• 1943-cü ilin fevralında
• 1942-cı ilin yanvarında
• 1941-cı ilin iyununda
√ 1942-cı ilin sentyabrında
• 1940-cı ilin iyununda

125. SSRİ Ali Soveti Rəyasət heyətinin qərarı ilə Zaqafqaziya Müsəlmanlarının Ruhani İdarəsinin təşkil olunmasından neçə il əvvəl 402 - ci milli diviziya təşkil olunmuşdur?

• 11 il
√ 3 il
• 8 il
• 7 il
• 5 il

126. Siyasi məhbuslar saxlanılan düşərgələrə rəhbərlik edən İslah Əmək Düşərgələri Baş İdarəsi - "QULAK" ləğv edildi:

- 1964-cü ildə
- √ 1956-cı ildə
- 1953-cü ildə
- 1948-ci ildə
- 1961- ci ildə

127. 1828- ci ildə bağlanmış Türkmənçay sülhü ilə İrana qatılan Cənubi Azərbaycan ərazisinə daxil idi:

- Qərbdə Urmiya ,şərqdə Tehran və Zəncan ostanları
- √ Cənubda Həmədan, cənub -şərqdə Zəncan və Qəzvin mahalları
- Şimal- qərbdə Sovuçbulaq , şərqdə Binab və Ərdəbil mahalları
- Cənub- şərqdə Dehxarqan , cənubda Zəncan və Təbriz mahalları
- Cənubda Xalxal, şimalda Araz çayı və Miyanə mahalları

128. 1905- ci ildə Tehranda yaranmış "Əncümən-e məxfi " təşkilatı hansı tələbləri irəli sürürdü:

- √ İranlıları, o cümlədən azərbaycanlıları xaricilərə və yerli hakim dairələrə qarşı mübarizəyə çağırırdı
- Şimali Azərbaycanda yaranmış sosial demokrat təşkilatlarla əlaqələri qücləndirməyi planlayırdı
- Cənubi Azərbaycanın İrandan ayrılmasını tələb edirdi
- Təbrizdə,Zəncanda ana dilində mədrəsə və məktəblərin açılmasını tələb edirdi
- Avropalıları ölkəyə dəvət edib İranda hakimiyyətin devrilməsinə cəhd edirdi

129. Şeyx Xiyabani yeni dövlətini necə adlandırırdı:

- Gilan respublikası
- √ Azadistan
- Azərbaycan
- Azərbaycan Cümhuriyyəti
- Azərbaycan əncüməni

130. Rusiya Səttərxan hərəkatını yatırmaq üçün İrana qoşun yeritdi:

- 1907 - ci il aprelin 5- də
- √ 1909 – cu il aprelin 25- də
- 1911- ci il noyabrın 6- da
- 1908- cil il fevralın 11- də
- 1912- ci il martın 2- də
- 1907- ci il dekabrın 18- də

131. 1906 - 1911- ci il inqilabı zamanı məclisə seçkiləri təşkil etmək üçün yaradılmış seçkili nümayəndəli orqan necə adlanırdı:

- Milli Şura
- √ Azərbaycan Əyalət Əncuməni
- İctimai İdarə Heyəti
- Sosial Demokrat Təşkilatı
- Fövqəladə Komissiya

132. 1905 - 1911- ci illər Məşrutə inqilabı dövründə Cənubi Azərbaycan ilk dəfə ana dilində nəşr olunmuş qəzet və jurnallar : 1."Ana dili ", 2."Dirilik ", 3 "İqbal" , 4.Məzəli", 5. "Zənbur", 6. "Həyat"

- 2,4,6
- 1,5,6
- 1,3,5
- √ 1,4,5
- 3,4,5

133. Cənubi Azərbaycanın ticarət əlaqələrinin şimala yönəlməsinə şərait yaradan mühüm amillərdən biri:

- Gömrük rüsumlarının daha da ağırlaşdırılması haqqında İran şahının fərman verməsi
- Türkmənçay müqaviləsinə əsasən rus tacirlərinin güzəştli ticarət hüququna malik olması
- İngiltərənin İranın iqtisadiyyatına daha geniş nüfuz etməsi
- Şimal ölkələrinə xırda sənətkarlıq məhsullarına olan tələbatın artması
- √ Çar Rusiyasının Avropa mallarının Qafqaza daxil olmasını məhdudlaşdırması

134. Türkmənçay müqaviləsindən sonra Təbriz əyalətində nizami qoşun hissəsinin başçısı necə adlanırdı :

- Sahibi - divan
- Əmir
- Əmir əl - üməra
- Sədr - əzəm
- √ Əmir - nizam

135. S.C.Pişəvərinin başçılığı ilə Azərbaycan Demokrat Partiyası yaradıldı:

- √ 1945-ci ilin sentyabrında
- 1941-ci ilin oktyabrında
- 1940-ci ilin mayında
- 1946-cı ilin dekabrında
- 1938-ci ilin sentyabrında

136. S.C.Pişəvərinin başçılığı ilə Milli hökümət yarandı:

- 1946-cı ilin fevralında
- 1943-cü ilin sentyabrında
- 1941-ci ilin avqustunda
- 1944-cü ilin iyununda
- √ 1945-ci ilin dekabrında

137. İran Demokrat Partiyasının siyasi orqanı olan «İrane-nou»nun redaktoru idi:

- N.Nərimanov
- Əli Müsyö
- Hacı Əli Davafuruş
- H.Tağızadə
- √ M.Ə.Rəsulzadə

138. Təbriz fədailəri müdafiədən əks-hücüma keçdilər:

- 1909-cu ilin fevralında
- 1908-ci ilin sentyabrinda
- 1908-ci ilin iyununda
- √ 1908-ci ilin oktyabrında
- 1908-ci ilin avqustunda

139. 1920- ci il Təbriz üsyanı dövründə bütün İranı bürüyən etiraz hərəkatı yönəlmişdi:

- Zəncan, Rəşt , Marağa , Ərdəbil
- rus kazakları və kürdlərə qarşı
- Amerika missionerlərinə qarşı
- hind sipahilərinə qarşı
- aysor və kürdlərə qarşı
- √ İngilislərə və daxili irticaya qarşı

140. Təbrizdə«Gizli Mərkəz» in başında dururdu:

- Hacı Əli Davafuruş
- Bağırxan
√ Əli Müsyö
- Səttarxan
- Mir Həşim

141. 1908-ci il iyunun 23-də şahın göstərişi ilə məclisi top atəşinə tutdu:

- daşnak Yefrem
- M.Hüseyn Haşimi
- Rəhim xan
√ rus polkovniki Lyaxov
- Kiçik xan

142. 1905-ci il 12 dekabrda baş nazir Eynüddövlənin 17 taciri həbs edilib döydürülməsinin səbəbi:

- düyünün bahalanması
- xalçanın bahalanması
√ qəndin bahalanması
- ipəyin bahalanması
- taxılın bahalanması

143. Təbriz Universiteti təsis edildi:

√ 1946-ilin iyununda
- 1941-ci ilin sentyabrında
- 1942-cı ilin oktyabrında
- 1945-ilin fevralında
- 1943-cü ilin noyabrında

144. "21 Azər hərəkatı" adlanır:

- Cənubi Azərbaycanda ana dilinin dövlət dili elan edilməsi haqqında hökumətin qərarı
- Raz şahın ölkədən qaçması ilə başlanan hərəkat
- Sovet ordularının Təbrizə daxil olması ilə başlanan milli demokratik hərəkatın başlaması
- Təbrizdə şah rejimi və iri ruhanilərə qarşı başlanan silahlı üsyan
√ Təbrizdə Milli hökumətin yaradılması

145. 1945- ci ildə Cənubi Azərbaycanda yaradılmış Milli hökumətin gördüyü tədbirlərə aid deyil:

- "Əmək haqqında qanun" qəbul etməsi
√ Neft sənayesinin konsessiyaya verilməsi
- Təbriz Univeristetinin yaradılması
- Yerlərdə inzibati - ərazi orqanlarının yaradılması
- "Dil haqqında qanun" qəbul etməsi

146. 1918- ci il Şimali Azərbaycan və Cənubi Azərbaycan tarixinə aid oxşar cəhət:

√ Ərazisinin ingilis qoşunları tərəfindən işğal olunması
- İki hissəyə parçalanması
- Ölkə parlamentinin yaradılması
- Milli hökumətin yaradılması
- Aqrar islahat keçirilməsi

147. Cənubi Azərbaycanda 1920- ci ilin aprelində üsyana başçılıq etmək üçün təşkil olunmuşdu:

- Azərbaycan Əyalət Komitəsi
√ İctimai İdarə Heyəti
- Hərbi Şura
- ADF-nin Mərkəzi komitəsi

- İran Demokratik Partiyası

148. Ş.M. Xiyabani Tehran hökumətindən tələb edirdi:

- Cənubi Azərbaycana müstəqilliyin verilməsini
- √ Cənubi Azərbaycana muxtariyyət verilməsini
- Osmanlıların ölkə ərazisidən çıxarılmasını
- İngilislərlə bağlanmış bütün müqavilələrin ləğv edilməsini
- Qacarlar dövlətinin parlamentli monarxiya elan edilməsini

149. Cənubi Azərbaycan Demokrat Partiyasının Bakı təşkilatının nəşr etdirdiyi qəzet:

- √ Azərbaycan
- Hümmət
- Təcəddüd
- İrşad
- Ədalət

150. 1917- ci ildə Cənubi Azərbaycanda milli demokratik hərəkatın başlanmasına təsir göstərdi:

- Şimali Azərbaycanda milli demokratik hökumətin qurulması
- İranı ingilis qoşunları işğal etməsi
- Osmanlı dövlətində "Gənc türklər" hərəkatının başlanması
- √ Rusiyada Fevral inqilabı baş verməsi
- Cənubi Azərbaycanın rus qoşunları tərəfindən işğal edilməsi

151. Cənubi Azərbaycanda 1941- 1946 - cı illər milli demokratik hərəkatını boğmaq üçün İran hökumətinin başçısı Əhməd Qəvam:
1. Danışıqlar bəhanəsi ilə S.C. Pişəvərini Tehrana aparıb həbs etdirdi
2.Müəyyən güzəştlər müqabilində SSRİ- nin bitərəflıiyinə nail oldu
3.Fədai dəstələrinin rəhbərliyini ələ aldı
4. "İran məsələsi"ni BMT - də müzakirəyə çıxardı

- √ 2,4
- 1,2
- 2,3
- 1,4
- 1,3

152. 1941- 1946- ci illər Cənubi Azərbaycan Milli hərəkatının məğlub olmasının səbəbləri:
1.Milli hökumətin buraxdığı kobud səhvlər
2.Milli ordunun silahla pis təchizi və milli xəyanət
3.ABŞ və İngiltərənin şah hökumətinə yardım etməsi
4.Sovet hökumətinin qoşunlarının İrandan çıxarılması

- 1,3
- 2,4
- 2,3
- 1,4
- √ 3,4

153. Bakıda Cənubi Azərbaycandan olan fədailərin daxil olduğu «Mücahid» partiyasının yaranmasında mühüm rol oynadı:

- Ə.Tağızadə
- √ N.Nərimanov
- M.Əzizbəyov
- M.Ə.Rəsulzadə
- Əli Müsyö

154. 1918-ci il 28 may İstiqlal Bəyənnaməsində bildirilirdi: Azərbaycanda ali hakimiyyət məxsusdur.

- √ Azərbaycan xalqına
- Müvəqqəti hökumətə

- Milli Şuraya
- Parlamentə
- Nazirlər kabinetinə

155. Səttərxan hərəkatının yatırılmasında İran hökumətinə kömək göstərən əsas xarici dövlət idi:

- İsveç
- Almaniya
√ Rusiya
- Türkiyə
- Fransa

156. Məşrutə inqilabı dövründə Qacar şahı Cənubi Azərbaycanda azadlıq hərəkatını yatırdı:

√ Rus qoşunlarının köməyi ilə;
- Osmanlı qoşunlarının köməyi ilə;
- Almaniyanın köməyi ilə;
- Belçikanın hərbi yardımı ilə;
- Fransa qoşunlarının köməyi ilə;

157. 1907-ci ildə İran inqilabının yüksəlişinin nəticələri:

- İngiltərə və Rusiya İran inqilabını böğmaq üçün ittifaq yaratdılar;
√ Məhəmmədəli şah demokratik mməzmunlu konstitusiyanı əlavələrilə birlikdə imzalamağa məcbur oldu;
- Məhəmmədəli şah Səttarxan və Bağırxanla danışıqlar aparmağa məcbur oldu;
- Məhəmmədəli şah konstitusiyanı ləğv etdi;
- Xarici müdaxiləçilər ölkədən qovuldu;

158. Məşrutə hərakatı dövründə Müzəffərəddin şahın üsyanın təsiri ilə verdiyi fərmanları müəyyən edin:
1. Qəndin qiymətinin aşağı salınması
2. Konstitusiya qəbul edilməsi
3. Məclisə seçkilər keçirilməsi
4. Xalqın şikayətlərinə baxmaq üçün komissiya yaradılması

√ 2.3;
- 3.4;
- 1.4;
- 1.3;
- 1.2;

159. Tehranda Səttarxanla Yefremin quldur dəstəsi arasında baş verən döyüşün nəticələri:
1. Xeyli mücahid həlak oldu;
2. Mücahidlər qalib gəldilər
3. ağır yaralanan Səttərxan Tehranda ev dustağına çevrildi
4. Səttarxan Təbrizə döndü

- 1.2;
- 1.4;
- 3,4;
- 2.3;
√ 1.3;

160. 1908-ci ildə Təbrizdə qazanılan qələbənin nəticəsi:

- İran inqilabı qalib gəldi;
- Məşrutə inqilabı bütün ölkə ərazisinə yayıldı;
- Rus qoşunları İranı tərk etdilər;
- İnqilab Şimali Azərbaycana yayıldı;
√ Qacarlar dövlətində inqilabi iş yenidən canlandı;

161. Tehrandakı əksinqilabı çevrilişdən sonra İran inqilabının mərkəzinə çevrildi:

- İsfahan;
- Ərdəbil;
- Xoy;
√ Təbriz;
- Zəncan;

162. 1905-11-ci illər İran inqilabı dövründə yeganə hakimiyyət orqanı idi:

- Ədliyyə idarəsi;
√ Azərbaycan Əyalət Şurası;
- Xüsusi komissiya;
- Milli hökümət;
- Tehranda çağrılmış məclis;

163. 1908-ci ildə Təbrizin əksinqilabçılardan təmizlənməsi nəticəsində;
1. Şəhərdə qayda-qanun yaradıldı
2. "Müharibə xərci" adlanan vergi yığılmağa başlandı
3. Xalqın nifrət etdiyi məmurlar o cümlədən vali Səməd xan şəhərdən qovuldu
4. Şəhərdəki bütün taxıl anbarları möhürlənməyə başladı

- 2.3;
- 2.4;
- 1.4;
- 1.2;
√ 1.3;

164. Məşrutə inqilabında qığılcım rolu oynadı:

- bakıda fəhlələr ilə sahibkarlar arasında müştərək müqavilə imzalanması;
√ Baş nazirin 17 taciri həbs etdirilməsi və onların dükanlarının qarət olunması;
- Baş nazirin qəndin qiymətin qaldırması;
- Şahın yeni vergilər haqqında fərman verməsi;
- Belçika ilə müqavilənin bağlanması;

165. Qacarlar hökuməti məşrutə inqilabını yatırtmaq üçün ittifaqa girmişdi:

- ABŞ və Rusiya ilə
- İngiltərə və fransa ilə
- Osmanlı və rusiya ilə
- İtaliya və ABŞ ilə
√ İngiltərə və Rusiya ilə

166. 1907-ci ildə İran inqilabının yüksəlişinin nəticələri:

√ Məhəmmədəli şah demokratik məzmunlu konstitusiyanı əlavələrilə birlikdə imzalamağa məcbur oldu;
- Məhəmmədəli şah Səttarxan və Bağırxanla danışıqlar aparmağa məcbur oldu;
- Xarici müdaxiləçilər ölkədən qovuldu;
- İngiltərə və Rusiya İran inqilabını böğmaq üçün ittifaq yaratdılar;
- Məhəmmədəli şah konstitusiyanı ləğv etdi;

167. 1917 – ci ildə mitinqlərdə “Yaşasın, Azərbaycan muxtariyyəti” şüarı ilə çıxış etmişdi:

- “Hümmət” təşkilatı
- “Difai” partiyası
- “Ədalət” təşkilatı
√ “Federalistlərin türk partiyası”
- “Müdafiə” təşkilatı

168. Bakı və Tiflis şəhəri arasında birbaşa teleqraf xətti çəkilmişdi:

- 1901-ci ildə
- 1906-cı ildə
- 1909-cu ildə
- 1914-cü ildə
√ 1912-ci ildə

169. Cənubi Qafqaz Komissarlığı təsis edilmişdi:

- 1917-ci ilin sentyabrında
- 1917-ci ilin fevralında
√ 1917-ci ilin noyabrında
- 1917-ci ilin martında
- 1917-ci ilin dekabrında

170. 1917 – ci ilin sentyabrında Gəncədə yaranmışdı:

- ”Müdafiə” təşkilatı
√ ”İttihadi – islam” partiyası
- ”Difai” partiyası
- ”Qeyrət” partiyası
- ”Hümmət” təşkilatı

171. Rusiyanın federativ quruluşunda Azərbaycana ilk dəfə muxtariyyət verilməsini tələb edən partiya idi:

- Difai
- Kadet
- Musavat
√ Qeyrət
- Müdafiə

172. "Azərbaycan Cümhuriyyəti,keyfiyyəti, təşəkkülü, indiki vəziyyəti " adlı əsərin müəllifi idi:

- F. Xoyski
- Ə.Topçubaşov
- Ə.Hüseynzadə
- M. Məmmədzadə
√ M.Ə. Rəsulzadə

173. Azərbaycan Xalq Cümhuriyyəti Hökümətinin 1918-ci il 21 iyun tarixli fərmanında nəzərdə tutulurdu:

- Ticarət və daxili bazarı dirçəltmək məqsədi ilə azad ticarətin yaradılması
- Azərbaycan türk dilinin dövlət dili elan edilməsi
√ Dövlət bayrağının yaradılması
- Xəzər dəniz donanmasının yaradılması
- Məktəblərin milliləşdirilməsi

174. 1918-ci iyunun 27- də AXC-nin verdiyi qərara əsasən:

- Bakı Dövlət Univeristeti açılmalı idi
- Ölkə daxilində azad ticarətə icazə verilirdi
- Təhsil müəssisələri milliləşdirilməli idi
√ məktəblərdə təhsil türk dilində aparılmalı idi
- Bakı bonu yaradılmalı idi

175. 1918- ci avqustun 27- də AXC –nin verdiyi qərara əsasən:

- Bakı Dövlət Univeristeti açilmalı idi
√ ölkə daxilində azad ticarətə icazə verilirdi
- Bakı bonu yaradılmalı idi
- təhsil müəssisələri milliləşdirilməli idi

- məktəblərdə təhsil türk dilində aparılmalı idi

176. Rusiyada bolşeviklər hakimiyyətə gəldikdən sonra Bakıda Sovet hakimiyyətinin qurulmasını elan etdilər:

- 1919- cu il dekabrın 7- də
- √ 1917- ci il noyabrın 2- də
- 1920- ci il aprelin 18- də
- 1916- cı il martın 9- da
- 1917- ci il dekabrın 5 -də

177. AXC- nin II hökumət kabineti təşkil olundu:

- 1919- cu ilin martın 5- də
- 1918- ci ilin fevralın 6- da
- 1918 – ci ilin dekabrın 26- da
- 1919- cu ilin yanvarın 16- da
- √ 1918 – ci ilin iyunun 17- də

178. 1919- cu ilin yanvar ayının 15- də hansı qəzalardan ibarət Qarabağ general qubernatorluğu yaradıldı:

- Naxçıvan, Zəngəzur, Ordubad, Axalsix
- Quba, Zəngəzur, Şamaxı, Dərbənd
- √ Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur
- Cavanşir, Bakı, Naxçıvan
- Cavad, Göyçay, Quba

179. AXC-nin 1918- ci il avqustun 28- də verdiyi qərara əsasən:

- torpaq məsələsinə yenidən baxılmalı idi
- √ təhsil müəssisələri milliləşdirilməli idi
- maliyyə siyasəti yeniləşdirilməli idi
- sosial siyasət təzə proqram əsasında həyata keçirilməli idi
- yeni gömrük xidməti yaradılmalı idi

180. AXC- nin yeganə dayağı olan Türkiyə ordusu hansı müqaviləyə əsasən Azərbaycandan çəkilməli idi:

- Brest- Litovsk
- Qars
- √ Mudros
- Moskva
- Batum

181. Azərbaycan Xalq Cümhuriyyənin 1919- cu il iyunun 16- da "hərbi-müdafiə paktı" imzaladığı dövlət:

- Fransa
- √ Gürcüstan
- Rusiya
- Türkiyə
- İngiltərə

182. 1920 – ci il martın 20 – də AXC hansı dövlətlə "sülh və dostluq " haqqında müqavilə bağlamışdı:

- Türkiyə ilə
- Ermənistanla
- Rusiya ilə
- √ Qacar dövləti ilə
- Gürcüstanla

183. Azərbaycan Xalq Cümhuriyyətinin yarımrəsmi orqanı idi:

√ Azərbaycan hökümətinin əxbəri
• Füqəra sədası
• Hürriyyət
• Məşəl
• Müsəlmanlıq

184. Cənubi Rusiya Könüllü ordusu dəniz donanmasının vitse-admiralı Gerasimovun Azərbaycan Cümhuriyyəti hökumətinə verdiyi Notada:

√ Azərbaycan Xəzər donanmasının ləğv edilməsi tələb edilirdi.
• Sovet Rusiyasının XI ordusunun Azərbaycan ərazisinə girəcəyi bildirilirdi.
• Azərbaycan milli hökumətinin hakimiyyəti bolşeviklərə verilməsi istənilirdi.
• Denikinə qarşı mübarizə aparmaq tələb olunurdu.
• Rus hərbi gəmilərinin Xəzər dənizində üzərkən yanacaqla təmin olunması tələb olunurdu.

185. 1804-cü ildə Yelzavetpol adlandırılan Gəncə şəhərinin adı nə vaxt geri qaytarıldı?

• 1921-ci il oktyabrın 7-də
√ 1918-ci il iyulun 30-da
• 1920-ci il sentyabrın 12-də
• 1919-ci il iyunun 15-də
• 1920-ci il dekabrın 5-də

186. Cənubi azərbaycanlıları birləşdirən «Ədalət» təşkilatı «Hümmət»dən ayrıldı:

• 1918-ci ildə
• 1913-ci ildə
• 1915-ci ildə
√ 1917-ci ildə
• 1912-ci ildə

187. Bakı quberniyasında türk-müsəlman soyqırımı davam etmişdir:

• 1918-ci il mayadək
• 1918-ci il iyunadək
• 1918-ci il dekabradək
• 1918-ci il noyabrın ortalarınadək
√ 1918-ci il sentyabradək

188. M. Ə. Rəzulzadənin 1910 – cu ildə nəşrinə başladığı qəzet:

• Təkamül
• Yoldaş
• Açıq söz
• Hümmət
√ Yeni İran

189. "Musavat" partiyasının I qurultayı keçirilmişdi:

• 1917- ci ilin noyabrında
• 1917 - ci ilin dekabrında
• 1917- ci ilin sentyabrında
• 1917 - ci ilin fevralında
√ 1917 - ci iin oktyabrında

190. Azərbaycan Xalq Cümhuriyyətinin Gəncə dövrünə aid olanları müəyyən edin:
1)Daxili işlər orqanları quruldu
2)Azərbaycan parlamenti öz işinə başladı
3)Milli ordu yaradıldı
4)Azərbaycan təbəəliyi haqqında qərar qəbul edildi
5)Müvəqqəti hökumətin istefası ilə bütün hakimiyyət parlamentə verildi.

- 3,4,5
- √ 1,3,4
- 1,4,5
- 1,2,3
- 2,4,5

191. Azərbaycan Cümhuriyyəti dövründə Ərzaq nazirliyinin 24 iyun 1918-ci il qərarı ilə:

- √ əhalini və ordunu zəruri məhsullarla təmin etmək üçün respublikadan kənara mal çıxarılması, şəxsi istehlakdan lazım olan miqdardan artıq taxıl alveri qadağan edilir.
- əhalinin və ordunun zəruri məhsullara olan tələbatını ödəmək üçün Türkiyədən gətirilən taxıl məhsullarına görə tətbiq olunan rüsum müvəqqəti olaraq ləğv edildi.
- Kəndlilərin vəziyyətini yaxşılaşdırmaq üçün onlardan toplanan məhsul vergisi ləğv olundu
- Kəndlilərin pay torpaqlarının müsadirəsi həyata keçirildi
- Kəndlilərdən artıq taxıl bazar qiymətinə dövlət tərəfindən alındı

192. Azərbaycan Xalq Cümhuriyyəti dövründə xarici siyasətə uyğun variantı müəyyən edin:
1.1918-ci il may-oktyabr
2.1918-ci il noyabr-1920-ci il yanvar
3.1920-ci il yanvar-aprel
I.Qərb oryentasiyası dövrü
II. Dünya əməkdaşlığına daxil olmaq uğrunda mübarizə dövrü
III. Türkiyə oryentasiyası dövrü

- 1-I, 2-III, 3-II
- 1-II, 2-I,3-III
- 1-I, 2-II, 3-III
- √ 1-III, 2-I, 3-II
- 1-II, 2-III, 3-I

193. 1919-cu il iyulun 21-də Azərbaycan Respublikasının Müəssislər məclisinə seçkilər haqqında əsasnaməyə görə:

- √ Seçkilərdə cinsindən, dilindən, milliyyətindən asılı olmayaraq 20 yaşına çatmış bütün respublika vətəndaşları iştirak edə bilərdilər.
- Yalnız əmlak sahibi olan vergi və rüsumları ödəyən 15 yaşına çatmış şəxslər seçkilərə qatıla bilər
- 25 yaşına çatmış Azərbaycan Respublikasının bütün vətəndaşları seçkilərdə iştirak edə bilərdilər
- Cinsindən, milliyyətindən asılı olaraq 23 yaşına çatmış şəxslər seçkilərdə iştirak edə bilər
- Ali müsəlman silkinə mənsub olan, 25 yaşından yuxarı respublika vətəndaşları seçilmək hüququna malikdir.

194. 1918 -ci il mart soyqrımı ərəfəsində Bakıda əhalinin ciddi müqavimətinə səbəb oldu:

- Xəzər doanmasının Bakı Sovetinə tabe edilməsi
- √ "Evelina" gəmisinin bolşeviklər tərəfindən tərk silah edilməsi
- Erməni Milli Şurasının yaradılması
- Bakı Sovetinin İnqilabi Müdafiə Komitəsi təşkil etməsi
- Bolşevik və erməni mətbuatından başqa bütün qəzet və jurnallarının bağlanması

195. "İstiqlaliyyət Bəyannamə" sinin 6- cı maddəsinə əsasən ali hakimiyyət məxsus idi:
1. Milli Şuraya
2.Müvəqqəti Hökumətə
3.Müəssislər Məclisinə
4.Nazirlər Kabinetinə

- 2,3
- √ 1,2
- 1,4
- 1,3
- 2,4

196. 1919 -cu ilin iyununda qəbul edilmiş Müəssislər Məclisinə seçkilər haqqında Əsasnaməyə əsasən:

- Qadınlara seçib seçilmək hüquqi verildi
- Sovet Rusiyasının seçkilərə müdaxiləsi qadağan edildi

√ 20 yaşına çatmış bütün vətəndaşlara seçkilərdə iştirak hüququ verildi
• İlk dəfə kişilərlə qadınlara bərabər hüquq bərabərliyi verildi
• Qeyri müsəlmanların iştirakı qadağan edildi

197. Dağlıq Qarabağa olan iddialarından ermənilər birdəfəlik əl çəkməyi vəd etdilər:

• Araz- Türk Respublikasının ləğv edilməsi ilə
• Tiflis sazişi ilə
• Qərb dövlətlərinin təhriki ilə
√ İrəvanın ermənilərə verilməsi ilə
• Naxçıvanda erməni idarəçiliyinin yaradılması ilə

198. 1920 - ci il aprelin 27- də AXC parlamentinin sonuncu iclasında qəbul edilən sonuncu qərara əsasən :
1.Azərbaycanın müstəqilliyi qorunub saxlanılmalı idi
2.Azərbaycan Kommunist partiyasının tərkibində olan ermənilər çıxarılmalı idi
3.XI Qırmızı Ordu Bakını işğal etməməli idi
4.Kommunist hökuməti müvəqqəti orqan olmalı idi
5.Aprelin sonuna kimi rus qoşunları Azərbaycanı tərk etməli idi

• 2,4,5
• 2,3,5
• 1,3,5
√ 1,3,4
• 1,2,3

199. AXC-yə aid olanları müəyyən edin:
1.Parlametin yaradılması
2.Konstitusiya qəbul olunması
3.Şərqdə qadınlara ilk dəfə seçki hüququ verilməsi
4.Azərbaycan dilində ilk qəzetin nəşr olunması
5.Müsəlman şərqində və Türk- islam dünyasında ilk demokratik quruluşlu respublika olması

• 1,3,4
√ 1,3,5
• 2,4,5
• 3,4,5
• 1,2,4

200. Paris sülh konfransında AXC-nin başlıca məqsədlərinə daxil idi :
1.Beynəlxalq birliyin bərabərhüquqlu üzvü kimi tanınmaq
2.Azərbaycanın de - fakto tanınmasına nail olmaq
3.Millətlər Cəmiyyətinə üzv qəbul olunmaq
4.ABŞ-ı "vahid və bölünməz" Rusiyanı bərpa etmək fikrindən daşındırmaq
5.Böyük dövlətlər tərəfindən Azərbaycanın müstəqilliyinin tanınmasına nail olmaq

• 1,4,5
• 1,2,3
• 2,3,4
• 1,2,5
√ 1,3,5

201. AXC- nin xarici siyasətinin əsasını təşkil edirdi:
1.Beynəlxalq aləmdə tanınmasına nail olmaq
2.İrəvanı ermənilərdən almaq
3.Qonşu dövlətlərlə bərabərhüquqlu əməkdaşlıq
4. Ermənistandan türk müsəlman əhalini köçürmək
5.Ərazi bütövlüyünü təmin etmək

√ 1,3,5
• 2,3,4
• 1,2,5
• 1,2,3
• 2,4,5

"İstiqlaliyyət bəyannaməsi" nin 3- cü bəndində nəzərdə tutulmuş AXC-nin xarici siyasətinin əsas prinsipi idi:
1.Mübahisəli məsələlərin həllində güzəştlərə getmək
202. 2.Həmsərhəd dövlətlər ilə qonşuluq münasibətlərinin yaradılması
3.Münaqişələrin həllində silah tətbiq olunmasından imtina edilməsi
4.Beynəlxalq birliyin bütün üzvləri ilə bərabərhüquqlu, qarşılıqlı əlaqələrin qurulması

√ 2,4
- 1,2
- 2,3
- 1,4
- 3,1

203. AXC yaranarkən onu bir dövlət kimi tanımayaraq ona qarşı müharibə elan etdi:

- Sentrokaspi diktaturası
- Cənubi Qafqaz Komissarlığı
- Xüsusi Cənubi Qafqaz Komitəsi

√ Bakı XKS
- Cənubi Qafqaz Seymi

1908-ci ildə Təbrizin əksinqilabçılardan təmizlənməsi nəticəsində;
1. Şəhərdə qayda-qanun yaradıldı
204. 2. "Müharibə xərci" adlanan vergi yığılmağa başlandı
3. Xalqın nifrət etdiyi məmurlar o cümlədən vali Səməd xan şəhərdən qovuldu
4. Şəhərdəki bütün taxıl anbarları möhürlənməyə başladı

- 1.2;
- 1.4;
- 2.3;

√ 1.3;
- 2.4;

205. Tehrandakı əksinqilabı çevrilişdən sonra İran inqilabının mərkəzinə çevrildi:

- Zəncan;
- İsfahan;

√ Təbriz;
- Xoy;
- Ərdəbil;

206. 1907-ci ildə İran inqilabının yüksəlişinin nəticələri:

- Məhəmmədəli şah Səttarxan və Bağırxanla danışıqlar aparmağa məcbur oldu;
- Xarici müdaxiləçilər ölkədən qovuldu;
- Məhəmmədəli şah konstitusiyanı ləğv etdi;
- İngiltərə və Rusiya İran inqilabını böğmaq üçün ittifaq yaratdılar;

√ Məhəmmədəli şah demokratik mməzmunlu konstitusiyanı əlavələrilə birlikdə imzalamağa məcbur oldu;

207. AXC-nin 1918- ci ilin avqust və 1918- ci ilin noyabr tarixi üçün ortaq cəhət:

- Osmanlı dövləti ilə müqavilə imzalanması
- Sovet Rusiyası ilə silahlı münaqişə baş verməsi
- Qarabağda erməni qiyamının baş verməsi
- Yeni hökumətin təşkil olunması

√ İngilis qoşunlarının Bakıya gəlməsi

208. AXC-nin 1918 - ci ilin iyunu və 1920- ci il martı tarixi üçün oxşar cəhət:

- Yeni Nazirliyin yaradılması
- Yeni hökumətin təşkil olunması

√ Hökumət böhranı baş verməsi
- Milli Şuranın fəaliyyətinin dayandırılması

- Sovet Rusiyasına nota göndərilməsi

209. AXC hökuməti Qərb meylli siyasət yeritməyə məcbur oldu:

- V.Vilsonun tələbi ilə
- √ General Tomsonun başçılığı ilə ingilis qoşunlarının Bakıya gəlişi nəticəsində
- Dağlılar Respublikasının əsassız ərazi iddialarının qarşısını almaq üçün
- General Denestervilin başçılığı ilə ingilis qoşunlarının Bakıya gəlməsi ilə
- Rusiyanın ermənipərəst mövqeyinə görə

210. 1918- ci ilin noyabrın 16- da Milli Şuranın verdiyi qərar:

- √ Azərbaycan Parlamentinin yaradılması haqqında idi
- İrəvan şəhərinin ermənilərə verilməsi haqqında idi
- Rusiyanın notasına verilən cavabla əlaqədar idi
- Naxçıvan general qubernatorluğunun yaradılması haqqında idi
- Bakı bonunu istifadəyə verilməsinə aid idi

211. 1918-ci ilin yazında Bakıda siyasi vəziyyət bolşeviklərin xeyrinə dəyişməyə başladı:

- √ Mart-aprel hadisələrindən sonra demək olar ki, şəhərdə azərbaycanlı qalmamışdı.
- Müsəlman korpusunun komandanı general Talışinskinin həbs olunması ilə.
- Sovet Rusiyasının Almaniya ilə danışıqlara başlaması nəticəsində.
- Bakı fəhlələri içərisində bolşeviklərə qoşulanların sayının artması ilə
- İ.Biçeraxovun dəstəsinin Ələtə gəlməsi ilə.

212. AXC-nin yaradılmasının əhəmiyyəti:
1. XIX əsrin əvvəllərində itirilmiş müstəqil dövlətçilik ənənələri bərpa edildi
2.Müsəlman Şərqində ilk dədə demokratik quruluşlu respublika yaradıldı
3.Şimali və Cənubi Azərbaycan torpaqları yenidən vahid dövlətdə birləşdirildi
4.Ali hakimiyyət xalqın səsvermə yolu ilə seçdiyi Müəssislər Məclisinin əlində cəmləndi

- 1,4
- 2,4
- 1,3
- 2,3
- √ 1,2

213. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Dövlət qulluğunda işləyən parlament üzvü:

- Ancaq müharibə zamanı Hərbi nazirlikdə rəhbər vəzifəyə cəlb oluna bilərdi.
- Əmlakına görə rüsum ödəməli idi
- Eyni zamanda elmi, pedaqoji işlə məşğul ola bilərdi.
- √ Iki vəzifədən birini seçib parlamentin rəyasət heyətinə bildirməli idi.
- Parlamentin razılığı ilə ticarət fəaliyyəti ilə məşğul ola bilərdi.

214. Z. Tağıyevin daimi sədri olduğu xeyriyyə cəmiyyəti olmuşdur?

- İşıq
- Səadət
- √ Nəşri-Maarif
- Müsəlman Xeyriyyə Cəmiyyəti
- Nicat

215. Şimali Azərbaycanda şəhər məktəbləri ali ibtidai məktəblərə çevrildi:

- 1915-ci ildə
- √ 1912-ci ildə
- 1905-cü ildə
- 1900-cü ildə
- 1913-cü ildə

216. «Difai» partiyasının Ağdam komitəsinə sədrlik edirdi:

- Q.Vəzirov
- Ə.Ağaoğlu
- M.Qasımov
- K.Mehmandarov
- √ Z.Haqverdiyev

217. ”Azərbaycan səhnəsinin zinəti” adlandırılan aktyor:

- M.Əliyev
- C. Zeynalov
- Sidqi Ruhulla
- √ H.Sarabski
- H.Ərəblinski

218. XX əsrin əvvəllərində Azərabaycan qadınlarının problemləri ilə məşğul olan jurnal:

- Füyuzat
- Qurtuluş
- Tərəqqi
- √ İşıq
- İrşad

219. Qafqaz müsəlmanlarının I qurultayı keçirilmişdi:

- 1920 – ci il oktyabrında
- √ 1917 – ci il aprelində
- 1918 – ci il mayında
- 1919- ci il martında
- 1916- cı il mayında

220. “Molla Nəsrəddin” jurnalı neçə il fəalliyyət göstərmişdi?

- 17 il
- 16 il
- 20 il
- 30 il
- √ 25 il

221. “Musavat” partiyasının I qurultayı keçirilmişdi:

- 1917 - ci ilin fevralında
- 1917- ci ilin noyabrında
- 1917- ci ilin sentyabrında
- √ 1917 - ci iin oktyabrında
- 1917 - ci ilin dekabrında

222. XX əsrin əvvəllərində Şimali Azərbaycanın ikinci sənaye mərkəzi sayılırdı:

- √ Nuxa
- Gəncə
- Quba
- Naxçıvan
- Bakı

223. Hansı partiyanın eyni adlı qəzeti də nəşr edilirdi?

- Difai

- Qeyrət
- Musavat
- Müdafiə
√ Hümmət

224. ” Federalistlərin türk partiyası” na rəhbərlik edirdi?

- Fətəli xan Xoyski
- Arslan xan Xoyski
- Şəmsi Əsədullayev
- Zülfüqar bəy Haqverdiyev
√ Nəsib bəy Usubbəyov

225. Bakı Fəhlə Deputatları Soveti elan edildi:

- 1904 - cü il oktyabrın 2 - də
- 1908 - ci il noyabrın 25 - də
- 1915 – ci il sentyabrın 15 - də
√ 1905 - ci il noyabrın 25 - də
- 1902 - ci il sentyabrın 15 -də

226. XX əsrin əvvəllərində Qaçaq Süleyman Ağahüseynoğlu mövcud quruluşa qarşı mübarizə aparırdı?

√ Cəbrayıl- Qaryagin, Şuşa qəzalarında
- Qazax, Cavanşir qəzalarında
- Nuxa, Şamaxı qəzalarında
- Lənkəran, Şuşa qəzalarında
- Gəncə , Bakı qəzalarında

227. ”Cənubi Qafqaz quberniyalarında torpaqların məcburi surətdə satın alınması haqqında ” qanun verilmişdi?

√ 1912-ci ildə
- 1908-ci ildə
- 1904-ci ildə
- 1910-ci ildə
- 1911-ci ildə

228. XX əsrin əvvəllərində ipək emalı sənayesi Şimali Azərbaycanın hansı bölgələrində geniş yayılmışdı?

- Naxçıvan, Gəncə, Şəmkir, Ordubad
- Gəncə, Qazax, Bakı , Quba
√ Naxçıvan, Şəki, Nuxa –Zaqatala , Qarabağ
- Quba, Qusar, Mərkəzi Aran, Zaqatala
- Şamaxı, Bakı, Gəncə, Quba

229. “Difai” partiyasının şöbələrinin ən böyüyü harada yerləşirdi?

- Naxçıvanda
- İrəvanda
- Gəncədə
√ Şuşada
- Bakıda

230. “Difai” partiyasının yaranmasını zəruri etmişdi:

- 17 oktyabr manifesti
- milli burjuaziya və ziyalıların tələbləri
- ”Müdafiə” partiyasının bağlanması
- Azərbaycana muxtariyyət tələbi
√ Qarabağda , Naxçıvanda və İrəvanda baş vermiş qırğınlar

231. Birinci dünya müharibəsi ərəfəsində Azərbaycan neftini ələ keçirmək uğrunda mübarizə aparan dövlətlər ?

- Amerika, Fransa, Rusiya
- Hollandiya, İsveç, Norveç
- Rusiya, İsveç, Almaniya
- √ İngiltərə, Fransa, Almaniya
- İngiltərə, Portuqaliya, İspaniya

232. "Həyat" qəzeti neçənci ildə nəşrə başladı?

- 1906- cı ildə
- √ 1905- ci ildə
- 1902- ci ildə
- 1908-cı ildə
- 1903- cü ildə

233. 1914-cü ildə Müəllimlər seminariyası açıldı:

- Şamaxıda
- Şəkidə
- Bakıda
- Şuşada
- √ Gəncədə

234. Bakıda milli eser təşkilatı olan " İttifaq" partiyası yaradılmışdı:

- 1904- cü ildə
- √ 1905- ci ildə
- 1902- ci ildə
- 1903- cü ildə
- 1900- cü ildə

235. XX əsrin əvvəllərində Nuxada fəaliyyət göstərən ilk tənbəki fabriki məxsus olmuşdur?

- M. Babayevə
- H. Z. Tağıyevə
- S.Lətifova
- √ M. H. Dadanova
- M. Nağıyevə

236. 1917- ci ilin yazında "Hümmət"dən ayrıldı:

- Musavat partiyası
- İttihad partiyası
- √ Ədalət partiyası
- Qeyrət təşkilatı
- Müdafiə təşkilatı

237. Gəncədə Müəllimlər seminariyası açıldı:

- 1920-ci ildə
- √ 1914-cü ildə
- 1918-ci ildə
- 1917-ci ildə
- 1915-ci ildə

238. İlk Azərbaycan filmi olmuşdur:

- O olmasın, bu olsun

√ Neft və milyonlar səltənətində
• Ər və arvad
• Dəli Kür
• Arşın mal alan

239. Azərbaycan kapitalisti H. Z. Tağıyevin "Kür – Xəzər" səhmdar cəmiyyəti təsis olunmuşdu?

• 1905-ci ildə
√ 1904-cü ildə
• 1900-cü ildə
• 1908-ci ildə
• 1910-cu ildə

240. 1905- ci ilin yazında Azərbaycanın liberal ziyalılarının Rusiya hökumətinə təqdim etdiyi petisiyada xüsusi yer ayrılmışdı:
1.Qafqazda zemstvoların tətbiqinə
2.Azərbaycana muxtariyyətin verilməsi məsələsinə
3.Rus dilində məktəblərin genişləndirilməsinə
4.Müsəlmanlara demokratik azadlıqların verilməsinə

• 2,3;
• 3,4;
• 1,3;
• 1,2;
√ 2,4;

241. "Dildə , fikirdə və əməldə birlik " şüarının müəllifi idi:

• Fətəli xan Xoyski
• Səməd Vurğun
• Məhəmməd Əmin Rəsulzadə
• Ə. Topçubaşov
√ İsmayıl Qaspiralı

242. Çar Rusiyasının II və III Dövlət Dumalarına deputat seçilmiş azərbaycanlı:

• Ə. Topçubaşov
√ X.Xasməmmədov
• İ. Ziyadxanlı
• F.Xoyski
• C. M. Şaxtaxtinski

243. Difai partiyasına aiddir:
1.Möhüründə iki qılınc , aypara və ulduz təsviri var idi
2."İrşad" qəzetində erməni fitnəkarlığının və çar hökumətinin niyyətlərini açiq şəkildə xalqa çatdırmışdı
3. Vahid milli təşkilata çevrilə bilməmişdi
4.1909 - cu ildə fəaliyyətini müvəqqəti dayandırmışdı
5.1917- ci ildə I qurultayı keçirilmişdi

• 2,3,4;
• 2,4,5;
• 1,3,5;
√ 1,2,4;
• 1,4,5;

244. Siyasi partiyaların yaranmasının ardıcıllığını müəyyən edin:
1.Difai 2.Hümmət 3.Müdafiə 4.Musavat 5.Ədalət

√ 2,1,3,4,5
• 5,2,3,4,1
• 4,2,5,1,3
• 3,1,2,4,5
• 1,2,5,4,3

245. XX əsrin əvvəllərində dünya iqtisadi böhranının Azərbaycan iqtisadiyyatına təsiri nəticəsində:
1. İri neft şirkətləri ləğv edildi
2. Xırda müəssisələr iflasa uğradı və sayı azaldı
3. Neft və neft məhsullarının satışı azaldı
4. Yeni neft quyularının qazılması prosesi gücləndi
5. Neft sənayesində istehsalın təmərküzləşməsi prosesi gücləndi

- 1.4.5;
- 1.3.5;
- 2.4.5;
- 1.2.3;
- √ 2.3.5;

246. Rusiyanın federativ quruluşunda Azərbaycana ilk dəfə muxtariyyət verilməsini tələb edən partiya idi:

- Müdafiə
- Kadet
- Difai
- √ Qeyrət
- Musavat

247. 1908 - ci ildə bağlanmış "Difai" təşkilatının üzvləri hansı partiyanın sıralarına qoşuldular?

- √ Musavat
- Hümmət
- Kadet
- Müdafiə
- Qeyrət

248. XX əsrin əvvəllərində Şimali Azərbaycanda ilk su elektrik stansiyası yaradılmışdı:

- Gümüşlüdə
- Daşkəsəndə
- Qabaqçöldə
- √ Qalakənddə
- Mehmanada

249. 1902 – ci ildə Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə yaradılmışdı?

- Müdafiə təşkilatı
- Hümmət partiyası
- √ Müsəlman gənclik təşkilatı
- Difai partiyası
- Qeyrət partiyası

250. Bakı və Tiflis şəhəri arasında birbaşa teleqraf xətti çəkilmişdi:

- 1909-cu ildə
- 1901-ci ildə
- 1906-cı ildə
- 1914-cü ildə
- √ 1912-ci ildə

251. Fəaliyyəti Azərbaycanın Qərb qəzalarını ,eləcə də Borçalı ərazisini əhatə edən partiya?

- Hümmət
- √ Müdafiə
- Musavat
- Difai
- Qeyrət

252. Şimali Azərbaycanda komendant idarə üsulu zamanı mövcud olmuş dairələr:

√ Car-Balakən və Yelizavetpol
• Bakı və Quba
• Şəki və Qarabağ
• Talış və Car-Balakən
• Qazax və Şəmşədil

253. 1838-ci ildə Şəki üsyanına rəhbərlik edib:

• Yarəli
• Hacı Məhəmməd
• Mustafa xan
• Səlim xan
√ Məşədi Məhəmməd

254. Ermənilərin köçürülməsi nəticəsində Azərbaycanın hansı ərazilərinin etnik tərkibi dəyişdi?

• Xoy, Göyçə, Borçalı
• Marağa, İrəvan, Naxçıvan
• Qarabağ, Şirvan, Talış
√ Qarabağ, Naxçıvan, İrəvan
• Zəngəzur, Naxçıvan, Mərənd

255. 1830-cu il Car-Balakən üsyanının nəticəsidir

• Komendant idarə üsulu ləğv edildi
• Hərbi idarə ləğv edildi
• Keşkəl torpaq sahibliyi ləğv edildi
√ Məğlub oldu
• Təhkimçilik ləğv edildi

256. Aşağıdakı Quberniyalardan hansı daha əvvəl yaradılmışdı?

√ Şamaxı
• Bakı
• Gəncə
• İrəvan
• Naxçıvan

257. Şimali Azərbaycanda komendatlara aiddir:

• Ölüm hökmü verə bilərdilər
√ Yerlərdə mütləq hakim hesab olunurdular
• Quberniyaları idarə edirdilər
• Əyalət və dairələri idarə edə bilməzdilər
• Duma tərəfindən seçilirdilər

258. 1846-1847-ci illər aqrar qanunları mülkiyyət hüquqlarının bərpasına istiqamətlənmişdi:

√ Bəy və ağaların
• Yerli əhalinin
• Kəndlilərin
• Maldarların
• Elatların

259. 1846-cı il 6 dekabr reskriptinə görə:

• Hər bir kəndliyə 5 desyatin torpaq payın verildi

√ Bəy və ağaların torpaq üzərində xüsusi mülkiyyət hüququ təsdiq edildi
• Təhkimçiliyin ləğvi
• Dövlət kəndlilər vergilərdən azad edildi
• Sahibkar kəndlilər vergilərdən azad edildi

260. Azərbaycanda ilk ipək emalı müəssisəsi fəaliyyət göstərirdi:

• Mahmudabadda
• Niyaziabadda
• Cəfərabadda
√ Xanabadda
• Şahabadda

261. XIX əsrdə Azərbaycan dramaturgiyasının əsasını qoymuşdu:

√ M. Ə. Axundov
• Mir Möhsün Nəvvab
• N. Vəzirov
• Ə.Haqverdiyev
• N. Nərimanov

262. XIX əsrin II yarısında Şimali Azərbaycan kəndliləri bölünürdü:

• Rəncbər və rəiyyət
√ Sahibkar və dövlət kəndliləri
• Rəncbər və kəsbikar
• Qərib və əkər
• Rəncbər və xoşnişin

263. 1819-1826 – cı illərdə keçmiş xanlıq və sultanlıqlar çevrildi:

• Kəndlərə
• Nahiyələrə
• Mahallara
• Qəzalara
√ Əyalət və dairələrə

264. XIX yüzilliyin birinci yarısında Şimali Azərbaycanda ən böyük üsyan baş verdi:

• Şəkidə
• Gəncədə
√ Qubada
• Bakıda
• Şamaxıda

265. 1801-ci ildə Şərqi Gürcüstan ilə birlikdə Rusiyaya birləşdirildi.

• Şəki xanlığı
√ Qazax və Şəmşəddil sultanlıqları
• Gəncə xanlığı
• Bakı xanlığı
• Car-Balakən camaatlığı

266. 1804-cü ilə aiddir:

• "Andlı öhdəlik" imzalanması
• Türkmənçay müqaviləsi
• Kürəkçay müqaviləsinin bağlanması
• Aslandüz döyüşü
√ Gəncə xanlığının ləğv edilməsi

267. Rusiya ilə 1805 – ci il mayın 14 –də müqavilə imzalamışdı:

- Car-Balakən xanlığı
- Şəki xanlığı
- Gəncə xanlığı
- Bakı xanlığı

√ Qarabağ xanlığı

268. Rus işğalından sonra Yelizavetpol adlanmağa başladı:

- Bakı şəhəri

√ Gəncə şəhəri

- Şuşa şəhəri
- Quba şəhəri
- Dərbənd şəhəri

269. 1806-cı ildə baş vermişdir:

- Gəncə xanlığının ləğvi
- Kürəkçay müqaviləsinin imzalanması

√ Sisianovun öldürülməsi

- Gülüstan müqaviləsinin imzalanması
- Qanıx döyüşü

270. 1805-ci ildə Rusiya ilə ilk dəfə Kürəkçay müqaviləsini imzalayan xan:

- Hüseynqulu xan
- Mustafa xan
- Səlim xan
- Cavad xan

√ İbrahimxəlil xan

271. 1805-ci il mayın 21-də Rusiya ilə müqavilə imzaladı:

- Mustafa xan
- Cavad xan
- İbrahimxəlil xan
- Hüseynqulu xan

√ Səlim xan

272. 1805-ci il 25 dekabrda Rusiyaya birləşdirilmiş xanlıq:

- Quba xanlığı

√ Şirvan xanlığı

- Bakı xanlığı
- Şəki xanlığı
- Qarabağ xanlığı

273. Bağlanmış müqaviləyə əsasən hər il Rusiya xəzinəsinə 8 min çervon xərac verməyi öz öhdəsinə götürən xanlığı müəyyən edin:

- Bakı xanlığı
- Quba xanlığı

√ Qarabağ xanlığı

- Şəki xanlığı
- Şirvan xanlığı

274. 1804-cü il 3 yanvarda işğal edildi:

√ Gəncə

- Dərbənd
- Bakı
- Şuşa
- Şəmsəddil

275. Kürəkçay müqaviləsinə görə Rusiyaya birləşdirilən xanlıqlar:

- Dərbənd, Şəki
- Gəncə, Bakı
- Qarabağ, Dərbənd
- Şəki, İrəvan
- √ Qarabağ, Şəki

276. XIX əsrin 80 - ci illərində mətbuatda ilk dəfə "Azərbaycan milləti" ifadəsini işlətmiş qəzet necə adlanırdı:

- Əkinçi
- Azərbaycan
- √ Kəşkül
- Açıq söz
- İşıq

277. 1853-cü ildə dövlət kəndlilərinin hansı hüququ ləğv edildi:

- Muzdlu əməkdən istifadə etmək
- Torpağa sahib çıxmaq
- √ Bir kənddən başqa kəndə köçmək
- İcmada yaşamaq
- Birgə əmək fəaliyyəti

278. 1852-ci ildə Şimali Azərbaycanda tətbiq edilən yeni vergi sisteminə əsasən dövlət kəndliləri:

- "Həyat vergisi" ödəməli idilər
- Çöpbaşı ödəməli idilər
- Bütün vergi və mükəlləfiyyətlərdən azad idilər
- √ Vergiləri xəzinəyə pulla ödəməli idilər
- Vergiləri məhsulla ödəməli idilər

279. 1806-ci ildə hansı ərazilərdə ruslara qarşı baş vermiş üsyanlar yatırıldı?1.Çar-Balakəndə 2.Lənkəranda 3.İrəvanda 4.Şəkidə

- 2.3
- 3.4
- √ 1.4
- 1.3
- 1.2

280. 1806-cı ildə hansı şəhərlər ruslar tərəfindən işğal edildi? 1.Şuşa 2.Dərbənd 3.Gəncə 4.Bakı 5.Şamaxı

- 4.5
- √ 2.4
- 1.2
- 3.4
- 1.3

281. 1806 –cı ilin yayında Şəkidə Rusiyaya qarşı üsyanın başlanmasına səbəb oldu:

- Vergilərin artırılması
- Hacı xanın edam edilməsi
- √ İbrahimxəlil xanın ailəsi ilə birgə öldürülməsi
- Səlim xanın hakimiyyətdən kənarlaşdırılması
- Ermənistanın Ərazi iddiaları

282. Gülüstan müqaviləsi üçün səciyyəvi deyil:

- Azərbaycanın bölüşdürülməsinin I mərhələsinin bitməsi
- √ Naxçıvan və İrəvan xanlıqlarının Rusiyaya birləşdirilməsi
- Rusiya ilə İran arasında imzalanması
- 1813-cü ildə imzalanması
- Antihumanist və zorakı olması

283. 1840-cı illərdə Cənubi Qafqazda həyata keçirilmiş inzibati islahatın nəticələrindəndir:

- Canişinlik ləğv edildi
- Komendant idarə üsulu yenidən təşkil edildi
- Bütün quberniya və qəzalar ləğv edildi
- √ Yerli imtiyazlı məmurların hüquq və imtiyazları əllərindən alındı
- "Ali müsəlman silki "ni hüquqları artırıldı

284. Azərbaycanda milli teatrın yaranması neçənci ildə və hansı əsərin tamaşaya qoyulması ilə başlanmışdır:

- Ə.Haqverdiyevin "Dağılmış tifaq" əsəri ilə
- 1878- ci ildə N.Vəzirovun "Müsibəti Fəxrəddin " tamaşası ilə
- √ 1873- cü ildə M.F. Axundovun "Sərgüzəşti-vəziri xan Lənkəran" komediyası ilə
- 1893- cü ildə C. Məmmədquluzadənin "Ölülər " komediyası ilə
- 1898- ci ildə N.Nərimanovun "Nadir şah" əsəri ilə

285. Bakı xanlığı Rusiyaya tabe edildi:

- √ 1806- cı ildə
- 1802- ci ildə
- 1804- cü ildə
- 1803- cü ildə
- 1801- ci ildə

286. I Şah Abbasın XVII əsrin əvvəlində osmanlılara qarşı apardığı 4 il davam edən (1603-1607-ci illər) müharibə nə ilə nəticələndi?

- Səfəvilər birinci mərhələdə Ərdəbil, Meşkin, Qaracadağa sahib oldular
- Cənubi Azərbaycan səfəvilərin əlinə keçmişdi
- √ Səfəvilərin tam qələbəsi ilə başa çatdı
- Şimali Azərbaycan və Cənubi Azərbaycan, bütün Dağıstan osmanlılarda qaldı
- I Şah Abbas Bağdad daxil olmaqla Ərəb İraqına nail oldu

287. 1768- ci ildə Şamaxı xanlığını məğlub edərək öz aralarında bölüşdürən xanlıqlar:

- √ Şəki, Quba
- Quba , Qarabağ
- Gəncə, Şəki
- Bakı , Dərbənd
- Qarabağ Gəncə

288. Xanlıqlar dövründə xan ailəsinə məxsus torpaqlar necə adlanırdı?

- divan
- Tiyul
- mülk
- √ Xalisə
- Vəqf

289. Quba və Şəki xanlığının birləşmiş qüvvələri neçənci ildə Şirvan ərazisinə hücuma keçdilər?

- 1769

- 1762
- 1760
- √ 1768
- 1766

290. Paytakaran vilayətinin başçısı Sanatürkün Armeniyaya yürüşü baş vermişdir

- 336- cı ildə
- √ 337- ci ildə
- 371- ci ildə
- 340 – cı ildə
- 330- cu ildə

291. Səlcuq hökmdarı Sultan Mahmudun Şirvana hücumu nə zaman baş vermişdi:

- √ 1123- cü ildə
- 1125- ci ildə
- 1120- ci ildə
- 1130- cu ildə
- 1121- ci ildə

292. Ağqoyunlu Həsən padşahın "Qanunnamə" hazırlatmaqda məqsədi:
1.Vergi toplanmasını nizamlamaq
2.Soyurqal torpaq mülkiyyətini məhdudlaşdırmaq
3.Dövləti iqtisadi və siyasi cəhətdən gücləndirmək
4.Rəiyyət üzərində tamğa vergisinin tətbiqini rəsmləşdirmək

- 2,4
- 1,4
- 2,3
- √ 1,3
- 1,2

293. Rəvvadilər dövləti səlcuqların vassallığını qəbul etməyə məcbur oldu?

- 1055-ci ildə
- 1227-ci ildə
- 1064-ci ildə
- √ 1054-cü ildə
- 1037-ci ildə

294. Ərəblər Albaniyanin müstəqilliyinə son qoydular:

- 681-ci ildə Cavanşirin ölümündən sonra
- 704-ci ildə Varaz-Trdatın öldürülməsi ilə
- Hilat şəhəri yaxınlığında xəzərləri məğlub etməklə
- √ 705-ci ildə alban hakimi Şeruyə və ona yaxın adamların öldürülməsi ilə
- Xəzərlərdən kömək almaqla VIII əsrin əvvəllərində

295. Azərbaycanda toxa əkinşiliyi xış əkinçiliyi ilə əvəz olunub:

- Neolit dövründə
- √ Erkən Tunc dövründə
- Mezolit dövründə
- Paleolit dövründə
- Son Tunc və İlk Dəmir dövründə

296. Azərbaycanda birinci böyük ictimai əmək bölgüsü baş verib?

- Antik dövrdə
- Neolit dövründə

- Eneolit dövründə
- √ Erkən Tunc dövründə
- Erkən orta əsrlərdə

297. Şah I Abbasın islahatlarına aiddir:
1.Qoşun tayfa müxtəlifliyi prinsipi əsasında təşkil edildi
2.Ordunun formalaşması tayfa prinsipi əsasında aparıldı
3.Qızılbaşlara təkbaşına silah gəzdirmək qadağan olundu
4.Avropa qoşunu əsasında müxtəlif dərəcəli qoşun növü yaradıldı
5.Tayfa çəkişmələrinə son qoymaq məqsədilə orduda irsilik prinsipi ləğv edilərək bu vəzifəni şahın rəğbətini qazamış şəxslər tutdu

- 1,2,4
- 2,3,5
- √ 1,3,5
- 1,3,4
- 2,4,5

298. Şah I İsmayılın daxili siyasətinin əsas istiqamətləribndən biri:

- Feodalların iqtisadi qüdrətini sarsıtmaq
- Müharibələrdən əldə edilən gəlirləri iqtisadiyata yönəltmək
- Dövlətin şimal sərhədlərinin təhlükəsizliyini təmin etmək
- Tamğa və bac vergisini ləğv etmək
- √ Mərkəzləşmiş dövlət yaratmaq

299. Ağqoyunlu dövlətinin bölünməsinə səbəb oldu:

- Baysanqur ilə Rüstəm padşah arasında mübarizənin başlaması
- Yaqub padşahın vəfat etməsi
- √ Murad Mirzə və Əlvənd Mirzə arasında hakimiyyət uğrunda mübarizənin başlanması
- Şirvanşahlar və Ərdəbil hakimliyinin müstəqil siyasət yeritməsi
- Osmanlı dövlətinin Əhməd padşahı hakimiyyəti ələ almaq üçün göndərməsi

300. Ağqoyunlu tayfa birliyinin əsasını qoymuşdu:

- Cahangir Mirzə
- √ Pəhləvan bəy
- Həsən bəy
- Qara Yulluq Osman bəy
- Əli bəy

301. 1472- ci ildə Həsən bəy Osmanlı dövlətinə qarşı hərbi ittifaq yaratmışdı:

- Macarıstanla
- Portuqaliya ilə
- Roma ilə
- √ Venesiya ilə
- Polşa ilə

302. Ağqoyunlu- Osmanlı münasibətlərini daha da gərginləşdirdi:

- Trabzon imperiyasının Osmanlı ilə yaxınlaşması
- √ II Mehmetin Trabzon üzərinə yürüş etməsi
- Həsən bəyin Teymurilər ilə yaxınaşması
- Venesiya ilə sultan II Mehmet arasıda ittifaqın yaranması
- Genuya şəhər dövləti ilə Həsən bəy arasında ittifaqın yaranması

303. 1492- ci ildə baş vermiş Bərdə döyüşünün nəticəsi :

- Rüstəm Mirzə Baysanqurla birlikdə Əhməd padşahı məğlub etdi
- Baysanqur qalib gələrək Ağqoyunlu taxtını ələ keçirdi

√ Rüstəm padşah Baysanquru məğlub edərək hakimiyyəti ələ aldı
• Yaqub Mirzə taxt- tac üzərində mübarizədə qələbə qazandı
• Ağqoyunlu Rüstəm padşah məğlub olaraq mübarizəni dayandırdı

304. Qara Məhəmmədin fəaliyyəti dövrünə aid olanları müəyyən edin:
1.Cəlari Sultan Əhmədlə qohumluq əlaqəsi yaratmışdı
2.Mərkəzləşmiş dövlət yaratmağa çalışırdı
3.Azərbaycan və Təbriz uğrunda mübarizəyə qoşulmuşdu
4.Şirvanşahlar dövləti ilə dostluq əlaqəsi saxlamışdı
5.Qaraqoyunlu bəyliyini möhkəmləndirmişdi

• 1,2,3
• 2,3,4
√ 1,3,5
• 1,4,5
• 3,4,5

305. Monqollar Azərbaycanın işğalını başa çatdırdı:

√ Dərbəndin tutulması ilə
• Marağanın tutlması ilə
• Şamaxının tutulması ilə
• Bakının tutulması ilə
• Təbrizin tutulması ilə

306. 1239-1256 - cı illərdə Azərbaycan və Cənubi Qafqaz idarə olunurdu:

√ Ali Monbqol Xaqanlığının canişinləri tərəfindən
• Monqol canişinlərin təyin etdiyi kiçik feodallar tərəfindən
• Monqol canişinlərinin təyin etdiyi noyonlar tərəfindən
• Yerli hakimlər tərəfindən
• Atabəylərin qulamları tərəfindən

307. IX əsrdə Dərbənddən Kür çayınadək Xəzər dənizi sahillərindəki Azərbaycan torpaqlarını əhatə edirdi

• Şəddadilər
• Sacilər
√ Şirvanşahlar
• Rəvvadilər
• Salarilər

308. Yusif ibn Əbu Sacın hakimiyyəti dövrünə aid deyil:

• Dövlətin sərhədlərini möhkəmləndirmək üçün Dərbənd səddini təmir etməsi
√ Qanunnamə qəbul etməsi
• Maliyyə və vergi sahəsində tədbirlər həyata keçirməsi
• Azərbaycanın şimalındakı feodal hakimliklərini asılı hala salınması
• Türk sülalələrinin hakimiyyəti altında Azərbaycanı ilk dəfə vahid müstəqil dövlətdə birləşdirməsi

309. Mərzban ibn Məhəmmədin ölümündən sonra Salarilər dövləti üçün səciyyəvidir:

• Dövlətdə iqta torpaqlarının paylanılması dayandırıldı
• Salarilər dövləti Səlcuqlardan asılı vəziyyətə düşdü
√ Oğulları ilə qardaşı arasında hakimiyyət uğrunda mübarizə başladı
• Salarilər dövləti süqut etdi
• Slavyanların ölkəyə hücumu müntəzəm xarakter aldı

310. Atropatena və Albaniyada ellin- yunan mədəniyyəti yayılmışdır:

• Antoninin Şərqə yürüşü nəticəsində

- Eramızın ilk əsrlərində
- √ İskəndərin Şərqə yürüşü nəticəsində
- Midiyanın tərkibində olarkən
- Əhəminilər dövlətinin dövründə

311. Eramızın I əsrində Albaniyanı idarə edirdi:

- √ Yerli hökmdarlar
- Parfiya canişini
- Midiya canişini
- İberlər
- Romalılar

312. Azərbaycanda sasanilərlə xilafətin köçürmə siyasətində oxşar cəhətdir:

- √ Özlərinə etnik dayaq yaratmaq
- Torpaqsız kəndliləri torpaqla təmin etmək
- Azərbaycana türk axınının qarşısını almaq
- xristianlara öz dinini qəbul etdirmək
- yerli əhalini farslaşdırmaq

313. Cavanşir xəzərlərin Albaniyaya qarətçi yürüşlərinə son qoymaq üçün :

- Sasanilərlə ittifaq bağladı
- Sasani şahı ilə hərbi qüvvələrini birləşdirdi
- √ Xəzər xaqanının qızı ilə evləndi
- Səlcuq sultanı ilə dostluq əlaqələri yarandı
- Ərəb xəlifəsi Müaviyyə ilə sülh bağladı

314. Məzdəkilər üsyanından fərqli olaraq Xürrəmilər hərəkatı :
1.Ərəb əsarətinə qarşı mübarizə aparmışlar
2.İri feodallara qarşı mübarizə aparırdılar
3.Azərbaycanı yadelli əsarətindən azad etməyə çalışırdılar
4.Xürrəmilər qalib gəldiyi halda, məzdəkilər məğlub olmuşdu

- √ 1,3
- 1,5
- 3,4
- 2,5
- 2,4

315. Osmanlılara qarşı Ağqoyunlu və Avropa dövlətləri arasında ittifaq quruldu:

- 1476- cü ildə
- 1468- ci ildə
- 1461- ci ildə
- 1467- ci ildə
- √ 1472- ci ildə

316. 1387-ci ildə baş vermiş Çapaqçur döyüşünün nəticəsi:

- Toxtamışın qoşunları I İbrahim tərəfindən məğlub edildi.
- √ Qara Məhəmməd Əmir Teymurun qüvvələrini məğlub etdi
- Cəlairi qoşunlarının köməyi ilə Qara Yusif Teymurilərə qalib gəldi
- Teymurilər Ağqoyunluları məğlub etdilər.
- Qara Məhəmməd Əmir Teymurla sülh müqaviləsi imzaladı.

317. Albaniyada Mehranilər sülaləsinin hakimiyyətinə son qoyuldu:

- 816- cı ildə
- 650-ci ildə

√ 705-ci ildə
• 681- ci ildə
• 530- cu ildə

318. Verilmiş cavabların hansı qubalı Fətəli xanın Dərbəndi işğal siyasətini düzgün əks etdirir?

• Dərbənd hakiminin qızı ilə evləndi
• Yerli əhalinin müqavimətinə rast gəldi
• Quba xanı şəhəri ələ keçirmək üçün digər azərbaycan xanları ilə ittifaqa girdi
√ Dağıstan feodalları ilə saziş bağladı
• Şəhər sənətkarları, kiçik feodal əyanlar və tacirlər onu müdafiə edirdi

319. Şeyx Əli xanın dövründə hansı xanlıqlar Quba xanlığının asılılığından çıxdılar?

√ Şəki, Bakı, Şamaxı
• Qarabağ,Ərdəbil, Bakı
• Naxçıvan, Sərab,Şamaxı,
• Salyan, Meşkin,Ərdəbil
• Qaradağ, Şəki, Dərbənd

320. Məhəmmədhəsən xan Qacar neçənci ildə Qarabağa hücum etmişdi?

• 1780- ci ildə
• 1792- ci ildə
√ 1751- ci ildə
• 1763- cü ildə
• 1762- ci ildə

321. Pənahəli xan hansı Azərbaycan xanlıqlarını ələ keçirməyə çalışırdı?

• Naxçıvan, Ərdəbil, Sərab, Quba
• Şəki, Naxçıvan, Quba, Şamaxı
• Şamaxı, Naxçıvan , Şəki , Xoy
√ Gəncə, İrəvan, Naxçıvan, Ərdəbil
• Urmiya, Quba, Şəki, İrəvan

322. 1764- cü ildə İrəvanda tikilmiş memarlıq abidəsi:

• Yeddi Günbəz türbəsi
• Şirvanşahlar sarayı
√ Göy məscid
• Gülüstan qalası
• Qarabağlar türbəsi

323. Xanlıqlar dövründə şəhər inzibati idarəsinə kim rəhbərlik edirdi?

• əsnaf
√ Naib
• kələntər
• Darğa
• Yasovul

324. 1.Azərbaycan torpaqlarının bir hissəsi azad edildi. 2.Azərbaycanın Kürdən cənubda yerləşən Xəzəryanı vilayətləri Səfəvi imperatorluğuna qaytarıldı. 3.XVIII əsrin 30-cu illərində bağlanmış müqavilədir.Göstərilənlər aiddir:

• Nabur
• Kirmanşah
• İstanbul
• Sankt-Peterburq
√ Rəşt

325. 1735-ci ildə baş vermiş hadisələri göstərin:1.Gəncə müqaviləsinə əsasən rusların Azərbaycan torpaqlarından çıxarılması 2.Osmanlı ilə Səfəvi arasında Kirmanşah müqaviləsinin imzalanması 3.Osmanlı ilə Səfəvi arasında Bağdad müqaviləsinin bağlanması 4.Osmanlı qoşunlarının Azərbaycan torpaqlarından çıxarılması

- 2, 3
- 1, 2
- 1, 3
- √ 1, 4
- 2, 4

326. 1. Xəzər sahilindəki vilayətlər istisna olmaqla Azərbaycanın demək olar ki, bütün ərazisi Osmanlıların hakimiyyəti altına keçdi 2.Şirvanın Osmanlının himayəsində yarımmüstəqil xanlıq statusu təsdiq olundu. Göstərilənlər aiddir:

- 1723-cü il Peterburq sülhünə görə
- 1639-cu il Qəsri-Şirin müqaviləsinə görə
- 1618-ci il Mərənd sülhünə görə
- √ 1724-cü il İstanbul müqaviləsinə görə
- 1555-ci il Amasiya müqaviləsinə görə

327. 1639-cu il Qəsri-Şirin sülhünün şərtləri. 1.Azərbaycan torpaqları Səfəvilərin tərkibində qalırdı 2.Ərəb İraqı Bağdad da daxil olmaqla Osmanlılara keçirdi 3.Azərbayca torpaqları iki dövlət arasında bölündü 4.Rusların tikdiyi Terek qalasının Osmanlılar tərəfindən dağıdılmasına Səfəvilər mane olmamalı idilər

- 1, 3
- √ 1, 2
- 2, 3
- 3, 4
- 2, 4

328. XVIII əsrin əvvəllərində Azərbaycan Səfəvi dövlətinin tənəzülünün əlamətlərini göstərin: 1.Maliyyə və pul böhranı 2.Vergilərin artırılması nəticəsində tez-tez üsyan və çıxışların baş verməsi 3.Osmanlı ilə qarşıdurmanın yaranması 4.Hörmüzün portuqallar tərəfindən ələ keçirilməsi

- √ 1, 2
- 1, 3
- 2, 3
- 2, 4
- 1, 4

329. I Pyotrun Azərbaycana 1722-1723-cü illər yürüşünün məqsədini göstərin: 1.Xəzərsahili vilayətləri ələ keçirmək 2.Şirvanı Osmanlı işğalından azad etmək 3.Bölgənin sərvətlərinə yiyələnmək və ticarətini ələ keçirmək 4.Əfqanlara qarşı mübarizədə Səfəvilərə köməklik göstərmək

- 2, 4
- 2, 3
- 1, 4
- √ 1, 3
- 3, 4

330. Göstərilən şərtlər hansı müqaviləyə aiddir: 1.İrəvan, Gəncə, Şirvan torpaqları Osmanlıda qaldı və Araz çayı iki dövlət arasında sərhəd elan olundu 2.Kirmanşah, Həmədan, Ərdəbil və Təbriz Səfəvilərə qaytarıldı

- 1733-cü il Bağdad müqaviləsinə:
- 1724-cü il İstanbul sülh müqaviləsinə
- 1732-ci il Rəşt müqaviləsinə
- √ 1732-ci il Kirmanşah sülh müqaviləsinə
- 1727-ci il Nabur sülhünə

331. I Şah Abbas keçirdiyi hərbi-inzibati islahatlara aiddir:1.Paytaxtın Təbrizdən Qəzvinə köçürülməsi 2.Qızılbaşlarla bərabər başqa tayfalara da qoşuna daxil olmaq hüququnun verilməsi 3.Tayfa başçılığında irsilik qaydasının tətbiq edilməsi 4.Qoşunun tayfa müxtəlifliyi prinsipi əsasında təşkil edilməsi

- 1, 4
- √ 2, 4
- 3, 4
- 1, 3
- 1, 2

332. Şah I İsmayılın fəthlərinin xronoloji ardıcıllığını müəyyən edin:1. İsfahan 2. Şiraz 3. Xorasan 4. İraqi-Ərəb

- √ 2, 1, 4, 3
- 4, 1, 3, 2
- 1, 2, 3, 4
- 2, 1, 3, 4
- 1, 2, 4, 3

333. Xronoloji ardıcıllığı göstərin:1.Şərur döyüşü 2.Cabanı döyüşü 3.Çaldıran döyüşü

- 2, 3, 1
- 3, 2, 1
- 3, 1, 2
- √ 2, 1, 3
- 1, 2, 3

334. I Şah İsmayılın hakimiyyəti dövrünə aid olan hadisələri göstərin:1. Amasiya sülhünün bağlanması 2. Mərv döyüşündə Şeybanilər üzərində qələbə qazanılması 3. Bütün Azərbaycan torpaqlarının vahid dövlətdə birləşdirilməsi 4. Həmədan yaxınlığındakı Almaqulağı adlı yerdə Ağqoyunlu Murad Mirzə üzərində qələbə qazanılması

- 3, 4
- 2, 3
- 1, 3
- 1, 2
- √ 2, 4

335. Səfəvilərin Ərdəbil hakimliyi dövrünə aid olan döyüşləri müəyyən edin: 1.Şəməsi döyüşü 2.Şərur döyüşü 3. Almaqulağı döyüşü 4. Çaldıran döyüşü

- 2, 4
- 3, 4
- 1, 3
- 2, 3
- √ 1, 2

336. Təbriz miniatür məktəbinin görkəmli nümayəndələrini göstərin? 1. Sultan Məhəmməd 2. Kəmaləddin Behzad 3. Əbdulqadir Marağayi 4. Səfiəddin Urməvi

- √ 1, 2
- 2, 4
- 1, 3
- 1, 4
- 2, 3

337. Ağqoyunlu tayfalarının geniş yayıldığı ərazilər hesab edilirdi:

- √ Azərbaycanın cənub rayonları, Şərqi Anadolu,Qərbi İran , Dəclə və Fərat çayları vadiləri
- Anadolunun qərb əraziləri , Gürcüstanın şərq vilayətləri , İran
- Şimali və Cənubi Azərbaycan, Cənubi Qafqaz
- Şimali Qafqaz , Xəzərin qərb sahilləri, Göycə gölü ətrafı
- Kür və Araz çayları arasındakı ərazilər, Van gölü ətrafı, Azərbaycanın şimal rayonları

338. Uzun Həsən Teymuri hökmdarı Əbu Səidlə müharibə etmək üçün ittifaqa girdi:

- Osmanlı sultanı ilə

√ Şirvanşah Fərrux Yasar və Ərdəbil hökmdarı Şeyx Heydərlə
• Trabzon Yunan dövləti ilə
• Teymuri şahzadəsi Məhəmməd Yadigarla
• Cahanşahın oğlu Həsənəli ilə

339. Əlincə qalasının süqutunun səbəbi:

• Qara Yusifin Əlincə qalasına soxulması
√ Daxili çəkişmələr
• Cəlairilərin yürüşü
• Toxtamışın yürüşü
• Xalq üsyanı

340. Osmanlı dövlətinin Trabzonu tutmasının Ağqoyunlu üçün nəticəsi :

• Ağqoyunlu dövləti Qaraqoyunlu və Teymurilərlə yaxınlaşması
√ Ağqoyunlu dövləti Qara dənizə yeganə çıxış yolunu itirdi
• Avropa dövlətləri ilə diplamatik əlaqələr kəsildi
• Krımdakı ticarət mərkəzləri ilə əlaqə gücləndi
• Ağqoyunlu dövləti Aralıq dənizinə yeganə çıxış yolunu itirdi

341. XIII əsr mədəniyyət nümunəsi hesab olunur:

• Bəhmənyarın "Məntiqə dair zinət kitabı"
• Nizaminin "Xosrov və Şirin " əsəri
• Əfzələddin Xaqaninin "Mədain xərabələri"
√ Mahmud Şəbüstərinin "Gülşən-i raz " əsəri
• Bərdəi Məhəmmədin"Müxalifətçilərə cavab" əsəri

342. Hansı hökmdara aid olduğunu müəyyən edin:1. Hərbiçilərə iqta torpaq sahələri paylandı.2. Rabitə sahəsində islahat keçirildi.3. Karvanların, yolların və ticarət mərkəzlərinin qorunması üçün əsaslı tədbirlər gördü.4. Çəki və ölçü vahidlərini sabitləşdirdi.

• Hülaki xana
• Arqun xana
√ Qazan xana
• Əhməd xana
• Abaqa xana

343. Monqol ağalığı dövründə Azərbaycanda bazar qiymətlərinin artmasına, ticarət dövriyyəsinin azalmasına, həyat səviyyəsinin aşağı düşməsi ilə əlaqədar şəhər əhalisinin öz yerlərini tərk etməsinə gətirib çıxartdı:

√ Çaonun tətbiqi
• Vergi islahatı
• Qızıl Ordanın yürüşləri
• Hakimiyyət uğrunda ara müharibələri
• Xərac vergisinin tətbiqi

344. Monqolların Azərbaycana II yürüşü nəticələndi:

√ Monqollar Azərbaycanda möhkəmləndilər
• Monqollar Azərbaycan şəhərlərini qarət etməklə kifayətləndilər
• Azərbaycan Hülakilər dövlətinin mərkəzlərindən birinə çevrildi
• Qazan xan yerli feodallarla əlaqələri möhkəmləndirməyə başladı
• Cəbə və subutay Təbrizi ələ keçirdilər

345. Ərəb dövlətində Əməvilər hakimiyyətə gəldikdən sonra inzibati quruluşda edilən dəyşikliyə əsasən Azərbaycan hansı əmirliyə daxil edildi:

• Aran
√ Əlcəzirə

- Ərdəbil
- Mosul
- Qahirə

346. Eneolit dövründən başlayaraq köməkçi və ikinci dərəcəli təsərrüfat sahəsinə çevrilir?

- əkinçilik və sənətkarlıq
- yaylaq maldarlığı
- ovçuluq və maldarlıq
- dulusçuluq və heyvandarlıq
- √ ovçuluq və balıqçılıq

347. Azərbaycanın Şimal hissəsində sinifli cəmiyyət və ona uyğun sürətdə mülki bərabərsizlik artıq bərqərar olmuşdu.

- E.ə. I minilliyin ortalarında
- E.ə. IX əsrin əvvəllərində
- √ E.ə. II-I minilliklərin hüdudlarında
- E.ə. IV minilliyin sonu – III minilliyin əvvəllərində
- E.ə. XIV- VIII əsrlərdə

348. Azərbaycanda son tunc dövrü hansı arxeoloji mədəniyyətlər əsasında öyrənilmişdir:

- √ Xocalı -Gəbəbəy, Talış - Muğan, Naxçıvan
- Boyalı qablar , Naxçıvan, Talış-Muğan
- Quruçay, Boyalı qablar, Gəncə - Qazax
- Kür - Araz, Gəncə - Qazax, Kültəpə
- Qarabağ, Kür- Araz, Quruçay

349. Azərbaycan ərazisində müasir insan tipinin formalaşması başa çatmış və ibtidai icma quruluşunun ilkin pilləsi yaranmışdır?

- Üst Aşel mərhələsində
- √ Üst paleolit dövründə
- Orta Paleolit mərhələsində
- Orta Aşel dövründə
- Quruçay mədəniyyəti dövründə

350. İbtidai icma quruluşunda maldarlıq və əkinçiliyin əsaslı surətdə təşəkkülü və inkişafı hansı dövrdə baş vermişdir:

- Tunc dövründə
- Orta paleolitdə
- Alt paleolitdə
- √ Neolit dövründə
- Mezolit dövründə

351. Monqol canişinlərinin, xüsusilə Arqun ağanın Azərbaycanda həyata keçirdiyi siyasətin əsas mahiyyəti:

- √ Feodalların – vassalların köçəri monqol əyanlardan asılılığını gücləndirmək
- Təsərrüfatı gücləndirmək
- Vergiləri artırmaq
- Şəhər əhalisinə divan tutmaq
- Tutduqları ərazilərdə qarətçiliklə məşğul olmaq və əhalini soyub talamaq

352. Eyni ildə baş verən hadisələri müəyyən edin:1)Gəncə üsyanı 2)Monqolların II yürüşü 3)Qazan xanın islahatı 4)Monqolların əhalini siyahıya alması 5)Monqolların Rey və Həmədan şəhərlərini tutması

- √ 1, 2, 5;
- 1, 2, 3;
- 1, 3, 4;
- 1, 3, 5;

- 1, 4, 5;

353. Qazan xanın rabitə sahəsində keçirdiyi islahata aid deyil?

- Yamlara əmir təyin olundu və onlar lazımi qədər qulluqçularla və atlarla təmin oldu
- √ Elçilərin və yam işçilərinin yerli əhalidən vəsait alması qərarı qəbul edildi
- Yollarda karvansaralar tikildi və müsafirlərin rəiyyətin evində qalmaları qadağan olundu
- Qazan xan mövcud yarlıqları və paydzaları ləğv etdi
- Bütün əsas yollarda hər 3 fərsəxdən bir rabitə dayanacaqları – «yamlar» yaradıldı

354. 1367-ci ildə Cəlairlərin Şirvana yürüşünün əsas nəticəsi:

- Şirvan əhalisi Cəlairi ordusuna qalib gələrək müstəqiliyini qorudu.
- Şirvanşahlar üzərində qələbə qazana bilmədilər
- Şirvan əhalisi Cəlairlərlə gizli saziş imzaladılar.
- √ Şirvanşalar Cəlairlərin vassalına çevrildilər
- Şirvan ərazisinə girə bilməyən Cəlairlər müharibəni dayandırmağa məcbur oldular.

355. Monqolların I yürüşü zamanı ələ keçirilən şəhərlər sırasına aid deyil?

- √ Təbriz
- Sərab
- Beyləqan
- Marağa
- Şamaxı

356. XI əsrin əvvəllərində səlcuq türkləri əvvəlki türk axınlarından fərqli olaraq Azərbaycana hansı yolla gəlmişlər?

- Şimaldan Dərbənd yolu ilə
- Ölkənin qərbindən İrəvan yolu ilə
- Gürcüstan yolu ilə
- √ Ölkənin cənubundan İran yolu ilə
- Qərbdən Osmanlı yolu ilə

357. Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər və Rəvvadilər dövlətlərindən hansıları ara müharibələri və daxili mübarizə nəticəsində süqut etmişdir?

- √ Sacilər, Salarilər;
- Şirvanşahlar, Rəvvadilər;
- Şirvanşahlar, Sacilər;
- Salarilər, Şəddadilər;
- Sacilər, Şəddadilər;

358. Hansı Saci hökmdarının dövründə maliyyə və vergi sahəsində obyektiv siyasət ölkədə iqtisadiyyatın dirçəlməsinə və əhalinin artmasına səbəb oldu?

- İbrahimin dövründə
- Məhəmmədin dövründə
- Əbu Sac Divdadın vaxtında
- Deysəmin dövründə
- √ Yusifin dövründə

359. Hansı Sasani hökmdarının ölümündən sonra Albaniya müstəqil xarici siyasət yürütmüşdür:

- Balaşın
- √ I Şapurun
- II Yezdegirdin
- I Yezdəgirdin
- II Şapurun

360. Azərbaycanda islamın yayılması prosesi hansı ərazilərdə daha erkən baş vermişdi:

- Qəbələdə, Qarabağda, Xəzər sahilində
- Kür və Araz çayları boyunda, Qarabağda, Xəzər sahilində
- Arranda, Dərbəndd, Muğanda, Naxçıvanda
- Naxçıvanda, Mildə, Muğanda, Qarabağda

√ Muğanda, Mildə, Xəzər sahilində, Kür və Araz çayları boyunda

361. Qaynaqlarda "albanlara hökmdar verən" Roma imperatoru kim olmuşdur:

- Avqust

√ Trayan

- Valent
- Valerian
- Avrelian

362. Alban hökmdarı Urnayr hansı Sasani - Roma qarşılaşmalarında iştirak etmişdi:

√ Amid, Dzirav

- Suzian, Amid
- Kaar, Dzirav
- Bələncər , Dzirav
- Qədsiyyə,Bələncər,

363. Torpaqqala, Govurqala , Cavanşir qalaları hansı dövrdə tikilmişdi:

√ Erkən orta əsrlərdə

- Antik dövrdə
- XIII əsrdə
- XV- XVI əsrlərdə
- XI-XII əsrlərdə

364. Alban hökmdarı Cavanşir cənubdan gələn təhlükəni Albaniyadan sovuşdurmaq məqsədilə:

√ Ərəb xilafəti ilə yaxınlaşmaq yolun seçdi.

- Xəzər xaqanlığı ilə müharibəyə başladı.
- 667-ci ildə Bizans imperiyası ilə müqavilə bağladı.
- Xəzər xaqanının göndərdiyi qoşunları ölkənin cənubunda yerləşdirdi.
- Hun və digər köçəri türk tayfalarını ölkənin cənub sərhədlərində yerləşdirdi.

365. Müxtəlif dövrlərdə müxtəlif şəkildə olmuşdu, hansı məbləğdə və formada alınmasından asılı olmayaraq bu vergi kəndlilər üçün ağır yük idi:

- Dəhyek və ulafa vergilərinin məbləği və toplanma qaydası
- Bəhrə vergisinin məbləği və toplanma qaydası
- Tamğa vergisinin məbləği və onun toplanma qaydası

√ Xəracın məbləği və toplanma qaydası

- Sərkəllə vergisi və onun toplanma qaydası

366. Epiqrafik abidələr:

- Piktoqrafik işarələrin olduğu abidə növüdür
- mixi yazılar həkk olunmuş abidələrdir
- Pəhləvi dilində yazı həkk olunmuş abidələrdir

√ Daş, qala divarı üzərində həkk olunan yazıdan ibarətdir

- Antik dövrə aid abidə növüdür

367. Azərbaycanda ilkin şəhər mədəniyyəti təşəkkül tapır?

- İlk Tunc dövründə

- Orta əsrlər dövründə
- √ Orta Tunc dövründə
- Son Tunc və İlk Dəmir dövründə
- Antik dövrdə

368. Azərbaycanda son Tunc və ilk Dəmir dövrünə aid olan mədəniyyəti müəyyən edin:1.Kür-Araz 2.Mustye 3.Xocalı-Gədəbəy 4.Quruçay 5.Talış-Muğan

- 1,4;
- 1,5;
- 2,5;
- √ 3.5;
- 1,3;

369. Orta tunc dövründə cəmiyyətin həyatında baş vermiş dəyişikliklər?1)Əhalinin oturaq həyata keçməsi.2) Siklopik qalaların inşa edilməsinə başlanması.3)İkinci ictimai əmək bölgüsünün baş verməsi 4) İlkin səhər mədəniyyətinin təşəkkülü 5)Ayaqla hərəkətə gətirilən dulus çarxı ixtira olunması

- 1.3
- √ 3.4
- 1,2
- 2.4
- 2.5

370. Azərbaycanın qədim tarixi barədə məlumat vermişlər:

- √ Strabon, Plini, Arrian, Ptolomey, Tassit, Ammian Marsellin və başqaları.
- Herodot, Strabon, Plini, Aristotel, Makrobian, Barronna, Ptolomey və başqaları.
- Herodot, Plini, Musa Kalankatlı, Aristotel, Arrian, Tassit və başqaları.
- Strabon, Plini, Arrian, Herodot, Ptolomey, Sozigen, Musa Kalankatlı və başqaları
- Ptolomey, Makrobian, Əl – İstəxəri, Musa Kalankatlı, Heradot, Platon və başqaları.

371. Ön Qafqazdan başqa Cənubda Anadolu yaylası, Şimalda Çeçen-İnquş və Şimali Osetiyaya qədər olan ərazilərdə hansı mədəniyyətin izlərinə təsadüf olunmuşdur?

- √ Kür – Araz
- Kültəpə
- Talış - Muğan
- Naxçıvan
- Xocalı – Gədəbəy

372. Səfəvi dövlətində ağır iqtisadi və siyasi böhran nə zaman baş vermişdir:

- √ XVIII əsrin əvvəllərində
- XVIII əsrin ortalarında
- XVI əsrin sonlarında
- XVII əsrin ortalarında
- XVI əsrin əvvəllərində

373. I Pyoturun Xəzəryanı bölgələrə yürüşü yarımçıq dayandırıb geri qayıtmasının səbəblərinə aiddir:
1.Yerli əhaliin ruslara qarşı üsyanları
2.İsveçlə yeni müharibə təhlükəsinin yaranması
3.Osmanlı dövlətinin etirazına səbəb olması
4.Hacı Davudun güclü müqavimət göstərməsi
5.Xəzər dənizində tufan nəticəsində rusların azuqə və sursat gəmilərinin əksəriyyətinin dənizdə batması

- √ 2,3,5
- 1,3,4
- 1,2,5
- 2,4,5
- 1,2,4

374. I Pyotrun Azərbaycanın Xəzəryanı bölgələrini ələ keçirmək üçün bəhanə oldu:

√ Şirvan üsyanı vaxtı rus tacirlərinin zərər çəkməsi
• Xəzəryanı bölgələrə Osmanlının daxil olması
• Xəzəryanı bölgənin əhalisini Səfəvi zülmündən xilas etmək
• Cənubi Qafqazda yaşayan xristianları müdafiə etmək
• Qafqazda əmin amanlıq yaratmaq

375. Səfəvi hökmdarı Şah sultan Hüseynin dövründə :

• Şeybanilər ölkə ərazisinə hücüm etdilər
• Rus qoşunları Səfəvi dövlətinin ərazisnə hücum etdi
√ Dövlət xəzinəsi boşaldı
• Mərkəzi hakimiyyət möhkəmləndi
• Səfəvi -Osmanlı müharibəsi baş verdi

376. Ağa Məhəmməd xan Qacarın 1795- ci ildə Tiflisə yürüşü zamanı ona kömək edən Azərbaycan xanı:

• Şamaxı xanı Mustafa xan
√ Gəncəli Cavad xan
• Qubalı Şeyxəli xan
• Naxçıvan xanı Kəlbalı xan
• Şəki xanı Səlim xan

377. 1755 – ci ildə Hacı Çələbi Şirvana hücumu zamanı hansı xanlıqların birləşmiş qüvvələrinə məglub oldu?

√ Şamaxı və Quba
• Qarabag və Gəncə
• Gəncə və Şamaxı
• Şamaxı və Ərdəbil
• Quba və Qarabağ

378. Gavduşan döyüşü baş vermişdir:

• Qubalı Fətəli xanla Dərbənd hakimi Məhəmmədhüseyn xanın qoşunu arasında
• Qubalı Fətəli xanla rus qoşunları arasında
√ Qubalı Fətəli xanla Azərbaycan və bir sıra Dağıstan hakimləri arasında
• Qubalı Fətəli xanla Məhəmmədhəsən xan Qacarın qoşunları arasında
• Qubalı Fətəli xanın birləşdiurmə siyasətinə Azərbaycan xanlarının tərəfdar çıxması

379. İbrahimxəlil xan öz təsirini hansı xanlıqlar üzərində saxlayırdı?

• Şirvan , Şəki , Təbriz, Xoy
• Şirvan , Şəki , Təbriz, İrəvan
√ Qaradağ, Ərdəbil, Naxçıvan, Gəncə
• Marağa, Qaradağ, Xoy , Quba
• Qarabağ, Naxçıvan , Xoy, Ərdəbil

380. Qubalı Fətəli xanla Şəkili Hüseyn xan arasında 1769-cü ildə bağlanmış müqaviləyə görə:

• Ağsu ərazisindən vergi toplamaq Şəki xanlığının ixtiyarına keçdi.
• Fətəli xan Salyan və Dərbənd ərazisindən öz qoşununu çıxarmağı öhdəsinə götürdü.
• Şəki xanı Gürcü və Dağıstan feodallarından kömək almayacağını bildirdi.
• Quba və Şəki xanlıqları Şamaxı ərazisində iki hakimiyyətliliyi saxladılar.
√ Hüseyn xan Şamaxının işlərinə qarışmamağı, Fətəli xana hərbi qüvvə, lazım olduqda qoşun verməyi öhdəsinə götürdü.

381. Hacı Çələbinin Azərbaycanı vahid xanlıq şəklində birləşdirə bilməməsinin əsas səbəbi:

√ ölkədə siyasi birləşmə üçün iqtisadi əsasın olmaması
• Şəki xanının şəxsi nüfuzunun aşagı olması

- qonsu çarlıqların Azərbaycan ərazisinə intensiv müdaxiləsi
- xanlıgın qoşununun yetərli sayda olmaması
- bəzi güclü xanlıqların bu prosesə mane olması

382. "Qızılqaya xəyanəti " zamanı Şəki xanı Hacı Cələbi xan:

- Kartli- Kaxetiya çarı ilə ittifaq bağladı
- Gəncəni gürcülərdən müdafiə edərək qorudu
√ Döyüşdə gürcü çarını məğlub edərək girov düşmüş xanları azad etdi
- Geri çəkilərək Qazax və Borçalının müdafiəsini gücləndirdi
- Girov düşmüş xaların ərazilərini özünə birləşdirdi

383. XIII əsrin 20 - ci illərində Azərbaycana monqollarla bərabər hücum etmişdi:

- xarəzmşahlar və ruslar
- alanlar və sərirlər
- hunlar və qıpçaqlar
√ qıpçaqlar və gürcülər
- ruslar və xəzərlər

384. Hülakilər dövlətinin zəifləməsindən istifadə edərək hakimiyyət uğrunda mübarizəyə qoşulan ən qüdrətli feodal qrupu idi :

- Qızıl Ordalılar
√ Çobanilər
- Qaraqoyunlular
- Cəlarilər
- Şirvanşahlar

385. Qazan xanın vergi sahəsində keçirdiyi islahat nəticəsində baş vermiş dəyişikliklərə aiddir:
1.Vergi toplanmasında icarəyə vermək qaydası tətbiq edidi
2.Qeyri-qanuni vergilərin toplanması qadağan edildi
3.tamğa və yarlıq sistemi ləğv edildi
4.Vergilərin yığılması mərkəzi divana həvalə edildi və hakimlərin bu işə qarışması qadağan edildi
5.Hər bir kəndin , şəhərin ödəyəcəyi vergilər lövhəölərdə həkk olunub baxımlı yerlərdə nümayiş etdirildi

- 1,3,4
√ 2,4,5
- 2,3,4
- 2,3,5
- 1,3,5

386. II Vaçe II Yezdəgirdin vəfatından sonra Sasanilərdə baş verən hadisələrdən istifadə edərək:

- Albaniyada sasani mərzbanlığını ləğv etdi
- İberiya ilə ittifaqa girərək sasanilərə qarşı mübarizəyə başladı
- Bizansın göndərdiyi elçiləri qəbul edib, saziş imzaladı
√ Albaniyada xristianlığı yaymaq məqsədilə sasani hakimiyyətinin tabeliyindən çıxdı
- Albaniyanın qərb vilayətlərində öz müstəqilliyini bərpa etdi

387. 889 -cu ildə ərəblər tərəfindən Azərbaycanın hakimi təyin olunmuşdu

- Mərzban ibn Məhəmməd
√ Məhəmməd Əbu Sac
- Yusif Əbu Sac
- Əbu Sac Divdad
- İbrahim ibn Mərzban

388. Azərbaycana monqolların ikinci yürüşünün nəticələrinə aiddir:
1.Bütün Azərbaycan işğal olundu
2.Atabəylər dövləti süqut etdi
3.Ali Monqol Xaqanlığının tərkibinə qatıldı
4.Əhalinin ciddi müqaviməti nəticəsində ölkədən qovuldular
5.Şirvanşahlar dövləti müstəqilliyini tamamilə itirdi

- 2,3
- 3,5
- √ 1,3
- 2,5
- 1,4

389. Azərbaycana monqolların ikinci yürüşündə əsas məqsədi idi:

- Şirvanın müstəqilliyinə son qoymaq
- √ Azərbaycanda möhkəmlənmək
- Xarəzmşah Cəlallədini Azərbaycandan çıxışdırıb çıxartmaq
- Qızıl Ordanın yürüşlərinə son qoymaq
- Müstəqil dövlətləri itaətə gətirmək

390. Romalıların Qədim Albaniyada olduqlarını sübut edir:

- Ərəb müəlliflərinin əsərlərindəki məlumat
- Adrianın alban hökmdarlarına qiymətli hədiyyələr göndərilməsi
- √ Oktavianın adına Qobustanda üzərində latın dilində yazı olan daş kitabə
- Şəkinin Dəfnə kəndindəki kitabə
- Qazakadan aşkar edilən abidə üzərindəki yazı

391. E.ə. 66-cı ildə Kür çayı sahilində baş vermiş döyüşün nəticəsi:

- Parfiyalılar və atropatenalılar qalib gəldi
- √ Romalılar qalib gəldi
- Döyüş nəticəsiz başa çatdı
- Döyüş yarımçıq dayandırıldı
- Albanlar qalib gəldi

392. Atropatena ilə Parfiya arasında münasibətlərin pozulmasının səbəbi:

- Atropatenanın Selevkilərin tərəfinə keçməsi
- Atropatenanın həm Romaya , həm də Parfiyaya qarşı eyni mövqedə dayanması
- √ Parfiyanın Atropatenanı bütövlükdə özünə tabe etməyə çalışması
- Atropatena hökmdarlarının xarici syasətdə Romaya meyl etməsi
- Romanın mülklərini ələ keçirmək uğrunda mübarizə

393. Eramızın 20- ci ilində Atropatena hansı dövlətin hakimiyyəti altına düşdü:

- √ Parfiyanın
- Selevkilərin
- Yunanların
- Midiyalıların
- Romalıların

394. Aşşur hökmdarı III Salmanasarın e.ə. 843 - cü il mixi yazılı kitabəsinə aiddir:
1.Manna adına ilk dəfə rast gəlinməsi
2. Kitabədə qarət- talan haqqında heç bir məlumata rast gəlinməməsi
3.Mannaya hücum edən II Russanın adının çəkilməsi
4.Hökmdar şəhəri haqqında məlumat verməsi

- √ 1,2
- 2,3
- 1,4

- 1,3
- 3,4

395. E.ə IX əsrdən etibarən Manna torpaqlarını ələ keçirmək uğrunda bir- biri ilə mübarizə aparırdı:

- √ Urartu və Aşşur
- Aşşur və Babil
- Midiya və Babil
- Babil və Urartu
- İskit və Midiya

396. Azərbaycanda Erkən Tunc dövründə cəmiyyətin həyatında baş vermiş dəyişikliklərə aiddir:
1.Ovçuluq əsas peşəyə çevrildi
2.Köçmə (yaylaq) maldarlığı meydana gəldi
3.Toxa əkinçiliyi xış əkinçiliyi ilə əvəz edildi
4.Əkinçilik və maldarlıq bir- birindən ayrıldı
5.İbtidai əkinçilik yarandı

- 3,5,2
- 1,3,5
- √ 2,3,4
- 1,5,2
- 1,2,3

397. Orta tunc dövrünə aid deyil:

- İkinci böyük ictimai əmək bölgüsü baş verdi
- √ Ayaqla hərəkətə gətirilən dulus çarxından istifadə olundu
- Sənətkarlıq müstəqil sahəyə çevrildi
- Şəhər tipli yaşayış məskənləri yarandı
- Boyalı qablar mədəniyyəti formalaşdı

398. Kür- Araz mədəniyyəti üçün səciyyəvidir:

- Əhalinin oturaq həyata keçməsi
- √ Təsərrüfatda kişi əməyinin ön plana keçməsi
- Ayaqda hərəkətə gətirilən dulus çarxından istifadə edilməsi
- İlk dəfə metal əmək alətlərindən istifadə edilməsi
- Üçüncü ictimai əmək bölgüsünün baş verməsi

399. Qarabağ bölgəsində ən qədim insan düşərgələrini müəyyən edin:
1.Azıx 2.Babadərviş 3.Sərkərtəpə 4. Tağlar 5. Qazma

- 1,5
- √ 1,4
- 1,3
- 4,5
- 3,4

400. Azərbaycan Cəlairilər dövlətinin tərkibinə daxil edildi:

- √ 1359 - cu ildə
- 1372 - ci ildə
- 1382- ci ildə
- 1357- ci ildə
- 1410- cu ildə

401. Azıxantrop nə zaman yaşamışdır?

- 200 min il bundan əvvəl
- 300 min il bundan əvvəl

√ 350 -400 min il bundan əvvəl
• 100 min il bundan əvvəl
• 500 min il bundan əvvəl

402. Azərbaycan tarixi hansı qaynaqlar - mənbələr əsasında öyrənilir?

• qəbir abidələri, qayaüstü abidələr və yazılı abidələr
√ arxeoloji və yazılı abidələr
• fauna və flora qalıqları
• heyvan və bitki qalıqları, qayaüstü rəsmlər, qəbir abidələri, yaşayış yerləri
• qədim yaşayış yerləri və qəbir abidələri

403. Quba xanı Fətəli xanın "nigah diplomatiyasından" istifadə edərək işğal etdiyi xanlıq necə adlanır?

• Gəncə
√ Bakı
• Şəki
• Şamaxı
• Qarabağ

404. Quba xanı Fətəli xan öz sərhədlərini möhkəmləndirmək məqsədilə:

√ Cəngavər şahsevənlərin bir hissəsini xanlıq ərazisinə köçürtdü
• Rusiyanın təəbəliyinə keçdi
• Qonşularla dostluq münasibətlərini inkişaf etdirdi
• Gürcüstanla hərbi saziş bağladı
• Osmanlı dövlətinin Rusiyaya qarşı ittifaq təklifini qəbul etdi

405. Quba xanı Fətəli xanın Gurcu çarı II İrakli ilə ittifaqının əsasını xarici mudaxilələrdən qorunmaqla yanaşı daha hansı məqsədlər təşkil edirdi?

√ Öz hakimiyyətini cənub xanlıqlarına yaymaq
• cənub – qərb torpaqlarını işğal etmək
• Vahid mərkəzləşmiş dövlət yaratmaq
• qonşu xanlıqlarla dostluq münasibətləri saxlamaq
• Azərbaycanın şimal ərazilərini əlində saxlamaq

406. Səfəvi dövlətində mövcud olan Ali məclisə aiddir:

• xarici siyasət məsələlərinə baxan dövlət qurumu idi
• şəriət qaydalarına əməl edilməsinə nəzarət edən dövlət qurumu idi
• icraedici fəaliyyət ilə məşğul olan ali hakimiyyət orqanı idi
√ məşvərətçi səsə malik dövlət qurumu idi
• dövlət təhlükəsizliyi məsələlərini həll edən hərbi-inzibati orqan idi

407. I Şah Təhmasib tərəfindən Şirvana bəyləybəyi təyin olunan Əlqas Mirzənin müstəqil dövlət qurmaq çəhdlərinin qarşısı alındı:

√ 1547- ci ildə
• 1545- cu ildə
• 1567- ci ildə
• 1534- cü ildə
• 1552- ci ildə

408. 1468-ci ildə Azərbaycana hücum etmiş Teymuri Əbu Səidə qarşı mübarizə aparmaq üçün Ağqoyunlu Uzun Həsən hansı tədbiri gördü:

• Feodal əyanları üzərinə yeni vergilər qoydu
• Qaraqoyunlulardan müttəfiq kimi istifadə etdi
• Trabzon imperatorundan iqtisadi yardım istədi
√ Şirvanşah Fərrux Yasar və Ərdəbil hökmdarı Şeyx Heydərlə ittifaqa girdi
• Osmanlı Sultanı II Mehmetə kömək üçün müraciət etdi

409. Ağqoyunlu dövlətinin Avropa dövlətləri ilə münasibətlərinin qurulmasına mühüm təsir göstərən amil idi:

- Teymuriləri Azərbaycandan çıxartmaq üçün
- √ Osmanlı sultanı II Mehmetin ağır gömrük siyasəti
- Qaraqoyunlularla mübarizədə hərbi yardım almaq üçün
- Açıq dənizlərə və okeanlara çıxış əldə etmək üçün
- Məmlüklərin iqtisadi əhəmiyyətli yolları ələ keçirməsinin qarşısını almaq üçün

410. 1395- ci ildə dağılan Qaraqoyunlu ittifaqını yenidən bərpa etdi:

- İsfəndiyar
- √ Qara Yusif
- Bayram xoca
- Cahanşah
- Əbu Səid

411. Rəvvadilər dövləti öz müstəqilliyini itirərək səlcuqların hakimiyyəti altına keçdi?

- 1088-cü ildə
- 1227-ci ildə
- √ 1065-ci ildə
- 1037-ci ildə
- 1055-ci ildə

412. Atropatenanın Parfiya ilə birgə Romaya qarşı apardığı döyüş neçənci ildə baş vermişdir:

- √ e.ə 53- cü ildə
- e.ə. 66- cı ildə
- e.ə.35- ci ildə
- e.ə.220- ci ildə
- e.ə. 65- ci ildə

413. Albaniya ilə dostluq münasibətləri saxlayan Roma imperatoru idi:

- √ Adrian
- II İrakli
- Trayan
- Foka
- Antoni

414. İndiki Şimali Azərbaycan və Dağıstanın cənub bölgələrini əhatə edən qədim dövlətimiz adlanırdı:

- Şirvanşahlar
- Atropatena
- Sacilər
- √ Albaniya
- Manna

415. Cənubi Azərbaycan, İran Kürdüstanı və Şimali Azərbaycanın müəyyən hissəsini əhatə edən qədim dövlətimiz adlanırdı:

- Albaniya
- Kimmer- skit padşahlığı
- Aratta
- √ Atropatena
- Manna

416. Mannanın Assuriya ilə ittifaqı hansı Manna hökmdarının dövründə pozuldu:

- İranzunun

- Ualinin
√ Ahşerinin
- Udakinin
- Azanın

417. Azərbaycanın hansı dövlətinin etnik quruluşunda sakasen, mük, kaspi, qel, uti tayfaları təmsil olunurdular:

- Manna
- Sacilər
- Aratta
- Eldəgizlər
√ Albaniya

418. Üst paleolitin xarakterik xüsusiyyətləri hansı bənddə düzgün əks edilmişdir:

- Oturaq həyata keçid və nitqin yaranması
- Ox və yayın kəşvi , patriarxatın formalaşması
- Mikrolit alətlərdən geniş istifadə olunması, maldarlığın yaranması
- Deşici əmək alətlərinin üstün yer tutması və toxuculuğun kəşvi
√ Qəbilə quruluşunun yaranması və müasir insan tipinin formalaşması

419. Azərbaycanda son tunc və ilk dəmir dövrü:

- e.ə. XVII - XV əsrlər
- e.ə. X - VIII əsrlər
- e.ə. X - II əsrlər
√ e.ə. XIV - VIII əsrlər
- e.ə. VII - V əsrlər

420. Azərbaycanda qədim incəsənətin çiçəklənmə dövrü hesab edilir:

- Erkən və orta aşel dövrü
- Neolit
- Üst paleolit
- Mezolit
√ Orta tunc dövrü

421. Nəsli qəbilə quruluşunun əsasını təşkil edirdi:

- eyni dildə danışan bir neçə tayfanın birliyi
- əqli və fiziki cəhətdən inkişaf etmiş tayfaların birliyi
- eyni dildə danışan bir neçə qəbilələrin birliyi
- bir neçə insan sürüsünün vahid birliyi
√ qan qohumluğuna malik insanların qəbilə birliyi

422. Quriya,Menqreliya, İmeretiyanın Osmanlılara,Mesxiya, Kartli , Kaxetiyanın Səfəvi nəzarətinə keçməsini təsdiqləyən sülh necə adlanır:

- Sərab
- Mərənd
- İstanbul
- Qəsri- Şirin
√ Amasiya

423. Şah I Təhmasibin Səfəvilər dövlətinin mərkəzləşdirmə siyasəti nəticəsində Şəkini özünə tabe etdi:

- 1538- ci ildə
- 1534- cü ildə
- 1565- ci ildə
√ 1551- ci ildə

- 1547- ci ildə

424. I Şah İsmayıl Mərv qələbəsi ilə hansı əraziləri Səfəvilər dövlətinə qatdı:

- Qəzvindən Mavərənnəhrə qədər
- Ərməniyyədən Gilana qədər
- √ Xorasandan Amu Dəryaya qədər
- Malatiyyadan Qarahisara qədər
- Mərvdən Nişapura qədər

425. Şeyx Cüneydin 1460 - cı il Şirvana və Dağıstana səfəri nəticələndi:

- Şirvanşahları məğlub edərək Ərdəbil şeyxiliyinin nüfuzunu artırdı
- Şeyx Cüneyd çərkəzlərin hücumuna məruz qalaraq öldürüldü
- √ Şirvanşah I Xəlilüllah və Cahanşah ittifaqına qarşı mübarizədə məğlub oldu
- Şirvanşahların paytaxtını ələ keçirdi
- Ağqoyunlu hökmdarından gözlədiyi dəstəyi ala bilmədiyi üçün geri çəkildi

426. Diyarbəkiri mərkəz seçərək Ağqoyunlu bəyliyini möhkəmləndirmişdi:

- Pəhləvan bəy
- Cahahgir Mirzə
- Uzun Həsən
- Əlaəddin Turəli bəy
- √ Qara Yulluq Osman bəy

427. 1421- ci ildə baş vermiş Alaşkerd döyüşü nəticələnmişdi:

- Qaraqoyunlular Şirvanşahlara kömək etmiş , lakin döyüş hər iki tərəf üçün nəticəsiz bitmişdi
- Teymuri Şahrux məğlub olmuş və qoşunlarını Azərbaycandan çəkmişdi
- Döyüş Teymuri qüvvələrinin dağıdılması və yalnız Qarabağ ərazisinin itirilməsi ilə sona çatmışdı
- Qaraqoyunlular qalib gəlmiş və Herata qədər əraziləri ələ keçirmişdilər
- √ Qaraqoyunlular məğlub olmuş və Şahruxun ali hakimiyyətini tanımışdı

428. Qara Yusif və Şirvanşah İbrahim arasında Kür çayı yaxınlığında döyüş baş vermişdi:

- 1408- ci ildə
- 1421- ci ildə
- 1417- ci ildə
- √ 1412- ci ildə
- 1406- cı ildə

429. Qaraqoyunlu dövlətinin əhatə etdiyi ərazilər hansı bənddə düzgün əks edilib:

- Dərbənddən Dəclə və Fərat çaylarına qədər
- Kürdən cənubda Azərbaycan torpaqları , İraq, Suriya və Misir
- Gilandan Qəzvinə qədər, Həmədan və İsfahan
- İndiki Şimali Azərbaycan ərazisi və Ərməniyyə
- √ Şirvanşahlar istisna olmaqla Azərbaycan torpaqları , Şərqi Anadolu,Gürcüstanın bir hissəsi, İran və İraq

430. Mərkəzi Van şəhəri olmaqla Qaraqoyunlu bəyliyini yaratmışdı:

- Qara Yusif
- Əbu Səid
- Qara İskəndər
- √ Qara Məhəmməd
- Cahanşah

431. Şirvanşah İbrahimin Teymurun ölümündən sonra yürütdüyü siyasi xətt hansı bənddə öz əksini tapır:

- Dağıstanı tutaraq Şirvana birləşdirməyə çalışırdı
- Şirvanı Toxtamışın hücumundan qurtarmaq üçün Cəlarilərlə birləşmişdi
√ Təbrizi ələ keçirərək vahid Azərbaycan dövləti yaratmağa çalışırdı
- Cəlarilərlə Teymurilərə qarşı birləşmişdi
- Qaraqoyunlu Qara Yusiflə müttəfiqlik münasibətləri saxlayırdı

432. Monqollar dövründə təsərrüfatın idarəsi həyata keçirilirdi:

- Qazilər dördlüyü tərəfindən
- Tümən sistemi ilə
√ Divan sistemi vasitəsilə
- Örüş siyasəti ilə
- icarə sistemi ilə

433. 1231 - ci ildə başlayan II Monqol yürüşü necə nəticələnir:

- 1232- ci ildə monqolların Dərbənddən Orta Asiyaya qayıtması ilə
- 1235- ci ildə Gəncənin ələ keçirilməsi ilə
- 1357- ci ildə bütün Azərbaycanın ələ keçirilməsi ilə
- 1256- cı ildə Təbrizin tutulması ilə
√ 1239 - cu ildə Azərbaycanın tamamilə işğal edilməsi ilə

434. Monqollar Şirvanın mərkəzi Şamaxını ələ keçirdilər:

- 1225- ci ildə
- 1221- ci ildə
- 1220- ci ildə
- 1223- cü ildə
√ 1222- ci ildə

435. Xarəzmşah Cəlaləddin Azərbaycanı işğal etdi:

- 1223- cü ildə
- 1227- ci ildə
- 1231 - ci ildə
√ 1225- ci ildə
- 1222- ci ildə

436. Azərbaycan 1239- cu ildə monqollar tərəfindən ələ keçirildikdən sonra :

- Qızıl Ordanın nəzarətinə keçdi
- Abaqa xanın hakimiyyət dairəsinə daxil edildi
√ Ali monqol xaqanlığının təyin etdiyi canişinlər tərəfindən idarə edilirdi
- Münke xan tərəfindən idarə edilməyə başladı
- Cəbə və Subutayın rəhbərlik etdiyi hərbi qarnizona tabe edildi

437. Monqolların Azərbaycana I yürüşü həyata keçirilmişdi:

- 1223- 1225- ci illərdə
- 1256-1357- ci illərdə
- 1231-1239- cu illərdə
√ 1220-1222- ci illərdə
- 1220- 1225- ci illərdə

438. Rusların Azərbaycana 944- cü il yürüşünün mahiyyəti hansı bənddə əks olunur:

- Dərbəndi tutmaq və oradan Şirvana keçmək
- Şirvanda möhkəmlənmək
- Yezidiyyəni tutmaq və böyük qırğınlar törətmək

- Bakını tutmaq və orada möhkəmlənmək
√ Bərdəni tutmaq və Azərbaycanda möhkəmlənmək

439. Gəncənin müdafiəsini möhkəmləndirmək üçün"Gəncə qapılarının" düzəldilməsi haqqında əmr vermişdi:

- Məhəmməd ibn Şəddad
- I Fəzl
- Ləşkəri
√ Əbləsüvar Şavur
- III Fəzl

440. Şəmsəddin Eldənizin dövründə Atabəylər dövlətinin ərazisi əhatə edirdi:

- Naxçıvandan Təbrizə qədər
- Ərməniyyədən Mosula qədər
√ Qafqaz dağlarından İran körfəzinə qədər
- Təbrizdən Kür çayına qədər
- Dərbənddən Qəzvinə qədər

441. Rəvvadilər dövlətinin paytaxtı Təbriz Səlcuqlar tərəfindən tutuldu:

- 1045- ci ildə
- 1038- ci ildə
- 1043- cü ildə
- 1050- ci ildə
√ 1054- cü ildə

442. Salarilər dövləti əhatə edirdi:

- Şimalda Dərbənddən cənubda Kür çayına qədər
- şimalda Kür çayıdan cənubda Zəncana qədər
- şimalda Bələncərdən cənubda Qəzvinə qədər
- Şimalda Şəkidən cənubda Ərdəbilə qədər
√ Şimalda Dərbənddən cənubda Dəclə Fərat çaylarına qədər

443. Sacilər dövləti mövcud olmuşdur:

- 941-981- ci illərdə
- 981-1054- cü illərdə
- 861- 1038- ci illərdə
√ 879- 941- ci illərdə
- 971- 1088- ci illərdə

444. IX əsrdə Müstəqil Şirvanşahlar dövlətini yaratdı:

- Məhəmməd ibn Xalid
- Məniçöhr ibn Yezid
- əş Şəmax ibn Şüca
- Əbu Tahir
√ Heysəm ibn Xalid

445. XII əsr memarlıq abidələrinə aid deyil:

- Xanəgah kəndində sərdabə
- Üç günbəz
- Mömünə xatun türbəsi
- Yusif İbn Küseyr türbəsi
√ Təbrizdə Şənbi Qazan abidəsi

446. Səlcuqlar sultan Toğrulun başçılığı altında nə zaman Azərbaycana daxil oldular:

- XI əsrin 80 - ci illərində
- √ XI əsrin 50 – ci illərində
- XI əsrin sonlarında
- XII əsrin ortalarında
- X əsrin 60- cı illərində

447. Atropatena Sasanilər tərəfindən işğal edildi:

- 229- cı ildə
- 260- cı ildə
- 262- ci ildə
- √ 227- ci ildə
- 252-ci ildə

448. Azərbaycanda ərəb əsarətinə qarşı ilk üsyanlar başlanmışdı:

- 750-775- ci illərdə
- 881-885- ci illərdə
- √ 748-752- ci illərdə
- 892-895- ci illərdə
- 760-766- cı illərdə

449. Alban hökmdarı Cavanşir ərəblərə qarşı ittifaq qurmuşdu:

- Sünik hökmdarı Sunbat ilə
- Xəzər xaqanı Şat ilə
- Sasani hökmdarı III Yezdəgirdlə
- √ Bizanz imperatoru II Konstantinlə
- Gürcü hökmdarı III Georgi ilə

450. Ərəblərin Azərbaycana hücumu başlandı:

- 661- ci ildə
- 630- cu ildə
- √ 639- cu ildə
- 643- cü ildə
- 645- ci ildə

451. Albaniyada II Vaçenin dövründə hökmdar hakimiyyəti ləğv edildi və mərzbanlıq sistemi yaradıldı:

- 450- ci ildə
- √ 463- cü ildə
- 262- ci ildə
- 488- ci ildə
- 629 - cu ildə

452. Albaniya Sasanilər tərəfindən işğal edilmişdi:

- 510 -cu ildə
- 463- cü ildə
- 227- ci ildə
- √ 262 - ci ildə
- 493- cü ildə

453. Lulubilərin xırda hakimlərini mərkəzi dövlətdə birləşdirən Lullubi hökmdarı :

- İşpakay
- Sukuşşiranna

- Satuni
√ İmmaşqun
- Partatua

454. E.ə. 220 - ci ildə Adərbayqanın siyasi vəziyyəti hansı bənddə düzgün əks edilmişdi:

- Roma Adərbayqanla dostluq münasibətləri saxlayırdı
- Adərbayqan Roma və Sələvkilər arasında bölüşdürülmüşdü
- Adərbayqan müstəqil fəaliyyət göstərirdi
- Sələvkilərlə müharibədən qalib çıxmışdı
√ Adərbayqan Sələvkilərdən asılı hala düşdü

455. Orta tunc dövründə baş vermişdir:

- Böyük qəbilə birlikləri yaranmışdır
- Tacirlər müstəqil fəaliyyətə başlamışdı
- Əkinçilik və maldarlıq yaranmışdı
- Ulu icma qəbilə icması ilə əvəz olunmuşdu
√ İlkin şəhər mərkəzləri yaranmışdı

456. Əkinçilik və maldarlıqla yanaşı, eneolit əhalisi:

- Ön Asiya ilə əlaqə yaradılmış,maldarlıq əsas peşəyə çevrilmişdir.
√ ərzağa olan tələbatın bir qismini ovçuluq və balıqçılıq vasitəsilə təmin edirdilər.
- əmək alətləri təkmilləşmiş,xışdan istifadə etmişlər.
- toxa əkinçiliyini inkişaf etdirmiş, tuncdan bəzək əşyaları düzəltmişlər
- maldar və əkinçi tayfalarına bölünmüşdülər.

457. Qədim daş dövrü ilə orta daş dövrünün oxşar cəhətləri:

- hər ikisində tayfa birliyinin mövcud olması
- mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına keçidin başlanması
- əkinçilikdə toxadan istifadə edilməsi,nəsli qəbilə quruluşunun mövcudluğu
- ox və kamanın kəşfi,əmək alətlərinin daşdan hazırlanması
√ hər ikisində əmək alətlərinin daşdan hazırlanması

458. Səfəvilər dövləti ilə Osmanlı dövləti arasında imzalanmış Amasiya müqaviləsindən neçə il əvvəl Atabəylər dövləti süquta uğramışdı:

- 365 il
- 375 il
√ 330 il
- 340 il
- 450 il

459. Şeyx Heydər Ağqoyunlu Yaqub padşahla razılığa gəldikdən sonra Dağıstana və Şirvana yürüş etdi:

- 1490-cı ildə
- 1460-cı ildə
- 1477-ci ildə
√ 1483-cü ildə
- 1494-cü ildə

460. Qızıl Orda xanı Toxtamışın Azərbaycan şəhərlərində, həmçinin Naxçıvanda qala bilməməsinin səbəbi nə idi:

- Hun tayfalarının Qızıl Orda malikanələrinə hücum etməsi.
- Təbriz və Naxcıvan şəhərlərinin əhalisindən xərac alması.
- Toxtamışın qoşunlarının aclıqdan və xəstəlikdən əziyyət çəkməsi.
- Rus knyazlarının Toxtamış üzərinə yürüşü.
√ Yerli əhalinin inadlı mübarizəsi və Teymur qoşunlarının Qızıl Orda malikanələrinə hücumu.

461. Hülakü hökmdarı Qazan xanın islam dinini qəbul etməkdə məqsədi:

- İqtisadi tənəzüllün qarşısını almaq.
- √ Yerli oturaq feodalları və müsəlman din xadimlərini öz tərəfinə çəkmək.
- Keçirəcəyi islahatların tərəfdarlarının sayını artırmaq.
- Möhkəm birlik yaradıb Qızıl Orda dövlətinə qarşı müarizə aparmaq.
- Köçəri feodalların müqavimətini qırıb yerli feodalları idarəçiliyə cəlb etmək.

462. Qıpçaqlar Dərbənd, Qəbələ və Gəncəni işğal etdilər:

- 1231-ci ildə
- 1221-ci ildə
- 1224-cü ildə
- 1225-ci ildə
- √ 1223-cü ildə

463. Səlcuq axınlarının Cənubi Qafqaz üçün ən başlıca nəticəsi nədən ibarət oldu:

- Ölkədə pərakəndəlik və ara müaribələri qızışdı.
- Vergilərin artırılması nəticəsində əhalinin narazılığı gücləndi.
- Azərbaycan xalqının Monqolara qarşı mübarizə aparması asanlaşdı.
- Azərbaycanda İslam dininin tam yayılması prosesi başa çatdı.
- √ Oğuz-türk tayfaları burada başlıca etnik və siyasi amilə çevrildi.

464. Araz çayı üzərində körpü saldırmış Şəddadi hökmdarı:

- Şavur
- Əbülhəsən Ləşgəri
- √ Fəzl ibn Məhəmməd
- Məhəmməd ibn Şəddad
- III Fəzlun

465. Xürrəmilərin Xilafət orduları üzərindəki qələbələrinin səbəblərinə aiddir:

- Xürrəmilərin Bizans imperiyasından böyük miqdarda qoşun alması.
- Ərəblərin döyüş meydanında düzgün taktika seçə bilməmələri.
- Ərəb ordusunda çoxsaylı türk süvarilərinin olması.
- √ Xilafət sarayında hakimyyət üstündə çəkişmələrin güclənməsi, ərəblərə qarşı Suriya və Misirdəki üsyanların Xürrəmilərin azadlıq müharibəsi ilə bir vaxta düşməsi.
- Xəzərlərin Xürrəmilərə yardım göstərməsi.

466. Albaniyada Mehranilər sülaləsinin hökmranlığı başlayır:

- VII əsrin sonu VIII əsrin əvvələrindən.
- VI əsrin sonlarından.
- VII əsrin ortalarından.
- √ VII əsrin əvvəllərindən.
- VI əsrin sonu-VII əsrin əvvələrindən.

467. Məzdəkilər təliminin əsas müddəası:

- Sasani zülmünün aradan qaldırılması, maddi nemətlərin insanlar arasında bərabər bölünməsi.
- Sasanilərin vergi siyatəsinə qarşı mübarizə aparmaqla ədalətli cəmiyyəti qurmaq.
- Ədalətli cəmiyyət qurmaq, kəndlilərdən toplanan vergilərin miqdarını azalatmaq.
- Son anda xeyirin şər üzərində qələbə qazanması, ədalətin bərqərar olması.
- √ Ədalətli cəmiyyət qurmaq, insanlar arasında əmlak bərabərliyi yaratmaq.

468. Manna dövləti Assuriya meyilli xarici siyasət yeritməsi nəticəsində nail olmuşdu:

- Assur ağalığı ölkədə möhkəmlənmiş Assuriyaya vergi ödənilməsi dayandırılmışdı.

- Urartu hökmdarlarının Mannada təsiri daha da güclənmişdi,
- Assuriya qoşunları Manna ərazisində yerləşdirilmiş, onun ərazisi parçalanmışdı.
- √ Urartu işğallarından xilas olmuş və ölkənin vahid mərkəzdə birləşməsi üçün şərait yaranmışdı.
- Bir sıra əyalətlərini Assuriyaya güzəştə getmişdi

469. E.ə 66-cı illdə Roma senatı Lisini Lukulun yerinə Şərqə göndərmişdi:

- Yuliy Sezar
- Kanidi
- Antoni
- √ Qney Pompey
- Oktaviyan Avqust

470. Manna hökmdarı Ahşerinin xarici siyasətində baş verən dəyişiklik nədən ibarət idi:

- Assuriya ilə Urartuya qarşı ittifaq bağladı
- Midiya ilə birləşib Babislitanı məğlub etdi.
- Midiya hökmdarı Kiaksarla saziş bağladı.
- √ İskitlərlə Assuriyaya qarşı ittifaqa girdi.
- Assuriya ilə mübarizə aparmaq üçün Babilistanla əlaqə yaratdı.

471. Xronoloji ardıcılığı müəyyən edin: 1. Ox və kamanın kəşfi. 2.Axirət dünyasına inamın yaranması.3. Ulu icmanın yaranması. 4. Xış əkinçiliyinin meydana gəlməsi. 5. Mənimsə təsərrüfatından istehsal təsərrüfatına keçidin başa çatması.

- 1,2,3,5,4.
- 3,4,5,2,1.
- 2,4,3,1,5.
- √ 3,2,1,5,4.
- 2,1,3,5,4.

472. Mezolit dövründə insanlar:

- Ox və kaman kəşf olunmuş, əkinçillik əsas peşəyə çevrilmişdir.
- Oturaq həyata keçmişlər, ox və kamandan istifadə olunmuşdur.
- Daşı deşməyi bacarmış, maldarlıq əsas peşəyə çevrilmişdir.
- √ Təbiətin hazır məhsullarını mənimsəməkdən onların istehsalına keçidin əsasını qoymuşlar
- Heyvanları uzaq məsafədən ovlaya bilmişlər, istehsal təsərrüfatı formalaşmışdı

473. 1488-ci ildə Tabasaranda, Şahdağın ətəyində baş vermiş döyüşün nəticəsi:

- Qızılbaşlar Qarabağ və Dağıstan hakimlərinin köməyilə Şirvanşahları məğlub etdilər
- Şirvanşahlara məğlub olan Şeyx Heydər Ərdəbilə geri çəkildi
- tərəflərdən heç biri uğur qazana bilmədi
- Qızılbaşlarla Ağqoyunluların birləşmiş dəstələri Şirvanşahlara qalib gəldilər
- √ Şirvanşahlarla Ağqoyunluların birləşmiş dəstələri qızılbaşları məğlub etdilər

474. XVI əsrdə yaşamış və "Əhsən ət- Təvarix" əsərinin müəllifi olmuş Azərbaycan tarixçisi:

- Qiyasəddin əl Huseyni
- Şərəf xan Bitlisi
- Oruc bəy Bayat
- İskəndər Münşi
- √ Həsən bəy Rumlu

475. XV- XVI əsrlərə aid memarlıq abidələrini göstərin:

- Üç günbəz, Göy günbəz , Əlincə çayı üzərində körpü ,Əlincə qalası
- Əlincə çayı üzərində tikilmiş körpü, Mömünə xatun türbəsi, Əlincə qalası, Ağbil məqbərəsi
- Oğlanqala , Xudafərin körpüsü , Qəlaybuğurd qalası , Mömünəxatun türbəsi , Şeyx Cüneyd məqbərəsi
- √ Qeysəriyyə bazarı, Nəsriyyə və Məqsudiyyə məqrəbəsi , Şeyx Cüneyd məqbərəsi, Bakının şərq darvazaları

- Gülüstan qalası, Şirvanşahlar sarayı, Qız qalası, Həşt- behişt

476. Şirvanda Səfəvilər əleyhinə üsyanlar baş vermişdi:

- 1535- 1537- ci illərdə
- 1568- 1570- ci illərdə
- √ 1547- 1549-cu illərdə
- 1555- 1597- ci illərdə
- 1542- 1544- cü illərdə

477. Azərbaycan sultan III Muradın ordusu tərəfindən zəbt edilmişdir:

- 1572- 1579-cu illərdə
- √ 1586- 1589- cu illərdə
- 1568-1570- ci illərdə
- 1555- 1570- ci illərdə
- 1580- 1585- ci illərdə

478. Səfəvi dövlətinin idarəetmə sistemində şiələrin ruhani başçısı hesab olunurdu:

- əmir əl-üməra
- vəkil
- √ şah
- vəzir
- sədr

479. Səfəvilərin siyasi fəaliyyəti hansı Ərdəbil hakiminin dövründən başlanmışdı:

- √ Şeyx Cüneyd
- Şeyx Xacə Əli
- Şeyx Musa
- Şeyx İbrahim
- Şeyx Səfiyyədin

480. Şirvanın ilk bəylərbəyi təyin olunan Əlqas Mirzənin osmanlılarla yaxınlaşmasına səbəb olmuşdu:

- Krım xanı tərəfindən təqibə məruz qalması
- Gürcüstana qarşı həyata keçirdiyi uğursuz yürüşlər
- Şirvan feodalları ilə sazişə gələ bilməməsi
- √ Səfəvilərə qarşı qaldırdığı qiyamın uğursuz olması
- Səfəvi hökmdarı tərəfindən sıxışdırılması

481. Salari hökmdarı Mərzubanın oğlu İbrahimin dövrünə aiddir:

- Dövlətin ərazisi Dərbənddən Zəncana qədər olan ərazini əhatə edirdi.
- Dəbil əmirliyi Şəddadilər tərəfindən zəbt edildi.
- "Qanunnamə" yazdırdı
- √ Dövlətin varlığına son qoyuldu
- Şirvanşahlar dövləti qısa müddətdə olsa da Salarilərə tabe edildi.

482. Azərbaycana gəldiyi zaman Rəvvadilərin daxili müstəqilliyini tamam ləğv edərək 1065-ci ildə Təbrizə səlcuq əmiri təyin etdi:

- Məlikşah
- Sultan II Toğrul
- √ Alp Arslan
- Sultan Səncər
- III Toğrul

483. Alan tayfalarının, qonşu feodal dövlətlərin və xüsusilə səlcuq türklərinin basqınlarından qorunmaq üçün tədbirlər gördü, Gəncənin ətrafında xəndək qazdırıb hasar çəkdirdi, 1063-cü ildə Şirvana bir neçə yürüş təşkil edərək 40 min dinar xərac alan Şəddadi hökmdarı:

- III Fəzlun
- Məhəmməd ibn Şəddad
- Ləşkəri
- √ Əbüləsvar Şavur
- Fəzl ibn Məhəmməd

484. Şirvanşah Axsitana aid olanları müəyyən edin:1)Dənizdə hərbi donanmanı, quruda ordunu xeyli gücləndirdi 2)Alimləri, filosfları,şairləri himayə edirdi3)Kür çayından torpaqları suvarmaq üçün Şamaxıya kanal çəkdirdi.4)Monqolların I yürüşü zamanı əlaqə yaratmaq üçün 10 nəfərdən ibarət elçi göndərdi 5)Atasından fərqli olaraq Atabəylərə düşmənçilik edirdi.

- 3.50
- 1, 4
- 2.40
- 2.50
- √ 1.20

485. Şəddadilər dövlətinin başçısı hansı titulu daşıyırdı :

- padşah
- şah
- sultan
- məlik
- √ əmir

486. Şəddadilər dövlətinin qoşunu təşkil olunmuşdu :

- Feodallardan ibarət suvarilər
- Qeyri - türklərdən toplanmış xüsusi qvardiya
- Ayrı - ayrı köçəri tayfalardan toplanmış suvarilər və piyadalar
- Artileriya və piyada qoşunu
- √ Daimi nizami qvardiya və könüllülər

487. Şəmsəddin Eldənizə 1136 - cı ildə iqta şəklində bağışlanmışdı :

- Şirvan
- √ Arran
- Kürdən cənubdakı Azərbaycan torpaqları
- Təbriz, Əhər və Rey
- Naxçıvan

488. XII əsr Azərbaycan elminin nümayəndələri:

- Zeynəlabdin Şirvani, Nizam Təbrizi, Hacı Əlişah Təbrizi
- Zülfüqar Şirvani, Məhəmməd Naxçıvani, Mahmud İbn Maqsud
- Mahmud Şəbüstəri, Mahmud İbn İlyas, Əbdülqadir Marağayi
- √ Fazil Fəridəddin Şirvani, Bəhmənyar ibn Mərzban, Əbu Zəkəriyyə, Əbu Mənsur
- Übeyd Təbrizi, Əbdülmömin Təbrizi, Zülfüqar Şirvani

489. Göstərilənlərin hansı hökmdara aid olduğunu müəyyən edin:1)Xəlifə onu Azərbaycan və Ərməniyə canişini , habelə Rey, Qəzvin, Zəncan valisi təyin etdi, 2), bunun müqabilində hər il xəzinəyə 500 min dinar xərac verməli idi.

- Mərzuban ibn Məhəmməd
- Yəzid ibn Məzyəd
- Əbu Sac Divdad
- √ Yusif ibn Əbu Sac
- Heysəm ibn Xalid

490. Albaniya, Şirvanşahlar, Salarilər, Şəddadilər dövlətlərinin hökmdarları hansı ardıcıllıqda düzgün göstərilib:

- Şeruyə, İbrahim, Əbüləsvər Şavur, Fəriburz
- İbrahim, Əbüləsvər Şavur, Şeruyə, Fəriburz
- İbrahim, Fəriburz, Şeruyə, Əbüləsvər Şavur
- √ Şeruyə, Fəriburz, İbrahim, Əbüləsvər Şavur
- Əbüləsvər Şavur, İbrahim, Fəriburz, Şeruyə

491. Saları hökmdarı Mərzubanın oğlu İbrahimin (961-981) hakimiyyəti illərində dövlətin itirdiyi ərazilər:

- Təbriz, Şabran, Bakı
- Naxçıvan, Dəbil, Ərdəbil
- Səlmas, Mosul, Ərdəbil
- Şirvan, Təbriz, Dəbil
- √ Şirvan, Dərbənd, Gəncə

492. Şəddadilər dövləti yaranmışdır:

- 948- ci ildə Əhərdə
- 1067- ci ildə Bakıda
- √ 971- ci ildə Gəncədə
- 1050- ci ildə Gəncədə
- X əsrin ortalarında Dvində

493. Aratta dövlət qurumu meydana çıxıb?

- e.ə.II minillik və e.ə.I minilliyin əvvəlində
- e.ə.VI-V minilliklərdə
- e.ə.VI minillikdə
- √ e.ə.III minilliyin birinci yarısında
- e.ə.IV minilliyin ikinci yarısında

494. E.ə. III minilliyin birinci yarısında:

- Arattada dövlətə məxsus idarə orqanları və vəzifəli şəxslər kiçik feodallar meydana gəlmişdi.
- Aratta haqqında "En-Merkar" dastanı və III Salmanasarın daş kitabəsində məlumat verilir.
- Arattada dövlət yaranmış, nizami ordu yaradılıb, silah istehsal olunmaqla Mesapatomiyaya səfərlər təşkil edilib.
- √ Aratta Cənubi Azərbaycanda yaranmış,onun ərazisi Urmiya gölünün cənub və cənub-şərq hissəsini əhatə edirdi.
- Arattada dövlətə məxsus idarə orqanları və vəzifəli şəxslər, icmaçi kəndlilər meydana gəlmişdi.

495. Roma hökmdarı Qney Pompeyin yürüşü zamanı Albaniyada hökmdarlıq edirdi:

- Urnayır
- II Vaçe
- √ Oroys
- Arran
- I Vaçe

496. Tarixi qaynaqlarda albanlarla dostluq münasibətləri saxlayan Roma imperatoru hesab olunur:

- Mavriki
- Yuli Sezar
- √ Adrian
- Oktavian Avqust
- İrakli

497. II Sarqonun şərəfinə abidə qoydurmuş Manna hökmdarı:

- Ahşeri
- Ualli
- İranzu
- √ Ullusunu

- Erisinni

498. E.ə.VII əsrin ortalarında skit hökmdarı:

- II Sarqon
- Asarhaddn
- Şamaş
- √ Tuqdamme
- Sarduri

499. Kuti hökmdarları İkiçayarasında hakimiyyəti ələ keçirdilər:

- e.ə.2315-ci ildə
- e.ə. 2104-cü ildə
- e.ə.2115-ci ildə
- √ e.ə.2175-ci ildə
- e.ə. 2555- ci ildə

500. Kutilərin İkiçayarasında hakimiyyəti nə vaxta qədər davam etmişdir:

- e.ə. 2135- ci ilədək
- e.ə. 2114-cü ilədək
- e.ə. 2150- ci ilədək
- e.ə. 2109 -cu ilədək
- √ e.ə. 2104- cü ilədək

501. E.ə. II minilliyin əvvəllərində turukkilərin İkiçayarasının şimalında apardıqları mübarizə hansı dövlətin maraqlarına toxunurdu:

- Midiya
- Akkad
- Şumer
- √ Assuriya
- Manna

502. E.ə. III minilliyin I yarısında Aratta dövləti hansı Şumer şəhər dövləti ilə münasibətlər saxlamışdi:

- Nippur
- Ur
- √ Uruk
- Sippar
- Umma

503. Aşağıda göstərilənlər Ziviyə abidəsini daha düzgün əks etdirir:

- Silahların hazırlanmasında tökmə sənəti təsvir edilmişdir
- √ Qızıl, gümüş və fil sümüyündən hazırlanmış 341 əşya tapılmışdır
- Böyük qızıl qədəh üzərində təsviri nağıl əks olunmuşdur
- Hökmdarların basdırılma mərasimi əks olunmuşdur
- "Skit üslublu" üzük əşyaları tapılmışdır

504. Xanlıqlar dövründə divan, şəriət və əsnaf məhkəmələri kimlərin mənafeyini müdafiə edirdi?

- rəiyyət və rəncbərlərin
- din xadimləri və sənətkarların
- √ xan və feodalların
- azad və icmaçı kəndlilərin
- maaf və elatların

505. Yeni və Köhnə Şamaxı vahid xanlıqda birləşdirildi?

- 1785-ci ildə
- 1768-ci ildə
- 1755-ci ildə
- √ 1763-cü ildə
- 1769-cü ildə

506. Quba xanlığı İrana və Osmanlı Türkiyəsinə qarşı birgə mübarizə aparmaq üçün hansı ölkə ilə ittifaqa girdi?

- Qarabağ xanlığı ilə
- Naxçıvan xanlığı ilə
- Xoy xanlığı ilə
- √ Gürcüstan çarlığı ilə
- Bakı xanlığı ilə

507. Quba xanı Fətəli xanın Qarabağa hücumu neçənci ildə həyata keçirilmişdi?

- √ 1780 – 1781
- 1774 - 1775
- 1784 – 1785
- 1772 - 1774
- 1783 - 1784

508. Quba xanı Fətəli xanın cənub xanlıqlarında möhkəmlənə bilməməsinin əsas səbəbləri:

- Dağıstan feodallarının birləşmiş quvvələrinin Dərbəndi ələ keçirməsi
- Qarabağ xanlığının Quba üzərinə yürüşü
- Cənub xanlıqlarının güclü müdafiə olunması
- √ Dağıstan feodallarının arxadan onu hədələməsi və Rusiyanın narazılığı
- Şimal – şərqi Azərbaycanda vəziyyətin qeyri – sabit olması

509. Quba xanı Fətəli xan 1769 – cu ildə lazım olduqda ona qoşun verməyi qəbul edən müqaviləni hansı xanlıqla baglamışdı?

- Ərdəbil
- Qarabag
- Naxçıvan
- √ Şəki
- Lənkəran

510. Azərbaycanda vahid dövlət yaratmaq istəyirdi:

- Bakı və Quba xanlıqları
- Şəki və Lənkəran xanlıqları
- Şəki və Gəncə xanlıqları
- √ Şəki və Quba xanlıqları
- Lənkəran və Bakı xanlıqları

511. Cavad xanlığı neçənci ildə Quba xanlığı tərəfindən təşkil olunan Şimal – şərqi Azərbaycan ərazisinə daxil edildi?

- 1767- ci ildə
- 1785- ci ildə
- 1769- cu ildə
- √ 1768 - ci ildə
- 1756- cı ildə

512. İbrahimxəlil xanın Xoy səfəri neçənci ildə həyata keçirilmişdi?

- 1785- ci ildə
- 1790- cı ildə
- 1788 - ci ildə
- 1792- ci ildə

√ 1789- cu ildə

513. 1765 – ci ildə Şamaxı və Quba xanlığı arasında başlayan mubarizə neçənci ildə başa çatdı?

- 1789- cu ildə
- 1765- ci ildə
- 1770- ci ildə
√ 1768- ci ildə
- 1775- ci ildə

514. Urmiya xanı Fətəli xan Əfşarın 1760 – cı ildə Qarabağa hucumunun nəticəsi?

- Pənahəli xan Urmiya xanlığına qarşı Şəki xanı ilə müqavilə bağladı
- Fətəli xan məğlub olmuş ,qoşununu geri çəkmişdi
- Fətəli xan Qarabağı işgal edərək onun bütün ərazisinə sahib olmuşdu
- Pənahəli xan qalib gələrək Urmiya xanlığı ilə sulh imzalamışdı
√ Pənahəli xan oğlu İbrahimxəlil xanı girov göndərərək Şuşanı mühasirədən azad etmişdi

515. Qubalı Fətəli xanla Şəki xanı Hüseyn xan arasında müqavilə imzalanmasından neçə il sonra Ağa Məhəmməd Şah Qacar Şuşanı işğal etdi?

- 36
- 21
- 34
√ 28
- 17

516. Xanlıqlar dövründə hansı məhkəmə idarələri mövcud olmuşdur?

- silki məhkəmələr
- qazı və əsnaf məhkəmələri
- şəhər və divan məhkəmələri
- əyalət və kənd məhkəmələri
√ divan, şəriət və əsnaf məhkəmələri

517. Qubalı Fətəli xanın 1784 – cü ildə Qarabağ və Cənubi Azərbaycan xanlıqlarına yürüşü zamanı ona dəstək vermişdi:

- Dərbənd xanı
√ Cavad xanı
- Şamaxı xanı
- Bakı xanı
- Şəki xanı

518. Hansı xanlığın Quba xanlığına birləşdirilməsi ilə Şimal - Şərqi Azərbaycan torpaqlarının birləşdirilməsi başa çatdı:

- Dərbənd xanlığı
- Bakı xanlığı
- Talış xanlığı
- Cavad xanlığı
√ Şəki xanlığı

519. Cənubi Qafqazın "Qafqaz lionu " hansı şəhər hesab edilirdi?

- Qarabağ
- Şuşa
- Quba
√ Nuxa
- Ordubad

520. Qaraqoyunlu Cahanşahın ölümündən sonra Qaraqoyunluların qanuni varisi hesab olunurdu:

- Cahangir Mirzə
- Əbu Səid
√ Həsənəli
- Hüseynəli
- Məhəmməd

521. Ağqoyunlu hökmdarı Uzun Həsənin osmanlılara qarşı mübarizədə sıx əlaqə saxladığı dövlətlər idi:

- Qaraqoyunlu dövləti, Kipr krallığı, Teymurilər
√ Trabzon dövləti, Qaraman bəyliyi, Kipr krallığı, Rodos dövləti
- Almaniya imperatorluğu,Şeybanilər, İspaniya
- Məmlük dövləti,Şeybanilər, Genuya
- Trabzon dövləti, Teymurilər, Qaraman bəyliyi

522. Ağqoyunlu - Osmanlı müharibələri zamanı osmanlıların məğlub olduğu döyüş:

- Qoyluhisar
- Otluqbeli
- Qoçhisar
- Beyşehir
√ Malatya

523. Şirazın valisi olan Uğurlu Məhəmmədin başçılıq etdiyi qiyam nə zaman baş vermişdir:

- 1472- ci ildə
- 1475- ci ildə
- 1477- ci ildə
√ 1474- cü ildə
- 1479- cu ildə

524. 1412- ci ildə Qaraqoyunlulara tabe olan Şirvanşahlar hansı hökmdarın dövründə asılılıqdan imtina etdilər:

- Keyqubadın
- Hüşəngin
- Keykavusun
√ I Xəlilullahın
- I İbrahimin

525. Ağqoyunlu – Trabzon münasibətlərinə aid deyildir:1)Tərəflər Osmanlı sultanı II Mehmetlə ticarət əlaqələri yaratdılar.2)Ağqoyunlu tacirləri Qara dənizə Trabzon vasitəsi ilə çıxırdılar.3)Ağqoyunlu ordusu üçün odlu silah, xüsusilə artileriya silahları istehsalı Trabzonda təşkil edilmişdir. 4)Aralarında qohumluq əlaqələri yaranmışdı. 5)Ağqoyunlu tacirləri Venesiya və Genuya, habelə digər avropalı tacirlərlə Trabzon vasitəsilə geniş ticarət əlaqələri aparırdılar.6)Osmanlı sultanı Səlimə qarşı mübarizə aparmaq üçün ittifaq yaratmışdılar.

- 3,4,5
- 2,3,6
- 1,2,5
√ 1, 3,6
- 2,4,5

526. Qaraqoyunlu dövlətinin teymurilərin asılılığından azad olmasından neçə il əvvəl Şəddadilər dövləti süqut etdi?

- 459 il
- 390 il
- 410 il
- 559 il
√ 359 il

527. 1412-ci ildə Kür çayı sahilində baş vermiş döyüşdə Şirvanşah I İbrahimin müttəfiqləri idilər:

- Sultan Əhməd və Qara İsgəndər
- Sultan Şahrux və Baysunqur
- Teymuri Şahrux və Kəyumərs
- Hüşəng və Kəyumərs
- √ Seyid Əhməd və II Konstantin

528. 1402 – ci ildə Teymurun Osmanlı sultanı I Bəyazidlə vuruşmasında Azərbaycan hökmdarları ona kömək etmişdi:

- Uzun Həsən və Şeyx Səfiyyədin
- Qara Məhəmməd və Sultan Əhməd
- Sultan Hüseyn və Qara İskəndər
- √ I İbrahim və Seyid Əhməd
- Şeyx Üveys və Qara Yusif

529. Şirvanşah I İbrahim Əmir Teymurla olan müttəfiqlik münasibətindən istifadə edərək :

- Gürcüstanın şərq ərazilərinə sahib oldu
- Əlincə qalasının tutulmasında teymurilərə kömək etdi
- Osmanlı dövləti ilə münasibətləri qaydaya saldı
- √ Qarabağ , Şəki, Dərbənd və Qəbələyə öz təsirini yaydı
- Təbrizi ələ keçirərək öz hakimiyyətini bütün Azərbaycanda genişləndirdi

530. 1406- cı ilin mayında Təbrizə daxil olan Şirvanşah I İbrahimin tezliklə şəhəri tərk etməsinin səbəbi :

- Şeyx Əli Qəssab və Qazi İmadəddinin başçılığı ilə Şirvanşahlara qarşı üsyanın başlanması
- Ərdəbilli Bistam Cəyirin Təbrizə hücum etməsi
- Teymurun nəvəsi Ömərin ordusunun Təbrizi mühasirəyə alması
- Teymuri Əbubəkrin ordusunun Təbrizə yaxınlaşması
- √ Cəlari Sultan Əhmədin və Qaraqoyunlu tayfa birləşməsinin hərbi qüvvələrinin şəhərə yaxınlaşması

531. 1483-cü ildə Təbrizdə tikilmiş böyük saray kompleksi necə adlanırdı:

- Həsən padşah Camesi
- Mömünə xatun türbəsi
- Məqsudiyyə məqbərəsi
- Nəsriyyə kompleksi
- √ Həşt behişt

532. XIV əsrin sonu - XV əsrin əvvəllərində Azərbaycanda müsuqi sənətinin inkişafında önəmli işlər görmüşdü:

- Kəmaləddin Behzad
- Cahanşah Həqiqi
- √ Əbdülqadir Marağayi
- Sultan Məhəmməd
- Mir Müsaviri

533. Uzun Həsənin 1474- 1477 - ci illərdə Gürcüstana yürüşünün nəticəsi :

- Uzun Həsən məğlub olaraq geri qayıtmalı oldu
- Şirvanşahlar bu yürüşdə Ağqoyunlulara yardım edərək , Gürcüstanın bir hissəsinə sahib oldular
- Yürüş osmanlıların müdaxiləsi nəticəsində uğursuz oldu
- √ Tiflis daxil olmaqla Şərqi Gürcüstan Ağqoyunlu dövlətinin hakimiyyəti altına düşdü
- Misir və Suriya hakimi Ağqoyunlular üzərinə hücuma keçdi

534. Səfəvilər dövrünə aid memarlıq abidələrini göstərin:1. Qusarda Şeyx Cüneyd məqbərəsi,2. Şirvanşahlar saray kmpleksi,3. Təbrizdə Göy məscid,4. Bakının Şərq Darvazaları

- 1, 3
- 2, 4
- 1, 2

√ 1, 4
• 2, 3

535. Şah I İsmayılın diplomatik münasibətlər yaratmağa can atdığı ilk Avropa dövləti:

• Fransa
• Avstriya
• Polşa
√ Venesiya
• Almaniya

536. 1553-cü ildə Səfəvilərin Rusiya ilə yaxınlaşmağa çalışması hansı dövlətə qarşı yönəlmişdi?

• Krım xanlığına
• Misirə
• Dağıstana
• Şeybanilərə
√ Osmanlı dövlətinə

537. 1578-ci ildə Şirvanı osmanlılar ələ keçirdikdən sonra:

• Şirvanın hakimi vəzifəsində saxlanıldı
• Şirvan vassal asılılığını qəbul etdi
√ Şamaxı və Dərbənd bəylərbəyliklərinə bölündü
• Müstəqil Şirvan dövləti yaradıldı
• Mövcud hərbi-inzibati idarə üsulu saxlanıldı

538. Şah I İsmayılın ölümündən sonra Səfəvilər dövlətində baş vermiş siyasi böhran hansı bənddə düzgün əks edilmişdir?

• Təkəli əmiri Hüseyn xan hakimiyyəti ələ keçirdi
• Səfəvi dövləti Çuxa sultan və Köpək sultan arasında bölüşdürüldü
• Şamlı və ustaclı əmirləri Səfəviləri müdafiə etməkdən imtina etdilər
√ Hakimiyyət uğrunda rumlu, ustaclı ,təkəli, şamlı tayfaları arasında gərgin mübarizə gedirdi
• I Təhmasib rumlu və şamlı tayfalarına məglub olaraq hakimiyyətdən kənarlaşdırıldı

539. Azərbaycanda 748- 752 - ci illərdə xilafətə qarşı baş vermiş üsyanlara yerli feodalların qoşulmasının səbəbi :

• Feodalların mülklərinin əllərindən alınması, onların az məhsuldar torpaqlara köçürülməsi
√ Ərəblərin feodalları dövlət aparatından uzaqlaşdırması , onların torpağını , kəndlilər üzərindəki hüququnu və digər imtiyazlarının məhdudlaşdırılması
• Feodallar üzərinə əlavə vergilərin qovulması , onların zorla islamlaşdırılması
• Köhnə dini etiqadlara sitayiş etdiklərinə görə onların çıxışdırılması
• Feodalların zorla orduya cəlb edilməsi , onlardan müharibə zamanı əlavə vergilər tələb edilməsi

540. Səfəvi hökmdarı şah Abbas 1616 - cı ildə hansı Avropa dövlətinin tacirlərinə Səfəvi ərazisində sərbəst ticarət hüququ verdi:

• genuyalılara
• portuqallara
• hollandlara
• venesiyalılara
√ ingilslərə

541. Hülakulər dövlətində "Divan sistemi" üzrə təşkil edilmişdi:

• İnzibati idarə
√ Təsərrüfatın idarəsi
• Hərbi idarə
• Ədliyyə
• Məhkəmə

542. Azərbaycanın Hülakular dövründə vəziyyəti aşağıdakı bəndlərdən hansında düzgün əks edilmişdir:

- Azərbaycan Cormoqon Noyonun hakimiyyəti altında birləşdirilməsi
- Hülakular Azərbaycana xüsusi qayğı göstərir, hərbi qərargahı burada saxlayırdılar
- Azərbaycan Hülakular dövlətinin dördüncü əyalətinə aid edilmiş, paytaxt Marağa olmuşdu
- Dərbənd və Təbriz paytaxt elan edilmişdi
- √ Hülakular dövlətinin mərkəzi vilayəti Azərbaycan,Təbriz və Marağa paytaxt şəhərlər idi

543. Səlcuq hökmdarı Sultan Toğrulun Şirvana hücumu nə zaman baş vermişdi:

- 1121- ci ildə
- 1130- cu ildə
- √ 1123- cü ildə
- 1125- ci ildə
- 1120- ci ildə

544. Səfəvi hökmdarı II Abbasın Dərbənddən Astarabada qədər nəzarət məntəqələrini qoydurmasına səbəb olmuşdu:

- Osmanlıların hücumları
- Venesiyalıların hücumları
- Rusların hücumları
- Farsların hücumları
- √ Kazakların hücumları

545. Səfəvi- Osmanlı müharibələri zamanı Bağdad türklər tərəfindən ələ keçirildi:

- 1639- cu il noyabrın 12- də
- 1637- ci il oktyabrın 25- də
- 1655-ci il senntyabrın 5-də
- √ 1638- ci il dekabrın 25- də
- 1635- ci il iyulun 18- də

546. 1735 - ci ilin iyununda Səfəvi və Osmanlı hərbi qüvvələri arasında baş vermiş qarşılaşma necə nəticələndi:

- Gürcülərin osmanlılara dəstək verməsi döyüşün türklərin xeyrinə sona çatmasına şərait yaratdı
- Osmanlılar əlavə qoşun hissələri dəvət etməklə döyüşü qələbə ilə bitirdilər
- Səfəvi qüvvələri geri çəkildi və türklər yenidən Şirvana sahib oldular:
- √ Nadir xan türklər üzərində tam qələbə çaldı
- Krım tatarlarının yardımı ilə Osmanlılar qalib gəldi

547. Səfəvi və Osmanlı dövlətləri arasında bağlanmış hansı müqaviləyə əsasən İrəvan , Gəncə , Tiflis , Şamaxı , Şirvan və Dağıstan Türkiyəyə verilmişdi:

- Bağdad
- √ Kirmanşah
- Moskva
- Rəşt
- Qəsri- Şirin

548. Ağqoyunlu hökmdarı Uzun Həsənin Gürcüstana hücumunun səbəbi:

- √ Gürcü knyazlarının Ağqoyunlu hökmdarına Türkiyyəyə qarşı mübarizədə dəstək verməməsi
- Gürcü knyazlarının Misirlə ittifaqa girməsi
- Ağqoyunlu dövləti daxilində siyasi sabitliyin pozulmasında gürcülərin rol oynaması
- Ağqoyunlu hökmdarına qarşı Uğurlu Məhəmmədin qiyamına gürcülərin dəstək verməsi
- Şirvanşahlarla Gürcü knyazlarının Ağqoyunlara qarşı birləşməsi

549. Xürrəmi hərəkatı yönəlmişdi:

- √ İslam dini , feodal zülmü və ərəb əsarətinə qarşı

- İslamı zərdüşt dininə etiqad edənlərdən qorumaq məqsədilə
- Bizans zülmü və idarəetmə sisteminə qarşı
- Zərdüştlük dininin təbliğ olunmasına qarşı
- Pavlikianlara , ərəblərə qarşı

550. Ərəblər dövründə hərbiçilərə verilən torpaq mülkiyyət forması necə adlanırdı:

- xass
- divan
- √ İqta
- camaat
- mülk

551. Albaniyada xristian məktəblərinin açılması və bu dinin geniş tətbiqi hansı alban hökmdarının zamanında baş vermişdi:

- I Vaçaqan
- √ III Vaçaqan
- I Vaçe
- Mirhovan
- Asvaqen

552. Albaniyada hansı hökmdarın göstərişi ilə Alban əlifbasının yenilənməsi və uşaqlara yazının öyrədilməsi həyata keçirilmişdi:

- III Vaçaqanın
- I Vaçaqanın
- √ Asvaqenin
- I Vaçenin
- II Vaçenin

553. IV əsrin 30 - cu illərində Albaniyanın Paytakaran vilayətinə rəhbərlik edirdi:

- Satoy
- III Vaçaqan
- √ Sanatürk
- I Vaçe
- Asay

554. Albaniyada Arşakilər sülaləsinin ilk nümayəndəsi olaraq hakimiyyətə gələn hökmdar:

- Mirhovan
- Asvaqen
- I Vaçe
- √ I Vaçaqan
- III Vaçaqan

555. Alban hökmdarları Oroys , Kozis və Zoberin hansı sülalənin nümayəndələri olduğu güman edilir:

- √ aranilər
- arşakilər
- sasanilər
- selevkilər
- əhəmənilər

556. E.ə.65- ci ildə Albaniyanın Roma ilə qarşılaşmasına təsir göstərən əsas amil:

- √ Albanların üsyan qaldırması
- Roma- Armeniya müttəfiqliyi
- Romanın Fraaspaya hücumu
- Albaniyanın İberiya ilə yaxınlaşması
- Lukullun Qafqaz xalqlarına qarşı sərt münasibəti

557. Skit padşahlığı yerləşirdi:

- Mannanın mərkəzi torpaqlarında
- √ Urmiya gölünün şimal və qərb hissəsində ,Manna və Urartu arasında
- Midiya və Manna arasında
- Urmiya gölü və Mesopotomiya arasında
- Fars ərazisi və Ekbatana ətrafında

558. Assuriya ilə ənənəvi ittifaqı pozmuş Manna hökmdarı idi:

- Udaki
- Ualli
- √ Ahşeri
- Aza
- İranzu

559. E. ə. XII -XI əsrlərə aid varlı Sarıçoban kurqanı hansı xarakterik xüsusiyyəti ilə fərqlənir :

- Heyvan fiqurlarının olması ilə
- √ Qəbirin xaç şəklində olması ilə
- Səma cisimlərinə aid bütlərin olması ilə
- Ağac qalıqlarının çoxluq təşkil etməsi ilə
- Öküzə sitayişi əks etdirməsi ilə

560. Coğrafi mövqeyi ilə Ön Asiyada Hett , Mitanni, Assuriya kimi mədəniyyət mərkəzləri ilə bağlı olan Azərbaycan ərazisi:

- Qarabağ
- Talış- Muğan
- Xocalı- Gədəbəy
- Qobustan
- √ Naxçıvan

561. Küdürlü , Borsunlu , Şahtaxtı və Əlikəməktəpənin varlı qəbirləri tunc dövrünün hansı mərhələsini əks etdirirdi:

- Erkən tunc dövrü
- Dəmir dövrü
- Kür - Araz mədəniyyəti
- Son tunc dövrü
- √ Orta tunc dövrü

562. Orta tunc dövrünün yaşayış məskənləri Eneolit və Kür- Araz mədəniyyətlərinin yaşayış məskənlərindən nə ilə fərqlənirdi:

- √ Daha böyük sahəni əhatə edir, möhtəşəmliyi ilə seçilirdi
- Yaşayış məskənlərində yarımqazma evlərin çoxluğu ilə
- Siklop tikililərinin olması ilə
- İcma təsərrüfatının dağılması prosesinin başa çatması ilə
- Ayrı-ayrı kəndlər şəklində salınırdı

563. XVI əsrdə Azərbaycanda feodal sinfinə daxil olanlar hansı cavabda tam göstərilmişdir?

- Şah və hakim sülalənin üzvləri, qədim oturaq əyanlar, ordudan tərxis olunmuş yüksək rütbəli hərbiçilər
- Yarınköçəri qızılbaş tayfalarının hərbi əyanları, mülki bürokratiyanın yuxarı təbəqəsi, qədim oturaq əyanlar
- √ Şah və hakim sülalənin üzvləri, yarınköçəri qızılbaş tayfalarının hərbi əyanları, ali şiə rühaniləri, mülki bürokratiyanın yuxarı təbəqəsi, qədim oturaq əyanlar
- Şah və hakim sülalənin üzvləri, ali şiə rühaniləri, mülki bürokratiyanın yuxarı təbəqəsi, qədim oturaq əyanlar, azad icmaçı kəndlilər
- Şah və hakim sülalənin üzvləri, ali şiə rühaniləri, mülki bürokratiyanın yuxarı təbəqəsi, qədim oturaq əyanlar, vəzir və onun köməkçiləri

564. Səlcuq sultanı Məlikşahın dövründə Dərbənd:

√ İqta şəklində İraq hakiminə bağışlandı
• Şirvanşahların tabeçiliyinə verildi
• Şəddadilərə iqta şəklində verildi
• Vəqf mülkünə çevrildi
• Müstəqil əyalətə çevrildi

565. Ərəblər Albaniyanin müstəqilliyinə son qoydular:

• Xəzərlərdən kömək almaqla VIII əsrin əvvəllərində
• Hilat şəhəri yaxınlığında xəzərləri məğlub etməklə
• 705-ci ildə Varaz-Trdatın öldürülməsi ilə
• 681-ci ildə Cavanşirin ölümündən sonra
√ 705-ci ildə alban hakimi Şeruyə və ona yaxın adamların öldürülməsi ilə

566. Albaniyada xristianlığın hansı qolu daha çox yayılmışdı?

√ Nestorian
• pravoslav
• monofizit
• xalkedon
• katolık

567. Erkən orta əsrlərdə Azərbaycana gəlmiş türkdilli etnoslar hansı ittifaqda birləşmişdilər:

• kəngər
√ Hun
• sabir
• qıpcaq
• xəzər

568. Kür-Araz mədəniyyəti əhatə edir?

• e.ə.VI minilliyi
√ e.ə.IV minilliyin ikinci yarısından e.ə.III minilliyin sonuna qədər
• e.ə.II-I minillikləri
• e.ə.VI-V minillikləri
• e.ə.II minilliyi

569. Naxçıvan mədəniyyəti əhatə edir?

• e.ə.VI minilliyi
• e.ə.II minilliyi
• e.ə.IV minilliyin ikinci yarısından e.ə.III minilliyin sonuna qədər
√ e.ə.II minillik və e.ə.I minilliyin əvvəli
• e.ə.VI-V minillikləri

570. Hülakilər dövründə Azərbaycan inzibati cəhətdən bölünürdü:

• 19 tümənə
• 5 tümənə
√ 9 tümənə
• 12 tümənə
• 16 tümənə

571. Gəncə yaxınlığında böyük şair Nizami Gəncəvi ilə görüşmüş Atabəy hökmdarı :

• Özbək
√ Qızıl Arslan
• Şəmsəddin Eldəniz
• Əbubəkr

- Məhəmməd Cahan Pəhlivan

572. Alban hökmdarı Cavanşirin VII əsrin 60- cı illərində Ərəb xilafətinə qarşı siyasətini dəyişməsinin səbəbi:

- Ərməniyyə torpaqlarını tutmaq istəyi
- √ Ərəb xilafəti kimi güclü bir dövlətin himayəsini qazanmaq istəyi
- Bizans torpaqlarını işğal etmək arzusu
- Xəzərlərlə yaxınlaşmaq istəyi
- Ölkə daxilində üsyanları yatırmaq üçün ərəblərdən yardım almağa ehtiyac duyması

573. Səfəvi dövlətinin İngiltərə ilə əlaqələrinin təşəkkül tapmasında mühüm rol oynadı:

- Hind tacirləri
- xristian rahiblər
- Masonlar
- səyyahlar
- √ "Moskva şirkəti"

574. Osmanlı dövləti son on ildə işğal etdiyi bütün torpaqları Səfəvilərə qaytarmalı idi

- 1639-cu il Qəsri-Şirin müqaviləsinə görə
- 1727-ci il Nabur sülhünə görə
- 1724-cü il İstanbul sülhünə görə
- √ 1733-cü il Bağdad müqaviləsinə görə
- 1732-cil Kirmanşah müqaviləsinə görə

575. Səfəvilərin hakimiyyətinin ilk dövründə vəkil vəzifəsi

- Hərbi məsələlər üzrə Şahın tam səlahiyyətli müavini hesab edilirdi
- √ Dini dünyavi məsələlərin həllində Şahın tam səlahiyyətli müavini hesab edilirdi
- Vəzirdən sonra səlahiyyətli şəxs hesab edilirdi
- Xarici məsələlər üzrə Şahın tam səlahiyyətli müavini hesab edilirdi
- Mülki bürokratiyanın əyanlarının başçısı idi

576. Hülakülər zamanında Mərkəzi dövlət divanına başçılıq edirdi:

- Baş əmir
- Noyonlar
- Qol əmirləri
- Mustovfi
- √ Vəzir və onun naibi

577. Gəncəyə birinci yürüş zamanı müqavimətə rast gələn monqollar:

- √ Xərac almaqla kifayətləndilər
- Qıpçaqlarla döyüşə girdilər
- Məcburiyyət qarşısında qalaraq sülh bağladılar
- Beyləqanı işğal edərək Gürcüstana getdilər
- Şirvanşaın göndərdiyi on nəfər elçinin birini öldürüb, qalanlarının vasitəçiliyi ilə Dərbənddən keçərək Monqolıstana qayıtdılar

578. Hülakilər səltənətini mühafizə etmək bəhanəsi ilə aparılan mübarizələrdə iştirak edən feodal qruplarına aiddir?

- Çobanilər, Qızıl Ordalılar
- Şirvanşahlar, Səlcuqlar, Xorasan əmirləri
- Cəlairilər, Ağqoyunlular
- Qaraqoyunlular, Abbasilər
- √ Cəlarilər, Xorasan əmirləri, Çobanilər

579. XI əsrin 60-cı illərinin əvvəllərində Şirvanda, Təbrizdə, Salmasda, Xoyda xalq kütlələrinin feodal zülmünə qarşı baş vermiş çıxışlarının səbəbi nə idi?

- Səlcuqların yürüşləri
- Səlcuqların Şirvanşahlar dövlətini özlərinə tabe etməsi
- Gürcülərin işğalçı yürüşləri
√ Xəracın məbləği və toplanma qaydası
- Slavyanların işğalçı yürüşləri

580. Azərbaycan ərazisində Səlcuqların hücum və təzyiqləri nəticəsində fəaliyyətlərini dayandırmağa məcbur olmuş dövlətləri müəyyən edin:

- Salarilər, Şəddadilər, Sacilər
- Salarilər, Rəvvadilər,Şirvanşahlar
- Şirvanşahlar, Sacilər, Salarilər
√ Şəddadilər, Rəvvadilər, Şirvanşahlar
- Sacilər, Rəvvadilər,Şəddadilər

581. Quruçay arxeoloji mədəniyyətinin yaşı nə qədərdir?

- 2.5 min il
- 100 min il
- 10,5 milyon il
√ 1,5 milyon ildən artıq
- 1 milyon il

582. Talış-Muğan mədəniyyəti əhatə edir?

- e.ə.XVI-XV əsrləri
√ e.ə.XIV-VII əsrləri
- e.ə. V-III əsrləri
- e.ə. XX-XIX əsrləri
- e.ə. XVII-XVI əsrləri

583. En-Merkar hərbi yardım üçün Aratta hökmdarına müraciət etdi

- Uruk şəhərindəki üsyanı yatırtmaq üçün
- Luqalbandanın Uruk şəhərinə hücumu zamanı
√ Sami tayfaları Uruk şəhərini mühasirə edən zaman
- Uruk şəhərini ələ keçirmək üçün
- Urqirnuna Uruku mühasirəyə alan zaman

584. Quba xanı Fətəli xan gürcü çarı II İrakli ilə birlikdə neçənci ildə Gəncəyə hucum etdi?

- 1792- ci ildə
- 1780- ci ildə
- 1789- cu ildə
√ 1788- ci ildə
- 1787- ci ildə

585. Cavad xanlığı neçənci ildə Quba xanlığı tərəfindən təşkil olunan Şimal – şərqi Azərbaycan ərazisinə daxil edildi?

- 1756- cı ildə
- 1767- ci ildə
√ 1768 - ci ildə
- 1785- ci ildə
- 1769- cu ildə

586. Qızılbaş ordusunun Çaldıran döyüşündə məğlubiyyətinin səbəblərindən deyil:

√ Avropa dövlətlərinin vədlərinə xilaf çıxaraq Səfəvilərə yardım göstərməməsi
- Şah İsmayılın və qızılbaş sərkərdələrinin əvvəlki qələbələrdən arxayınlaşması

- Şah İsmayılın gecə hücuma keçmək barədə təklifi qəbul etməməsi
- Osmanlı ordusunun həm canlı qüvvədə, həm də müxtəlif silahlarla təchizatda qızılbaşları üstələməsi
- Osmanlı ordusunun yüksək hərbi nizama malik olması və Avropa sistemini mənimsəməsi

587. Azərbaycanda özbaşınalıq, çapqınçılıq, oğurluq çoxaldı, xalq kütlələrinin feodal sinfinə və monqol istilaçılarına qarşı mübarizəsi artdı:

- Qazan xanın vergi islahatı nəticəsində
- Qazan xanın torpaq islahatı nəticəsində
- √ Keyxatu xanın pul islahatı nəticəsində
- Kəndlilərin torpağa təhkim edilməsi ilə
- Azərbaycan ərazisinin 110 monqol noyonu arasında bölünməsi nəticəsində

588. Göstərilənlərin hansı Şəddadi hökmdarına aid olduğunu müəyyən edin: İqtisadi, ictimai həyatda və xüsusilə orduda bir sıra faydalı islahatlar keçirərək Gürcüstanla və Şirvanşahlarla müharibələri davam etdirdi.

- Əbülhəsən Ləşkəriyə
- III Fəzluna
- Fəzlə
- Mərzban ibn Məhəmmədə
- √ Əbüləsvar Şavura

589. X əsrin ortalarında və ikinci yarısında Salari hökmdarı Mərzuban ibn Məhəmmədə, sonra isə onun varisi İbrahimə tabe olub, xərac ödəyirdi:

- Şirvanşah Fəriburz
- Rəvvad-əl-Əzdi
- Sacilərin hökmdarı Deysəm
- √ Əbülheyca Rəvvadi
- Şirvanşah Heysəm ibn Xalid

590. Əməvilər sülaləsinin hakimiyyəti dövründə Azərbaycanın cənub sərhədi hansı şəhərdə qurtarırdı:

- Marağada
- Kaşanda
- √ Həmədanda
- İsfahanda
- Zəncanda

591. Cahanşah Əcəm İraqını , bütün Qərbi İranı və Şərqi İranın bir hissəsini ələ keçirdi:

- √ 1453- cü ildə
- 1455- ci ildə
- 1459- cu ildə
- 1460 - cı ildə
- 1462- ci ildə

592. Qaraqoyunluların Şirvanşahlara düşmən münasibəti hansı hökmdarın dövründə dəyişdi:

- Həsənəlinin
- √ Cahanşahın
- İskəndərin
- İsfəndiyarın
- Qara Yusifin

593. Baysunqurla Rüstəm Mirzə arasında baş vermiş Bərdə döyüşünün nəticəsi:

- Əlvənd Mirzə vəziyyətdən istifadə edərək Ərəb İraqını ələ keçirdi
- Gödək Əhməd Ağqoyunlu dövlətində üstün mövqe qazandı
- √ Döyüş Rüstəm Mirzənin qələbəsi ilə sona çatdı
- Ağqoyunlu dövləti əmirlər arasında ikiyə bölündü

- Hakimiyyəti sultan Murad ələ keçirdi

594. Şirvan hökmdarı Fərrux Yasar Rus dövlətinin başçısı III İvanla diplomatik münasibətlərin qurulmasına ilk dəfə nə zaman cəhd etdi:

- 1457- ci ildə
- 1469- cu ildə
- 1446- cı ildə
- 1438- ci ildə
- √ 1465- cı ildə

595. Ağqoyunlu dövlətində vəqf mülklərinə, mədrəsə və dini müəssisələrə rəhbərlik edirdi:

- amil
- √ sədr - əzam
- əmir-ül-üməra
- baş vəzr
- mustofi

596. XV əsrdə rus çarları və Moskva knyazları Şirvan hakimini necə adlandırırdılar:

- Böyük sultan
- Şirvan xanı
- Kiçik xan
- √ Böyük bəy və ya Ağ xan
- Xəzər xan

597. 1724 – cü ildən Osmanlı Türkiyəsi tərəfindən zəbt edilən Qarabağ bəylərbəyliyinin mərkəzi hansı şəhər idi?

- Zəngəzur
- Şuşa
- İrəvan
- √ Gəncə
- Qafan

598. Ərəblərin hücumu ərəfəsində Azərbaycan:

- 667-ci ildə xəzərlərin hücumuna məruz qaldı
- 646-cı ildə Ərdəbil əhalisi ərəblərlə müqavilə imzaladı
- √ Sasanilərin hakimiyyəti altında qalmaqla şimal inzibati vahidinin tərkibində idi
- Alban ordusu Cavanşirin rəhbərliyi ilə 636-cı ildə Kadusiyyə döyüşündə iştirak edib
- Cavanşir 654-cü ildə Bizansla müqavilə bağladı

599. Ərəb işğalçılarına qarşı mübarizə aparmış Albaniya hökmdarı kim idi:

- √ Cavanşir
- II Vace
- Urnayr
- III Yezdəgird
- Mehran

600. XII əsrin 20-ci illərində yaranmış tarixi şərait nəticəsində:

- Monqolların Azərbaycana ilk kəşfiyyat yürüşü başa çatdı
- √ Şirvanşahlar dövləti bərpa olundu və fəaliyyətini davam etdirdi
- Xarəzmşah Cəlaləddin Azərbaycanı işğal etdi
- Azərbaycan Atabəylər dövləti yarandı
- Səlcuq imperiyası süquta uğradı

601. IX-XI əsrlərdə Azərbaycanda hökmdara və onun sülaləsinə mənsub torpaqlar adlanırdı?

- Tiyul
- Mülk
- İcma
- √ Əmlakı xasse
- Divanı

602. 953-cü ildə anasının və yaxın adamlarının köməkliyi ilə əsirlikdən qaçan Salari hökmdarı?

- √ Mərzban ibn Məhəmməd
- İbrahim
- Deysəm
- Divdad
- Vəhsudan

603. Azərbaycan memarı Məsud ibn Davud tərəfindən yaradılmış abidə idi:

- Oğlanqala
- Gülüstan qalası
- Üç günbəz
- Əlincə qalası
- √ Qız qalası

604. Rəvvadi hakimi Vəhsudanın səlcuqların vassal asılılığını qəbul etməsindən neçə il sonra Səlcuqlar Rəvvadilərin daxili müstəqilliyini tamam ləğv edərək Təbrizə səlcuq əmiri təyin etdilər?

- 21 il
- √ 11 il
- 15 il
- 24 il
- 27 il

605. Rəvvadilər dövləti səlcuqların vassallığını qəbul etməyə məcbur oldu?

- 1055-ci ildə
- 1227-ci ildə
- 1065-ci ildə
- √ 1054-cü ildə
- 1037-ci ildə

606. Aşağıda göstərilənlərin Məzyədilər sülaləsinin hansı nümayəndəsinə aid olduğunu müəyyən edin:1)Xilafətdə bir sıra hərbi-inzibati vəzifələr icra etmiş 2)Ərməniyə və Azərbaycanda xilafətin valisi olmuşdur 3)Bərdədə vəfat etmişdir.

- √ Yəzid ibn Məziyəd.
- Xalid ibn Məziyəd.
- Heysəm ibn Xalid.
- Əsəd ibn Məziyəd.
- Məhəmməd ibn Yəzid.

607. XV əsrin ortalarından sonrakı dövrdə Səfəvilərin şiə məzhəbinə qoşulmasının səbəbi:

- Ağqoyunlularla yaxınlaşmaları
- Ərdəbilin müstəqilliyi uğrunda mübarizəyə başlamaları
- √ Siyasi mübarizə meydanına çıxmaları
- İqtisadi vəziyyətlərinin ağırlaşması
- Osmanlı dövləti ilə münasibətlərin pisləşməsi

608. Xronoloji ardıcıllığı göstərin: 1.Şərur 2.Cabanı 3.Almaqulağı

- 2, 3, 1

- 1, 3, 2
√ 2, 1, 3
- 3, 2, 1
- 1, 2, 3

609. Şah I İsmayıl Xorasan uğrunda mübarizə aparmışdır:

- Böyük Moğollarla
- Osmanlılarla
√ Şeybanilərlə
- Şirvanşahlarla
- Teymurilərlə

610. Sultan I Süleymanın Azərbaycana üçüncü yürüşünə aiddir:

- Təbriz əhalisi Səfəvilərə qarşı üsyan qaldırdı
- Şirvanşahlar dövləti süquta uğradı
√ Təbrizdə əhali osmanlılara qarşı üsyan qaldırdı
- müstəqil Şəki hakimliyi ləğv edildi
- Şirvanşahlar dövləti bərpa edildi

611. Səfəvilər dövründə soyurqal:

- yalnız müridlərə verilirdi
√ şiə ruhanilərinin və inzibati bürokratiyanın ixtiyarında olan xırda yaşayış məntəqələrinə çevrildi
- elm və incəsənət xadimlərinə verilirdi
- ləğv edildi
- vəqf torpaqlarına birləşdirildi

612. Döyüşlərin xronoloji ardıcıllığını müəyyən edin: 1.Məşəl savaşı 2.Qanıx 3.Mollahəsənli

- 2, 1, 3
- 1, 2, 3
- 3, 2, 1
- 1, 3, 2
√ 2, 3, 1

613. Səfəvi dövlətinin Portuqaliya ilə münasibətlərinin gərginləşməsinin səbəbi:

- Osmanlı imperatorluğu ilə müharibədə Portuqaliyanın iştirak etməməsi
- Portuqaliyanın Osmanlı dövləti ilə sazişə girməsi
- Portuqaliyalı rahiblərin Səfəvi dövləti ərazisində missionerlik fəaliyyəti ilə məşğul olması
√ Portuqaliyanın Hörmüzü ələ keçirərək Səfəvilərin Hind okeanına çıxışını kəsməsi
- Portuqaliyanın odlu silah hazırlamaq üçün Səfəvi dövlətinə mütəxəssislər göndərməməsi

614. Şah I Abbasın qızılbaş əmirlərinə qarşı gördüyü tədbirlərdə başlıca məqsəd idi:

- Səfəvi dövlətini İran dövlətinə çevirmək
√ mərkəzi hakimiyyəti möhkəmləndirmək
- anasının qatillərindən qisas almaq
- şiə təbliğatını dayandırmaq
- xəzinəni doldurmaq

615. Şah I Abbasın hərbi islahatı nəticəsində yaradılan nizami ordunun əsas zərbə qüvvəsi idi:

- tüfəngçilər
- topçular
√ qulamlar
- süvarilər
- piyadalar

616. Şah I Abbasın "böyük sürgün" adı ilə məşhur olan siyasətində məqsədlərinə aiddir: 1.dövlətin cənub bölgələrində şiə təbliğatını genişləndirmək 2.Osmanlılara qarşı Azərbaycanda "yandırılmış torpaq" taktikasını tətbiq etmək 3.dünya tranzit ticarətinin əsas yolunu Səfəvi dövlətinin cənubuna köçürmək 4.köçürülən əhalinin köməyi ilə üsyanları yatırmaq

- √ 2, 3
- 1, 4
- 2, 4
- 3, 4
- 1, 3

617. Səfəvi dövlətində Sədrin əsas vəzifəsi:1. dönüklərin antifeodal hərəkatının qarşısını almaq 2.mərkəzi hakimiyyətə qarşı qiyamları yatırmaq 3.Şiəliyin yayılması və möhkəmləndirilməsi üçün məsuliyyət daşıyırdı 4.ölkədə yığılan vergilərə nəzarət edirdi 5. xarici siyasətə rəhbərlik edirdi

- 1, 2
- 2, 4
- 3, 5
- √ 1, 3
- 4, 5

618. Səfəvilər dövründə vəzir:

- Xarici siyasət məsələləri üzrə Şahın müavini
- Dini məsələlər üzrə Şahın müavini
- Hərbi məsələlər üzrə Şahın müavini
- √ Mülki bürokratiyanın rəhbəri
- Şəriət məhkəmələrinə nəzarət edir

619. I şah Abbası hakimiyyətə gətirən qızılbaş tayfalar:

- Fars tayfaları
- Təkəli və rumlu tayfaları
- Şamlı və rumlu tayfaları
- İran etnik qrupları
- √ Ustaclı və Şamlı tayfalarından olan Xorasan qrupu

620. I şah Abbasın hakimiyyət illərində:

- √ Azərbaycan türkcəsi orduda və şah sarayinda üstünlük təşkil edirdi
- Dövlətin mahiyyəti dəyişərək Avropa dövlətinə çevrilir
- Sarayda fars dili, orduda azərbaycan türkcəsi üstünlük təşkil edirdi
- Sarayda azərbaycan dili, orduda fars dili üstünlük təşkil edirdi
- Fars dili orduda və sarayda üstünlük təşkil edirdi

621. XVI yüzliyilliyin sonu- XVII yüzilliyinin I rübündə Səfəvi dövlətinin yenidən güclənməsi hansı Səfəvi şahının adı ilə bağlıdır?

- √ Şah I Abbasın
- Şah I İsmayılın
- Şah II İsmayılın
- Şah I Təhmasibin
- Şah Məhəmməd Xudabəndənin

622. I Şah Abbasın azərbaycanlıları öz doğma yerlərindən köçürməsi nə məqsəd daşıyırdı:

- Siyasi
- Qızılbaşların əvvəlki qüdrətini bərpa etmək
- √ İqtisadi
- Osmanlı hücumları ilə əlaqədar türklərə meyilli olmaları
- Kütləvi narazılığı yatırmaq üçün

623. 1736-cı ildə baş vermişdir:

√ Nadir xanın "şah seçilməsi"
• Gəncə müqaviləsinin bağlanması
• Rəşt müqaviləsinin bağlanması
• Nadir şahın sui-qəsd nəticəsində öldürülməsi
• II Təhmasibin taxtdan salınması

624. 1578-ci ildə osmanlıların Azərbaycana hücumu zamanı türklər hansı şəhəri ələ keçirməklə Şimali Azərbaycana faktiki olaraq sahib oldular:

• Naxçıvan
• Bakı
• Quba
• Şəki
√ Şirvan

625. Səfəvilər dövləti inzibati cəhətdən bölünmüşdü:

• mahallara
√ əyalətlərə
• xanlıqlara
• sultanlıqlara
• vilayətlərə

626. Nadir şahın hakimiyyəti dövründə:

• Qarabağ bəylər bəyliyi ləğv edildi
√ Azərbaycan adı altında vahid inzibati bölgü yaradıldı
• Şirvan bəylər bəyliyi ləğv edildi
• Keçmiş inzibati bölgü saxlandı
• Cuxur-Səd bəylər bəyliyi ləğv edildi

627. Nadirqulu xan türk qoşunları üzərində ilk böyük qələbəni qazandı:

• Qarabağda
• Ərdəbildə
√ Marağada
• İrəvanda
• Təbrizdə

628. I Pyotrun yürüşü ilə bağlı hadisələrin xronoloji ardıcıllığını müəyyən edin: 1.Bakının ruslar tərəfindən işğalı 2. I Pyotrun Azərbaycan torpaqlarına yürüşünün başlanması 3.Rus qoşunlarının Dərbəndi işğal etməsi

√ 2, 3, 1
• 1, 2, 3
• 1, 3, 2
• 2, 1, 3
• 3, 2, 1

629. 1677-ci ildə Çuxursəd bəylərbəyliyində baş vermiş üsyanın səbəbi:

• Osmanlı hərbi-inzibati qurumlarının zülmü
• Bəylərbəyliyin acınacaqlı vəziyyətə düşməsi
• Ağır vergilər qoyulması
√ Əsgərlərə məvacib verilməməsi
• Şah Sultan Hüseyin tərəfindən istismarın şiddətləndirilməsi

630. XVII əsrdə Azərbaycanda mövcud olmuş torpaq mülkiyyət formaları:

√ Divan, xalisə, tiyul, vəqf, mülk, camaat
• Divan, inci, dastakert, vəqf, mülk, iqta
• İqta, dastakert, divan, xalisə, mülk, tiyul
• Xalisə, divan, dastakert, incu, xalisə, vəqf
• İncu, dastakert, divan, vəqf, tiyul, camaat

631. 1667-ci ildə ticarət müqaviləsi bağlanmışdır:

• Osmanlılarla Səfəvilər arasında
• Ukrayna ilə Rusiya arasında
√ Rusiya ilə Səfəvilər arasında
• Səfəvilərlə Gürcü çarları arasında
• Səfəvilərlə Avropa dövlətləri arasında

632. Səfəvi imperatorluğunun bilavasitə şah sarayının hakimiyyəti altında olan daxili vilayətlərindən əldə edilən gəlir çatdırılırdı:

√ Birbaşa şah sarayına
• Xanlara
• Vilayətlərin maliyyə idarə-lə-rinə
• Sultanlara
• Bəylərbəyilərə

633. I Şah Abbasın hakimiyyətə gəldiyi sosial-siyasi şərait və beynəlxalq vəziyyətin səciyyəvi cəhətlərini göstərin.1.Daxildə Qızılbaş əmirləri arasında hakimiyyət uğrunda gərgin mübarizə gedirdi, Şərqdən Şeybanilər sıxışdırırdı.2.Osmanlı dövləti tərəfindən Azərbaycanın böyük hissəsi ələ keçirilmişdi.3.Ölkə daxilində sabitlik, şərq və qərb sərhədlərində əmin-amanlıq hökm sürürdü. 4.Beynəlxalq vəziyyət əlverişli idi, daxildə sabitlik hökm sürürdü.

• 2, 3
√ 1, 2
• 1, 3
• 2, 4
• 3, 4

634. I Pyotr tərəfindən işğal olunmuş ilk Azərbaycan şəhəri hansıdır?

√ Dərbənd
• Salyan
• Təbriz
• Şamaxı
• Bakı

635. I Pyotrun ölümündən sonra Rusiya hökumətinin Xəzəryanı bölgələri qaytarmaq fikrinə düşməsinin səbəbləri:1. Osmanlı təzyiqinə davam gətirməməsi 2.Buradakı ordunun saxlanmasına çəkilən xərcin götürülən gəlirdən 4 dəfə sox olması 3.İngiltərənin Hindistanın şərq sərhədlərindən Rusiyanı çıxarmaq üçün gördüyü tədbirlər 4.Rus əsgərlərinin iqlimə uyğunlaşmaması

• 1, 4
√ 2, 4
• 2, 3
• 1, 2
• 1, 3

636. Azərbaycan Səfəvi dövlətinin paytaxtları olmuş şəhərləri göstərin:1.Təbriz 2.Tehran 3.Qəzvin 4.Şamaxı 5.İsfahan

• 1, 2, 4
√ 1, 3, 5
• 3, 4, 5
• 1, 2, 3
• 2, 3, 4

637. XVII əsr Azərbaycan incəsənəti hansı məktəbin təsiri ilə daha da inkişaf etdi?

- İsfahan incəsənət məktəbinin
√ Təbriz rəssamlıq məktəbinin
- Gəncə incəsənət məktəbinin
- Naxçıvan memarlıq məktəbinin
- Qəzvin miniatur məktəbinin

638. 1612-ci il Sərab sülhünün şərtləri hansı bənddə düzgün əks etdirilmişdir?

- Şimali və Cənubi Azərbaycan hər iki tərəf arasında bölündü və Səfəvilər Osmanlı dövlətinə ildə 300 yük ipək verməli idilər
- Araz çayı sərhəd olmaqla tərəflər arasında sülh imzalandı
- Şimali Gücüstan və Azərbaycanın böyük hissəsi osmanlılara verildi
- Şirvan istisna olmaqla, Səfəvilər bütün Azərbaycanı və Gürcüstanın bir hissəsinə yenidən sahib ola bildilər
√ Osmanlı dövləti Azərbaycanın, qismən Ermənistan və Gürcüstanın, habelə Kürdüstanın Səfəvilərə keçməsini tanıdı

639. Səfəvilər dövründə verilən tiyul torpaq mülkiyyət formasının xüsusiyyətləri hansı bənddə düzgün əks olunmuşdur?

- tiyul torpagından gələn gəlir qoşunun ehtiyaclarının ödənilməsinə xərclənirdi
- tiyul hərbi əyanlara verilirdi, gəlirin böyük hissəsi şah sarayının saxlanılmasına sərf olunurdu
- tiyul torpağı şərtsiz sahiblik hesab edilir, nəsildən nəsilə keçmirdi
- tiyul sahibi xəzinəyə vergi ödəməyə məcbur edilirdi
√ tiyul sahibi dövlətə xidmət edir, gəlirin müəyyən hissəsini özünə götürürdü

640. I Şah Abbasın 1604-1607-ci illərdə osmanlılara qarşı apardığı müharibə nə ilə nəticələnmişdir?

√ Bütün Azərbaycan, Ermənistan və Gürcüstan, qismən Dağıstan Şah Abbas tərəfindən tutuldu
- Cənubi Azərbaycan səfəvilərin əlinə keçmişdi
- Şimali Azərbaycan və Cənubi Azərbaycan, bütün Dağıstan osmanlılarda qaldı
- I Şah Abbas Bağdad daxil olmaqla Ərəb İraqına nail oldu
- Səfəvilər birinci mərhələdə Ərdəbil, Meşkin, Qaracadağa sahib oldular

641. 1501-ci il Şərur döyüşünün nəticəsi:

- Qızılbaşlar Ağqoyunlu Muradı məğlubiyyətə uğratdılar
- Səfəvilər Osmanlılara qalib gəldilər
- Qızılbaşlar Şeybaniləri əzdilər
√ Qızılbaşlar Ağqoyunlu Əlvənd Mirzəyə qalib gəldilər
- Qızılbaşlar Şirvanşahlara qalib gəldilər

642. XIV əsrin 70-ci illərində Qaraqoyunlular hansı ərazilərdə möhkəmlənə bilmişdilər?

- Bitlis, Ərzincan, Kayseridə
√ Ərzincan, Sivas, Gürcüstanın şimal torpaqlarında
- Ərzincan, Diyarbəkir, Osmanlı dövlətinin şərq torpaqlarında
- Diyarbəkir, Van, Qaramandə
- Xorasan, Bəlx, Rey, Qəzvində

643. 1548-ci il yürüşündə I Süleymanı müşayət edirdi:

- Alqas Mirzə, İsmayıl Mirzə
√ Əlqas Mirzə, Ülamə bəy
- Əlqas Mirzə
- Ülamə bəy, İsmayıl Mirzə
- Ülamə bəy

644. Sultan I Süleymanın Səfəvilərə qarşı birinci yürüşü nəticəsində:

- İraq-i Əcəm Osmanlı imperiyasının tərkibinə daxil oldu
- Xorasan Osmanlı imperiyası ilə Şeybanilər arasında bölüşdürüldü
- Azərbaycanın cənub vilayətləri Osmanlı dövlətinə birləşdirildi
- İrəvan və Naxçıvan bölgələri Səfəvilər dövlətindən ayrıldı

√ İraq-i Ərəb Osmanlı imperiyasının tərkibinə daxil oldu

645. 1521-ci ildə Qızılbaşların Gürcüstana üçüncü yürüşü nə ilə əlaqədar oldu:

- Kaxetiya hakiminin Kartliyə hücumu
- Kaxetiya ərazisində Səfəvilərə qarşı başlanmış üsyan
√ Kaxetiya çarı Ləvənd xanın Şəkiyə hücumu
- Kaxetiya hakiminin xərac verməkdən imtina etməsi
- Kartli çarının Şirvana yürüşü

646. 1555-ci il Amasya sülhünün şərtlərinə aiddir:

- Təbriz də daxil olmaqla Azərbaycanın cənub torpaqları Osmanlda qaldı
√ Şərqi Gürcüstan Səfəvilərdə, Qərbi Gürcüstan Osmanlılarda qaldı
- Bütün Azərbaycan Osmanlı dövlətinə keçdi
- Cənubi Azərbaycan iki dövlət arasında bölüşdürüldü
- Şirvan ərazisi Osmanlı dövlətinə verildi

647. Paytakaran vilayətinin başçısı Sanatürkün Armeniyaya yürüşü baş vermişdir

- 340 – cı ildə
- 336- cı ildə
- 330- cu ildə
- 371- ci ildə
√ 337- ci ildə

648. Alanların Parfiyaya hücumu çərçivəsində Adərbayqana dağıdıcı yürüşləri nə zaman olmuşdur:

√ 136- cı ildə
- 262- ci ildə
- 114- cü ildə
- 260- cı ildə
- 145- ci ildə

649. Rəvvadi dövlətini məğlub edən səlcuqlar Təbrizə səlcuq əmiri təyin etdilər

- 1096
- 1092
- 1027
- 1088
√ 1065

650. Xronoloji ardıcıllığı müəyyən edin?1)Usta Bəndərin başçılığı ilə Gəncə üsyanı 2)Dərbəndilər sülaləsinin hakimiyyətə gəlməsi 3)Qızıl Orda xanı Özbəyin Azərbaycana yürüşü 4)Qazan xanın islahatı 5)Azərbaycan, eləcə də Ön Qafqaz ərazisinin Ali Monqol xaqanının təyin etdiyi canişinlər tərəfindən idarə olunması

- 4, 3, 2, 5, 1
√ 1, 5, 4, 3, 2
- 2, 3, 5, 4, 1
- 1, 3, 5, 4, 2
- 1,2, 4, 5, 3

651. Erkən orta əsrlərdə uti tayfasının adı Azərbaycanın hansı bölgəsinin əhalisinə şamil edilirdi:

- Şamaxı
- Gəncə
√ Bərdə
- Arsax
- Şəki

652. Hansı şəhər işğal olunmaqla bütün Azərbaycan monqollar tərəfindən istila olundu?

- Bərdə
- Təbriz
√ Dərbənd
- Şamaxı
- Bakı

653. Qazan xanın islahatlarına aid deyil?

√ Hərbi
- Məhkəmə
- Rabitə
- Torpaq
- Vergi

654. Keyxatu xan xəzinənin daha da boşalmasının qarşısını almaq məqsədilə hansı tədbiri gördü?

- Feodalların özbaşınalığına son qoydu
- Əhali üzərinə ağır vergilər qoydu
- Orduda nizam-intizam yaratdı
√ Çao adlanan pul tədavülə buraxdı
- Əhali siyahıya alındı

655. Monqolların III yürüşü zamanı yaranan dövlət?

√ Elxanilər
- Şirvanşahlar
- Eldənizlər
- Teymurilər
- Qızıl Orda

656. 1231-ci il Gəncə üsyanı kimə qarşı yönəlmişdi?

√ Xarəzmşah Cəlaləddinə
- Çobani Əşrəfə
- Toxtamışa
- Qara Yusifə
- Teymurilərə

657. Qazan xanın yarımçıq qalan islahatı?

- Rabitə
- Dini
- Torpaq
- Vergi
√ Məhkəmə

658. Monqollar dövründə yeni yaranan vergi forması?

- Uc
√ Tamğa
- Bəhrə
- Malcəhət
- Xərac

659. Cormoqonun rəhbərliyi ilə monqolların Azərbaycana yürüşündən neçə il əvvəl Atabəy Şəmsəddin Naxçıvanda vəfat etdi?

- 46 il
- 51 il

√ 56 il
• 49 il
• 47 il

660. Çobani feodallarının zülmündən cana gələn Azərbaycan əhalisi:

√ Vətəni tərk edərək Gilana, Gürcüstana, Ruma, Şama, Bağdada və s. yerlərə gedirdilər.
• 1357-ci ildə Cəlairilərin Azərbaycana yürüşü zamanı onlara kömək göstərərək Hülakülər dövlətini süquta uğratdılar.
• Cəlairilərin və Xorasan əmirlərinin hakimiyyətini qəbul etdilər.
• Çobani əmirlərinin özlərinin müstəqilliyini elan etmələrinə imkan vermədilər.
• 1347-ci ildə Məlik Əşrəfə qarşı üsyan qaldırıb, ordusunu dağıdıb özünü isə öldürdülər.

661. Azərbaycanda yerli feodalların-vassalların köçəri monqol əyanlarından asılılığını gücləndirmək siyasəti yeridən monqol canişini:

• Molor noyon
• Toğa Teymur
• Arpa xan
√ Arqun ağa
• Həsən xan

662. Keyxatu xanın çao adlanan pulu tədavülə buraxmaqda məqsədi:

• Feodalların özbaşınalığına son qoymaq.
• Əhali üzərinə ağır vergilər qoymaq.
• Orduda nizam-intizam yaratmaq
• Əhalidən alınan torpaq vergisini artırmaq.
√ Xəzinənin daha da boşalmasının qarşısını almaq

663. Elxanilər dövləti yarandı?

• Monqolların hakimiyyətinin süqutu zamanı
√ Monqolların III yürüşü zamanı
• Monqolların I yürüşü zamanı
• Monqolların II yürüşü zamanı
• Əbu-Səidin hakimiyyəti dövründə

664. Qazan xanın həyata keçirdiyi islahatların nəticələrinə aid deyildir:1)İqtisadiyyatda canlanma baş verdi, ticarət inkişaf etdi.2)Elxanilər dövlətinin labüd tənəzzülünün bir müddət qarşısı alındı, feodal dağınıqlığı artdı.3)Vergilərin toplanması mərkəzi divana tapşırıldı, əhalinin vəziyyəti nisbətən yüngülləşdi.4)Elxanilər dövlətinin labüd tənəzzülünün bir müddət qarşısı alındı.5)Elxanilər dövlətinin tənəzzülü sürətləndirdi.6)Qazan xanla monqol əyanları arasında yaxınlıq daha da artdı.

√ 2,5,6
• 1,3,5
• 1,2.6
• 2,3,4
• 1,3,4

665. Qıpçaq dəstələri Azərbaycanda məğlub olub geri qayıtdılar?

• 1227-ci ildə
• 1225-cü ildə
• 1222-ci ildə
• 1221-ci ildə
√ 1223-cü ildə

666. Albaniya vilayətlərini vahid mərkəzdə birləşdirən Albaniya hökmdarı

√ I Vaçaqan
• Urnayr
• Mömin III Vaçaqan

- Sanatürk
- I Vaçe

667. Albaniyanın şəhərlərini tapdalayaraq Kürü keçib Araz sahillərinə qədər irəliləyən tayfa necə adlanırdı:

√ xəzərlər
- sabirlər
- hunlar
- slavyanlar
- ərəblər

668. Lullubi dövləti yaranmışdır?

- e.ə.IV minilliklərdə
- e.ə.II minillikdə
- e.ə.XXVIII-XXVII əsrlərdə
- e.ə.V minillikdə
√ e.ə.XXIII əsrdə

669. Xilafətin hakimiyyəti illərində Azərbaycanda paytaxt şəhər adlanırdı:

- Bərdə
- Təbriz
- Şamaxı
- Arran
√ Marağa

670. Girdiman vilayətinin hakimi Varaz Qriqor xristianlığın hansı təriqətini qəbul etdi:

- Pravaslav
√ Xalkedon
- Monofizitlik
- Nestorian
- Nikey

671. 623- cü ildə Adərbayqanın paytaxtı Qazakada atəşpərəstliyin baş məbədi hansı Bizans imperatoru tərəfindən qarət edilmişdi:

- Roman Diogen
√ II İrakli
- II Konstant
- Mavriki
- Foka

672. 748 – ci ildə Beyləqanda baş vermiş üsyana kim rəhbərlik edirdi:

- Hatib ibn Sədəqi
√ Vard ibn Səfyan
- Əbu İmran
- İbbən ibn Mənsur
- İsma əl – Kürdi

673. Xürrəmilərin məğlubiyyət səbəblərinə aiddir?1)Suriya və Misirdəki üsyançıların xürrəmilərlə əlaqəni kəsməsi 2)Babəkin öz məşhur sərkərdələrini itirməsi. 3)Üsyançılar arasında ixtilafların başlanması. 4)Yerli feodalların xəyanəti 5)Müharibə uzandıqca qüvvələr nisbətindəki fərqin ərəblərin xeyrinə dəyişməsi. 6)Xilafətin Bizansdan kömək alması

- 1,5,6
- 1,3,6
- 2,3,5
- 1,4,5
√ 2,4,5

674. Ərəblərin Bərdəyə yürüşü nəticəsində:

- Şəhər talan edildi.
- II Bələncər döyüşünə qədər Bərdə müdafiə olundu.
- Əhali xəzərlərdən kömək alaraq müqavimət göstərdilər.
- Əbəblər Bərdəyə daxil ola bilmədilər.
√ Bərdə əhalisi də xərac və cizyə vermək şərti ilə ərəblərlə müqavilə bağladı.

675. Erkən orta əsrlərdə Albaniyanın ərazisi gürcü qaynaqlarında necə adlandırılırdı

√ Rani
- Arani
- Albani
- Aqvan
- Alrani

676. Mənbələrdə adı çəkilən ilk Manna hökmdarı

- Ualli
√ Udaki
- Uduri
- Dayakku
- İranzu

677. İlk dəfə "alban" adı qaynaqlarda işlədilməyə başlamışdır:

- II əsrdə
√ e.ə.I-e.I əsrdə
- e.ə.V əsrdə
- e.ə.VIII əsrdə
- e.ə IV əsrdə

678. Azərbaycanda birinci böyük ictimai əmək bölgüsü baş verib?

- Antik dövrdə
- İlk orta əsrlərdə
- Neolit dövründə
√ İlk Tunc dövründə
- Eneolit dövründə

679. Manna hökmdarı Ullusunu ölkənin ərazi bütövlüyünü və müstəqilliyini saxlamaq üçün arxalanırdı:

- I Rusaya
- Atası Azaya
√ II Sarqona
- III Tiqlatpalasara
- Aşşurbanıpala

680. E.ə. 650-ci ildə Assuriyanın Manna üzərinə yürüşünün nəticəsində:

- Mannanın Subi vilayətində baş vermiş üsyan yatırıldı, bir sıra şəhər və qalalar dağıdıldı Assuriyaya xərac ödənilməsi bərpa olundu.
- Manna hökmdaı Ualli məğlub edildi, şəhərlər və qlalar dağdıldı, Aşşurbanipal bac alaraq öz ağalığını yenidən burada bərpa etdi.
- Hakimiyyətdə olan Ualli məğlub olaraq Assuriya ilə ittifaqı təcili olaraq bərpa etdi, oğlu Erisinnini Assuriyaya girov göndərdi.
√ Aşşurbanipal Mannanın bir sıra şəhər və qalalarını, o cümlədən paytaxtı İzirtunu dağıtdı,mal-qara və atlarını qənimət kimi apardı.
- II Sarqon Ullusunudan xərac alıb Midiya torpaqlarına daxil olur və burada dağıntılar törədir.

681. Antik mənbələr hansı dövrü əhatə edir?

- I-V əsrləri

- e.ə. I-e.I əsrləri
- e.ə.IV- II əsrləri
- e.ə. III-I əsrləri
- √ e.ə. V-e. III əsrləri

682. Erkən orta əsr yazılı mənbələri hansı dövrü əhatə edir?

- 1-III əsrlər
- I-VII əsrlər
- √ IV-X əsrlər
- 1-V əsrlər
- III-V əsrlər

683. Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin əhatə etdiyi dövr?

- E.ə. XIV-V əsrlər
- E.ə. II minillik-I minilliyin əvvəlləri
- √ E.ə. XIV-VIII əsrlər
- E.ə. XV-VII əsrlər
- E.ə. II minilliyin sonu

684. Azərbaycanda tunc dövrü başlayır?

- e.ə. IX minllikdən
- e.ə. VI minillikdən
- e.ə. X minillikdən
- √ e.ə. IV minilliyin ikinci yarısından
- e.ə. VII minillikdən

685. Paleolitin son mərhələsi əhatə edir?

- e.ə. 10-8 minilliklər
- e.ə.100-40-cı minilliklər
- √ eramızdan 40-30 min il əvvəldən – e.ə 12 –ci minilliyədək
- e.ə.6-4 minilliklər
- e.ə. 5-3 minilliklər

686. İbtidai-icma quruluşu hansı dövrdə formalaşır?

- Dəmir dövründə
- Neolit dövründə
- Tunc dövründə
- Eneolit dövründə
- √ Mustye dövründə

687. Naxçıvan mədəniyyəti:

- √ Orta Tunc dövründə formalaşmış, son Tunc və ilk Dəmir dövründə yüksək inkişaf səviyyəsinə çatmışdı.
- Son Tunc dövründə formalaşıb və inkişaf etmişdi.
- Kür-Araz mədəniyyətindən fərqli olaraq orta Tunc dövründə tənəzzülə uğramışdı.
- E.ə. XIV əsrdə yaranmış və ilk Dəmir dövründə formalaşmışdı.
- Erkən Tunc dövründə formalaşmış, son Tunc və ilk Dəmir dövründə yüksək inkişaf səviyyəsinə çatmışdı.

688. Eneolit dövründə Azərbaycanda:

- Xaçmaz rayonunda Sərkərtəpə yaşayış yerində ibadət evi və misin əridilməsi üçün kürə tapılmışdı.
- Atdan qoşqu vasitəsi kimi istifadə edilib, ev heyvanlarının yeni növlərinin əhilləşdirilməsinə başlanıb.
- Cənub hissədə İkiçayarası ilə sıx iqtisadi, social və mədəni əlaqələr movcud olub.
- √ Həm ictimai-sosial, həm iqtisadi, həm də mədəni həyatda mühüm dəyişikliklər və irəliləyişlər baş vermişdi.
- Mis emalı genişlənmiş, bununla əlaqədar Xocalı-Gədəbəy mədəniyyəti yaranmışdır.

689. Hacı Çələbinin Kartli və Kaxetiya çarlarına qarşı mübarizəsində hansı xanlıq və sultanlıqlar ona kömək etmişdi?

- Naxçivan, Borçalı , Qazax, Urmiya, Qarabağ
- Naxçıvan, Qazax, Gəncə, İrəvan, Urmiya
- √ Qazax , Şəmşəddil, Borcalı, İrəvan, Gəncə
- İrəvan, Naxçıvan , Qaradağ, Gəncə, Qazax
- Qaradağ , Borçalı, Qazax , Qarabağ, Gəncə

690. Hacı Çələbinin Şəkinin ərazisini genişləndirərək Ərəş və Qəbələ mahallarını da özunə tabe etməsi haqqında ətraflı məlumat verirdi:

- M.F. Axundov
- Hacı Zeynalabdin Şirvani
- Molla Pənah Vaqif
- F.Köçərli
- √ A. Bakıxanov

691. Quba xanı Fətəli xanın müqavilə ilə müvəqqəti olaraq himayəsinə götürdüyü xanlıq hansı ıdı?

- √ Şamaxı
- Dərbənd
- Şəki
- Ərdəbil
- Salyan

692. Hansı xanlıqların əhalisi Quba xanı Fətəli xanın himayəsinə sığınmaq istəyirdilər?

- Naxçıvan, Xoy, Qaradağ
- Bakı, Dərbənd, Şəki
- Ərdəbil, Meşkin, Qaradağ
- Qarabağ, Sərab, Urmiya
- √ Təbriz, Ərdəbil, Gəncə

693. 1775- ci ildə Quba xanı Fətəli xanın Rusiya tabeliyinə keçməsi ilə bağlı təklifi niyə rədd edildi?

- Rusiya bu dövrdə Cənubi Dağıstanın işğalı ilə məşğul idi
- Rusiyanın Avropada başı bərk qarışmışdı
- Rusiya yalnız Qubanı deyil, Cənubi Qafqazı tamamilə ələ keçirməyə çalışırdı
- Rusiyada daxili vəziyyət sabit deyildi
- √ Rusiya Türkiyə ilə bağladığı Kiçik Qaynarça sülhünü pozmaq istəmirdi

694. XVIII əsrin II yarısında Şəki xanlığının hansı kəndində kəndlilərin silahlı üsyanı baş vermişdi?

- Ərəş
- Gileyli
- Kiş
- √ Küngut
- Nuxa

695. XVIII əsrdə Azərbaycan məktəblərində dərslər əsasən hansı dildə apalılırdı?

- fars, rus
- türk, rus
- √ ərəb, fars
- azərbaycan, türk
- rus, azərbaycan

696. XVIII əsrdə yaşayıb yaratmış coğrafiyaşünas alim:

- Qazi Əhməd

- Mirzə Mükimi
- Mir Əbdülbaqi Danişməndin
- √ Hacı Zeynalabdin Şirvani
- Əbdürrəzzaq bəy

697. 1762 - ci ildə Şəki xanlığının sarayı kim tərəfindən tikilmişdir?

- Məhəmməd Mömin
- Hacı Məhəmməd Zare
- Mir İbad Qəzvini
- √ Hacı Zeynalabdin Şirazi
- Məhəmməd Hüseyn

698. 1787 – ci ildə Quba xanlığı tərəfindən Peterburqa göndərilən elçi heyyətinə kim rəhbərlik edirdi?

- Şeyx Əli Şirazi
- Fərhad xan Qaramanlı
- Mirzə bəy Cavanşir
- Sadiq bəy Əfşar
- √ Mirzə Sadiq Məmmədvəliyev

699. 1768-ci ildə Quba xanlığına birləşdirildi?

- Şəki xanlığı
- Bakı xanlığı
- √ Cavad xanlığı
- Dərbənd xanlığı
- Talış xanlığı

700. 1385-ci ildə Qızıl Orda xanı Toxtamış hansı şəraitdən istifadə edərək Azərbaycana yürüş etdi?

- Sultan Əhmədin Təbrizdə olmaması
- √ Teymurun baş vermiş hadisələrlə əlaqədar Sultaniyyədən Səmərqəndə qayıtması
- Cəlairlər dövlətinin zəifləməsi
- Hakimiyyət uğrunda mübarizə, feodal pərakəndəliyi
- Hülakilər dövlətinin süqutu